RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 169 (9914) 14 avqust 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Sarsılmaz qətiyyət üzərində qurulan strateji tərəfdaşlıq

## Bu, İlham Əliyevlə Donald Trampın praqmatik, obyektiv və ədalətli siyasətinin nəticəsidir

Azərbaycan özünün müstəqil siyasəti ilə dünya dövlətləri və xüsusən də güc mərkəzlərinin nəzərində ciddi etimad ünvanına çevrilib. Bu status imkan verir ki, rəsmi Bakı Avropa İttifaqının bir sıra üzvləri ilə strateji münasibətlərə malik olmaqla yanaşı, eyni məzmunlu və statuslu razılaşmanı Pekinlə də əldə edə bilsin. İndi isə dünyanın bir nömrəli iqtisadiyyatına sahib güc - ABŞ ilə strateji münasibətlərin əsasının qoyulması ölkəmizin özünün xarici siyasət prioritetlərində seçim edərkən nə qədər müstəqil davrana bildiyinin göstəricisidir.

İkitərəfli münasibətlər etimad və etibar məsələsidir. Bu kimi əlaqələrin qurulmasına qərar anidən verilmir, illərin sınağından çıxmış təmaslar strateji tərəfdaşlığın bünövrəsini təşkil etməlidir. Strateji münasibətlər tərəflərin üzərinə ciddi öhdəliklər qoyur və bu kimi əlaqələr tam əminliklə demək olar ki, müttəfiqliyin ən ali məqamıdır.

Dünya təcrübəsində, xüsusilə də son dövrlərdə seysmik geosiyasi vəziyyət və qeyri-sabit maraqlar şəraitində bəzi dövlətlərin, hətta özlərinin imzaladıqları strateji tərəfdaşlığa dair sənədlərdən irəli gələn vəzifə və öhdəlikləri pozduqlarının şahidi oluruq. Bu səbəbdən strateji əlaqələr müstəvisində münasibətlərin qurulması yüz ölçüb, bir biçməyi tələb edir.

Strateji müttəfiqləri bir-birilərinə yaxın edən bir amil ümumi maraqlar və üst-üstə düşən məqsədlərdirsə, digəri etibarı qazanmaq və onu qorumağı bacarmaqdır. Bu gün rəsmi Bakı ilə Vaşinqtonun dünyada baş verən bir sıra təzahürlərə baxışları ümumi xarakter daşıyır. Bu təbii ki, ilk növbədə Azərbaycanın beynəlxalq aləmdə yeni rol - orta güc statusu qazanması ilə bağlıdır. İndi Bakının xarici siyasət xətti təkcə təmsil olunduğu bölgə və ya qonşuları ilə məhdudlaşmır, artıq daha geniş coğrafiyalarda yaranan hadisələrə reaksiya verə bilmək mərhələsinə daxil olub. Bakının Yaxın Şərqdə oynamağa başladığı rol Vaşinqtonun bu mürəkkəb bölgədə baş verənlərə yanaşması ilə yaxınlıq təşkil edir. Məsələn, İsrail-Türkiyə və yaxud Suriya-İsrail münasibətlərinin bərpası və qurulması prosesində Azərbaycan da əsas vasitəçi qismində çıxış edir. Vaşinqtonun regional liderliklərini qəbul etdiyi və özünə müttəfiq saydığı Ankara və Təl-Əviv arasında pozitiv gündəmin olmasında həyati maraqları var. Əsəd diktaturası və istibdadından sonra qurulan yeni Suriyada sabitlik və iqtisadi rifah ABŞ-nin regional təhlükəsizlik sahəsində önəm verdiyi amillərdən biridir. Bu gün əgər Azərbaycan Suriyaya qaz ixrac edirsə, təbii ki, bütün sivil dünya kimi ABŞ tərəfindən də təqdir olunur.

6

# Azərbaycan-Pakistan strateji tərəfdaşlığı güclənir



Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin 2025-ci ilin fevralında Azərbaycana səfəri çərçivəsində təşkil olunan Pakistan-Azərbaycan biznes-forumu iki ölkə arasında ticarət dövriyyəsinin artmasına və qarşılıqlı investisiyaların güclənməsinə töhfə verdi. Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci il fevralın 24-ü Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə mətbuata verdiyi birgə bəyanatında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulamışdı. Bu dost ölkənin baş naziri dəfələrlə ölkəmizə səfərləri zamanı Xankəndi və Şuşaya da getmiş və birgə strateji tərəfdaşlığa dair bəyanatlarla çıxış etmişdir.

İkitərəfli münasibətlər Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlığı formatında da inkişaf edir. Pakistan hökuməti hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmiş, ölkəmiz üçün ən çətin anlarda onun yanında olmuşdur. Zəfərlə bitən 44 günlük Vətən müharibəsi buna bariz nümunədir. Hər iki ölkə bir sıra beynəlxalq qurumlar çərçivəsində də daim bir-birinin mövqeyini dəstəkləmişdir. Ölkələrimiz İslam Əməkdaşlıq Təşkilatı və D-8 çərçivəsində iqtisadi əlaqələri daha da genişləndirmək niyyətindədir.

Azərbaycan ilə Pakistan arasında ticarət-iqtisadi əlaqələr həmçinin strateji xarakter daşıyır və hər iki ölkənin hökumətləri bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün ciddi səylər göstərirlər. 2024-cü ildə qarşılıqlı ticarət dövriyyəsi 22,5 faiz artaraq 22 milyon dollara çatıb ki, bu da əvvəlki illə müqayisədə 4,9 milyon dollar çoxdur. Azərbaycanın Pakistandan idxalı 8,6 faiz artaraq 21,8 milyon dollar təşkil edib. Bu ilin yanvar-aprel aylarında iki ölkə arasında ticarət əməliyyatlarının həcmi təxminən 11 milyon dollar təşkil edib.

9

# Hüquqi islahatların təməli, milli həmrəyliyin rəmzi




1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi bərpa etdi, müasir dövlət quruculuğu üçün möhkəm əsas yaratdı. Ulu Öndərin qayıdışı həmçinin xalqımız üçün dönüş nöqtəsi oldu, uzaqgörən siyasəti milli müstəqilliyin qorunmasına, hüquqi dövlətin əsaslarının yaradılmasına və dövlət institutlarının möhkəmləndirilməsinə zəmin yaratdı. Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını qoydu. Bu hadisə dövlətçiliyimizin inkişafında tarixi mərhələ idi. Ulu Öndər qeyd edirdi: "... Mən bugünkü günü tarixi bir gün sayıram. Çünki Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının bütün tarixi ərzində ilk dəfə olaraq öz məsələlərimizi müstəqil, suveren şəkildə həll etmək imkanına malikik və bu zəmin əsasında müstəqil və suveren Azərbaycanın Konstitusiyasının layihəsini hazırlaya bilmişik".

Heydər Əliyevin də qeyd etdiyi kimi, Konstitusiya vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, dünya dövlətləri ilə sülh və əməkdaşlıq münasibətlərinin qurulması kimi ali məqsədlərin reallaşdırılması üçün əsas hüquqi baza rolunu oynayır. Əsas Qanunun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ümummilli Liderin 1996-cı il 1 noyabr tarixli fərmanına əsasən, hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başladı.

9

# İlham Əliyevə qlobal dəstək artır

## Beynəlxalq birlik ABŞ-də əldə edilən Azərbaycan-Ermənistan arasındakı sülh razılaşmasını alqışlayır

Avqustun 10-dan başlayaraq, dünyanın müxtəlif ölkələrinin, dost və qardaş dövlətlərin liderlərinin İlham Əliyevə etdikləri telefon zəngləri zamanı səsləndirdikləri fikirlərin ümumi məzmunu Azərbaycan Prezidentinin sülh gündəliyinin dəstəkləndiyi, təqdir edildiyi fonundadır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Ukrayna Prezidenti Volodimir Zelenski, Albaniya Prezidenti Bayram Beqay, Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Əl Tani, İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynlə telefon danışıqları zamanı dövlətimizin başçısının ABŞ səfərində imzalanan sənədlərin tarixi əhəmiyyəti və bunun əlaqələrin inkişafına verəcəyi töhfələrdən söhbət açılıb. Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin paraflanmasının, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

7

# ABŞ-nin Prezidenti Donald Tramp Nobel Sülh mükafatına layiqdir

## O, dünyada müharibələri dayandırmağa çalışan sülhpərvər lider kimi qəbul edilir

İki ölkə arasında sülhün yaranması üçün ABŞ Prezidenti Donald Tramp çox uğurlu təşəbbüslərlə çıxış edib. Demək olar ki, Donald Trampın adı dünya tarixinə müharibələrə son qoymağa, münaqişələri həll etməyə çalışan dünya lideri kimi düşəcək.

Rusiya-Ukrayna müharibəsi kontekstində apardığı danışıqlar və tərəfləri uzlaşdırmaq cəhdləri, 12 günlük İran-İsrail gərginliyinin bitirilməsindəki çağırışları və fəaliyyəti, Vaşinqtonda baş tutan Azərbaycan-Ermənistan danışıqları və digər xoşməramlı xidmətləri deməyə əsas verir ki, ABŞ Prezidenti Donald Tramp bundan sonrakı fəaliyyətində də dünyada sülh və əmin-amanlıq yaratmağa çalışacaq.

Prezident Donald Trampın dünyada sülhyaratma səylərini yüksək dəyərləndirən dövlətimizin başçısı Vaşinqtonda Birgə Bəyanatın imzalanması zamanı ABŞ Prezidentinin Nobel Sülh mükafatına layiq görülməsi üçün Nikol Paşinyan ilə birgə Nobel komitəsinə müraciət etmək barədə təkliflə çıxış edib: "Bəlkə biz baş nazir Paşinyan ilə razılaşarıq və Nobel mükafatının komitəsinə birgə təşəbbüs də irəli sürə bilərik. Cənab Tramp bu mükafata layiqdir". Mətbuata açıqlamasında Azərbaycan Prezidenti bir daha vurğulamışdır: "Bəs əgər Nobel Sülh mükafatı Prezident Trampa verilməsə, kimə verilməlidir? Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək".

6

# Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 10-cu, 12-ci, 15-ci, 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 12 (I kitab), maddə 1283; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli, 11 aprel tarixli 172-VIIQD nömrəli, 16 may tarixli 196-VIIQDvə 21 iyun tarixli 216-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1. 176.3-cü maddənin ikinci cümləsinə "işə" sözündən sonra "dövlət" sözü əlavə edilsin;**

**1.2. aşağıdakı məzmunda 234.3-cü maddə əlavə edilsin:**

**"234.3. Qətnamənin, yaxud məcburi icra edilməli olan digər məhkəmə aktının icraya yönəldilməsi qaydaları "İcra haqqında"və "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilir.".**

**Maddə 2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin** (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216; Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD, 161-VIIQD nömrəli, 1 may tarixli 188-VIIQD, 192-VIIQD nömrəli,3 iyun tarixli 209-VIIQD nömrəlivə 21 iyun tarixli 216-VIIQD nömrəli qanunları) **561-ci maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:**

**"Mülki hüquqların həyata keçirilməsinin təşkil edilməsi dövlətin inhisarındadır. Bu məqsədlə dövlət güc və ya məcburetmə tətbiq olunmasını, məcburi icra orqanlarının fəaliyyətini tənzimləyir, mülki-prosessual və icra haqqında qanunvericiliklə müəyyən edilən metodlar tətbiq edir.".**

**Maddə 3. Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282,** (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 144-VIIQD nömrəli, 18 mart tarixli 158-VIIQD, 161-VIIQD nömrəli, 11 aprel tarixli 172-VIIQD, 175-VIIQD nömrəli, 1 may tarixli 190-VIIQD, 192-VIIQD nömrəli, 3 iyun tarixli 209-VIIQD nömrəli və 24 iyun tarixli 224-VIIQD nömrəli qanunları) **aşağıdakı dəyişikliklər edilsin:**

**3.1. aşağıdakı məzmunda 16.1.11-6.6-cı maddə əlavə edilsin:**

**"16.1.11-6.6. xüsusi icra məmurları tərəfindən "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, məhkəmələrin və digər orqanların sənədlərinin icrasının həyata keçirilməsi ilə əlaqədar olan xidmətlərin göstərilməsi;";**

**3.2. 33.1-ci maddənin birinci abzasına "notariuslar" sözündən sonra "və xüsusi icra məmurları" sözləri əlavə edilsin;**

**3.3. 37.2-ci maddənin birinci cümləsində "və xüsusi notariusun" sözləri "bəyannamə, xüsusi notariusun və xüsusi icra məmurunun" sözləri ilə əvəz edilsin;**

**3.4. 96.1-ci maddənin ikinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:**

**"Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən xüsusi icra məmurunun fəaliyyətinə görə bir ay ərzində alınan standart və əlavə icra haqları (xərclər nəzərə alınmadan) vergitutma obyektidir.";**

**3.5. 99.3.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 99.3.14-cü maddə əlavə edilsin:**

**"99.3.14. "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən xüsusi icra məmurunun fəaliyyətinə görə onlara ödənilən standart və əlavə icra haqları.";**

**3.6. 101-ci maddə üzrə:**

**3.6.1. 101.4-cü maddədə "bəndi" sözü "abzasının birinci cümləsi" sözləri ilə əvəz edilsin;**

**3.6.2. aşağıdakı məzmunda 101.4-1-ci maddə əlavə edilsin:**

**"101.4-1. Xüsusi icra məmuru üçün bu Məcəllənin 96.1-ci maddəsinin ikinci abzasının ikinci cümləsi ilə müəyyən edilmiş vergitutma obyektindən 10 faiz dərəcə ilə vergi tutulur.";**

**3.7. 149-cu maddə üzrə:**

**3.7.1. 149.1.4-cü maddəyə "notariuslar," sözündən sonra "xüsusi icra məmurları," sözləri əlavə edilsin;**

**3.7.2. 149.2-ci maddə üzrə:**

**3.7.2.1. birinci cümləyə "notariuslar" sözündən sonra "və xüsusi icra məmurları" sözləri əlavə edilsin;**

**3.7.2.2. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:**

**"Xüsusi icra məmurları "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən xüsusi icra məmurunun fəaliyyətinə görə onlara ödənilən standart və əlavə icra haqlarına münasibətdə hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verməlidirlər.";**

**3.8. 151.1-ci maddəyə aşağıdakı məzmunda beşinci cümlə əlavə edilsin:**

**"Xüsusi icra məmurları bu Məcəllənin 101.4-1-ci maddəsi ilə müəyyən edilmiş dərəcə ilə hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.".**

**Maddə 4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində** (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, №6 (I kitab), maddə 631; 2025, №1, maddə 1, №2, maddə 98; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli, 16 may tarixli 199-VIIQD nömrəli, 13 iyun tarixli 211-VIIQD və 212-VIIQD nömrəli qanunları) **aşağıdakı dəyişikliklər edilsin:**

**4.1. 251.1-ci maddəyə, 251.2-ci maddənin birinci cümləsinə, 251.3-cü maddənin ikinci cümləsinə, 251.5-ci maddəyə, 252.1-ci maddənin birinci abzasının birinci cümləsinə və 252.1.2-ci maddəyə ismin müvafiq hallarında "icra məmuru" sözlərindən əvvəl "dövlət" sözü əlavə edilsin;**

**4.2. 310-cu maddə üzrə:**

**4.2.1. 310.1-ci maddənin birinci abzasının birinci cümləsinə və 310.2.1-ci maddəyə "icra" sözündən əvvəl "dövlət" sözü əlavə edilsin;**

**4.2.2. 310.4-cü maddə üzrə:**

**4.2.2.1. birinci cümləyə "edilməsi" sözündən sonra "dövlət" sözü əlavə edilsin;**

**4.2.2.2. ikinci cümlədə "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;**

**4.3. 322.1.3-cü maddəyə "edən" sözündən sonra "dövlət" sözü əlavə edilsin.**

**Maddə 5. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddələr 489, 503, № 8, maddə 934; 2025, № 1, maddə 15; Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:**

**5.1. 15-ci maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:**

**"Qeyd: Bu Məcəllədə "icra məmuru" dedikdə "Dövlət icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq fəaliyyət göstərən dövlət icra məmurları nəzərdə tutulur.";**

**5.2. 15-1.4-cü maddənin birinci abzasında ikinci halda"İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin.**

**Maddə 6. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 1; Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 192-VIIQD nömrəli Qanunu) 73.8-ci maddəsinə"əsasən" sözündən sonra "dövlət" sözü əlavə edilsin.**

**Maddə 7. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348 (Cild I); 2024, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddə 630, № 11, maddə 1182, № 12 (II kitab), maddə 1348; 2025, № 2, maddə 96; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 144-VIIQD nömrəli və 11 aprel tarixli 172-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:**

**7.1. 12-ci maddəyə "üzvləri;" sözündən sonra "xüsusi icra məmurları;" sözləri əlavə edilsin;**

**7.2. aşağıdakı məzmunda 14.5.3-1-ci maddə əlavə edilsin:**

**"14.5.3-1. xüsusi icra məmurları üzrə - minimum aylıq əməkhaqqının beş mislinin 25 faizi miqdarında;".**

**Maddə 8. "Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611 (Cild I); 2024, № 1, maddə 3) 14-cü maddəsinin birinci hissəsinə aşağıdakı məzmunda 3-1-ci bənd əlavə edilsin:**

**"3-1) xüsusi icra məmurlarının müraciəti əsasında icra hərəkətlərinin həyata keçirilməsi ilə əlaqədar onlara yardım göstərmək;".**

**Maddə 9. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4 (Cild I); 2024, № 11, maddə 1182, № 12 (II kitab), maddələr 1332, 1348; 2025, № 1, maddə 16, № 3, maddə 218) 15-2.2.2-ci maddəsinə "notariuslar," sözündən sonra "xüsusi icra məmurları," sözləri əlavə edilsin.**

**Maddə 10. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 10 (Cild I); 2024, № 2, maddə 138; 2025, № 2, maddə 100; Azərbaycan Respublikasının 2025-ci il** 21 iyun tarixli 216-VIIQD nömrəli Qanunu) **aşağıdakı dəyişikliklər edilsin:**

**10.1. 76-cı maddənin altıncı-doqquzuncu hissələri yeddinci-onuncu hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:**

**"Tələbkar icra qeydinin aparılması ilə eyni vaxtda icra qeydinin xüsusi icra məmurunun icraatına yönəldilməsi məqsədilə tələbkara təqdim edilməsi ilə bağlı müraciət edə bilər.";**

**10.2. 79-cu maddəyə "aparır və" sözlərindən sonra "xüsusi icra məmurlarının icraatına yönəldilməsi üçün tələbkara verildiyi hal istisna olmaqla" sözləri əlavə edilsin.**

**Maddə 11. "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 18 (Cild I); 2025, № 1, maddə 1, № 2, maddə 100; Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 189-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:**

**11.1. adında "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;**

**11.2. 1-ci maddə aşağıdakı redaksiyada verilsin:**

**"Maddə 1. Dövlət icra məmurlarının funksiyaları**

**Dövlət icra məmurları (bundan sonra - icra məmurları) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin (bundan sonra - məhkəmələr) müəyyən olunmuş fəaliyyət qaydasını təmin edir, məhkəmələrin mülki işlər, kommersiya və inzibati mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə qərarlarının və qanunla icrası icra məmurlarına həvalə edilmiş digər orqanların aktlarının, həmçinin cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasını, habelə probasiya nəzarətini həyata keçirirlər.".**

**Maddə 12. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114 (Cild I); 2024,№ 4, maddə 365; 2025, № 1, maddə 1, № 2, maddə 100; Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD nömrəli, 11 aprel tarixli1 72-VIIQD nömrəli, 1 may tarixli 189-VIIQD nömrəli, 16 may tarixli 196-VIIQD nömrəli, 3 iyun tarixli 209-VIIQD nömrəli və 21 iyun tarixli 216-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:**

**12.1. 1.1-ci maddədə "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanunundan" sözləri "Dövlət icra məmurları haqqında" və "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarından" sözləri ilə əvəz edilsin;**

**12.2. aşağıdakı məzmunda 2.3-2.5-ci maddələr əlavə edilsin:**

**"2.3. Bu Qanunda icra məmurları dedikdə "Dövlət icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun fəaliyyət göstərən dövlət icra məmurları və "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun fəaliyyət göstərən xüsusi icra məmurları nəzərdə tutulur.**

**2.4. Xüsusi icra məmurları məhkəmə və digər orqanların qərarlarını "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla icra edirlər.**

**2.5. Bu Qanunda icra qurumu və onun rəhbərinin məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar səlahiyyətləri xüsusi icra məmurlarına münasibətdə bilavasitə həmin icra məmurlarının özləri tərəfindən həyata keçirilir.";**

**12.3. aşağıdakı məzmunda 6.1.6-1-ci maddə əlavə edilsin:**

**"6.1.6-1. xüsusi icra məmurunun standart haqqın tutulması barədə qərarı;";**

**12.4. 8.1-ci maddənin birinci abzası üzrə:**

**12.4.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:**

**"İcra sənədi bilavasitə müvafiq qərarı çıxarmış məhkəmə və ya digər orqan, habelə "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tələbkar tərəfindən icraya yönəldilir.";**

**12.4.2. ikinci cümlədə** "İcra sənədi" sözləri **"Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tələbkar tərəfindən icraya yönəldilən icra sənədləri istisna olmaqla, digər icra sənədləri"** sözləri ilə əvəz edilsin;

**12.5. aşağıdakı məzmunda 13.3-cü maddə əlavə edilsin:**

**"13.3. Bu maddə ilə müəyyən edilən müddətlər icra sənədinin tələbkar tərəfindən xüsusi icra məmurunun icraatına yönəldilməsi hallarına şamil edilmir. İcra sənədi tələbkara təqdim olunduğu vaxtdan 3 (üç) il müddətində tələbkar tərəfindən icraya yönəldilə bilər.";**

**12.6. 20.7-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:**

**"Notariusun icra qeydi və xüsusi icra məmurunun icraatında olan icra sənədi tələbkara qaytarılır.";**

**12.7. 23-cü maddə üzrə:**

**12.7.1. 23.1-ci maddənin birinci abzasında"isə" sözü "və xüsusi icra məmurunun icraatında olan icra sənədi" sözləri ilə əvəz edilsin;**

**12.7.2. 23.7-ci maddənin birinci cümləsində birinci halda "isə" sözü "və xüsusi icra məmurunun icraatında olan icra sənədinin" sözləri ilə əvəz edilsin;**

**12.8. aşağıdakı məzmunda 42.7-ci maddə əlavə edilsin:**

**"42.7. Xüsusi icra məmuruna etiraz etmə haqqında məsələ "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həll edilir.";**

**12.9. 53.3-cü maddənin ikinci cümləsində ikinci halda "isə" sözü "və xüsusi icra məmurunun icraatında olan icra sənədi" sözləri ilə əvəz edilsin;**

**12.10. aşağıdakı məzmunda 54.5-ci maddə əlavə edilsin:**

**"54.5. Eyni borclu barəsində dövlət icra məmurunun və xüsusi icra məmurunun icraatlarında olan bir neçə icra sənədi ayrılıqda icra olunur. Bu halda icra sənədlərinin səmərəli icrası üçün icra məmurları arasında məlumat mübadiləsi aparılır.";**

**12.11. 55-ci maddənin ikinci cümləsində ikinci halda "isə" sözü "və xüsusi icra məmurunun icraatında olan icra sənədi" sözləri ilə əvəz edilsin;**

**12.12. 70.4-cü maddənin birinci cümləsində "isə" sözü "və xüsusi icra məmurunun icraatında olan icra sənədinin" sözləri ilə əvəz edilsin;**

**12.13. aşağıdakı məzmunda 81-1.5-ci və 81-2-ci maddələr əlavə edilsin:**

**"81-1.5. "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq** xüsusi icra məmurları tərəfindən icra edilən icra sənədləri üzrə ödənilməli olan pul vəsaitlərinin, xüsusi icra məmurlarının fəaliyyəti üzrə xərclərin və haqların ödənilməsinə bu Qanunun icra xidmətinin depozit hesabları ilə bağlı müddəaları şamil edilmir.";

**"Maddə 81-2. Xüsusi icra məmurlarının fəaliyyəti üzrə xərclər və haqlar**

**81-2.1. Bu Qanunun 79-cu maddəsi istisna olmaqla, bu Qanunun X fəslinin müddəaları xüsusi icra məmurlarının fəaliyyətinə şamil olunmur.**

**81-2.2. Xüsusi icra məmurlarının fəaliyyəti üzrə xərclər və haqlar "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada hesablanır və ödənilir.";**

**12.14. 82.3-cü və 84.4-cü maddələrə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:**

**"Xüsusi icra məmurunun müvafiq təqdimatının icra xidmətinin rəhbəri (baş icra məmuru) tərəfindən təsdiq edilməsi tələb olunmur.";**

**Maddə 13. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695 (Cild I); 2024, № 4, maddə 365, № 8, maddə 935) 26.3-cü maddəsinin üçüncü cümləsinə "yetirilməsinə" sözündən sonra "dövlət" sözü əlavə edilsin.**

**Maddə 14. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084 (Cild I) 82.1-ci maddəsində "icra məmurları" sözləri "dövlət icra məmurları (bələdiyyələr tərəfindən qəbul edilmiş inzibati aktlara münasibətdə həmçinin xüsusi icra məmurları)" sözləri ilə əvəz edilsin.**

**Maddə 15. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586 (Cild I); 2024, № 5 (I kitab), maddə 502, № 12 (II kitab), maddə 1337; Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 204-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:**

**15.1. 2.1-ci maddədə ikinci halda "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;**

**15.2. 23.7-ci maddəyə və 26.1-ci maddənin birinci cümləsinə ismin müvafiq hallarında "icra məmurları" sözlərindən əvvəl "dövlət" sözü əlavə edilsin.**

**Maddə 16. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2053 (Cild I); 2024, № 12 (II kitab), maddə 1347; 2025, № 1, maddə 6; Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 189-VIIQD nömrəli Qanunu) 3.4.2-ci maddəsində"və "İcra haqqında" sözləri ", "İcra haqqında" və "Xüsusi icra məmurları haqqında" sözləri ilə əvəz edilsin.**

**Maddə 17.** "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 25 (Cild I); 2024, № 5 (I kitab), maddə 488) 20.5-ci maddəsinin birinci cümləsinə "notariuslar" sözündən sonra ", xüsusi icra məmurları və xüsusi icra məmurlarının köməkçiləri" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 965 (Cild I) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.2-ci bənddə "3.3.1-ci və 3.3.2-ci yarımbəndləri" sözləri "3.3.2-ci yarımbəndi" sözləri ilə əvəz edilsin.
2. 5.3-cü bənddə "50" rəqəmləri "5" rəqəmi ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 avqust 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" 2013-cü il 5 fevral tarixli 813 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli 1885 nömrəli, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli, "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli fərmanlarında və "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 2014-cü il 13 fevral tarixli 268 nömrəli, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2022-ci il 4 aprel tarixli 3199 nömrəli, "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 107 (Cild I);2024, № 6 (I kitab), maddə 654)1-ci və 4-6-cı hissələri ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287; 2025, № 3, maddələr 224, 227, № 6, maddə 552) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.0-cı bənd üzrə:

2.1.1. aşağıdakı məzmunda 3.0.3-3-cüvə 3.0.72-1-ci yarımbəndlər əlavə edilsin:

"3.0.3-3. rəqəmsal inkişaf, habelə "elektron hökumət" və innovasiyalar üzrə beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə tədbirlər görmək;";

"3.0.72-1. Elektron Hökumət İnformasiya Sisteminin və onun altsistemlərinin ("Vahid Kommunal Xidmətlər" altsistemi istisna olmaqla), habelə həmin Sistemlə əlaqəli olan digər əsas və yardımçı dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılmasını və aparılmasını təmin etmək;";

2.1.2. 3.0.75-ci yarımbənddə "Elektron Hökumət İnformasiya Sistemi, elektron xidmətlərin göstərilməsini isə "elektron hökumət" portalı" sözləri ", habelə elektron xidmətlərin göstərilməsini Elektron Hökumət İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin;

2.1.3. 3.0.80-2-ci yarımbənddə "informasiya sistemləri və ehtiyatları, habelə elektron xidmətlərlə" sözləri "elektron xidmətlərlə, habelə dövlət informasiya ehtiyatları və sistemləri ilə" sözləri ilə əvəz edilsin;

2.1.4. aşağıdakı məzmunda 3.0.80-3-cü yarımbənd əlavə edilsin:

"3.0.80-3. dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair texniki tələbləri müəyyənləşdirmək;";

2.2. 4.0-cı bənd üzrə:

2.2.1. 4.0.17-1-ci yarımbəndə birinci halda "dövlət" sözündən əvvəl "normativ hüquqi aktlarda müəyyən edilmiş hallarda" sözləri əlavə edilsin;

2.2.2. 4.0.17-4-cü yarımbəndə birinci halda "informasiya" sözündən sonra "ehtiyatları və" sözləri əlavə edilsin.

3. "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 mart tarixli 1885 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 435 (Cild I) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.3-cü bənddə "Elektron hökumət" portalının" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin" sözləri ilə əvəz edilsin;

3.2. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.4. dövlət orqanlarının informasiya ehtiyatları və sistemləri arasında informasiya mübadiləsini, habelə elektron xidmətlər göstərilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təşkil etsin;".

4. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1826 (Cild I);2024, № 6 (I kitab), maddə 654, № 9, maddə 1004) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci, 3-cü hissələr və 4-1.2-ci bənd ləğv edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" üzrə:

4.2.1. 1.2.14-1-ci yarımbənddə birinci halda "Vahid Giriş Sistemi" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Giriş" altsistemi" sözləri ilə, ikinci halda "Vahid Giriş Sistemi" sözləri "həmin altsistem" sözləri ilə əvəz edilsin;

4.2.2. 4-cü hissə üzrə:

4.2.2.1. 4.4-cü bəndin ikinci cümləsi çıxarılsın;

4.2.2.2. aşağıdakı məzmunda 4.4-1-4.4-5-ci bəndlər əlavə edilsin:

"4.4-1. Qurumlar elektron xidmətlərinin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası üçün aşağıda qeyd edilən məlumatlarla EHİS-in internet informasiya ehtiyatı vasitəsilə Əlaqələndirici quruma müraciət edirlər:

4.4-1.1. qurumların EHİS-ə inteqrasiya ediləcək elektron xidmətləri, dövlət informasiya ehtiyatları və sistemləri haqqında məlumatlar (adı və texniki-texnoloji infrastrukturu);

4.4-1.2. qurumların EHİS-ə ötürəcəyi və (və ya) EHİS vasitəsilə qurumlara ötürüləcək məlumatların (sənədlərin) siyahısı;

4.4-1.3. qurumların texniki infrastruktura məsul şəxsləri haqqında məlumatlar (soyadı, adı, atasının adı, işlədiyi struktur vahidi, vəzifəsi, telefon nömrələri (mobil və stasionar), elektron poçt ünvanı).

4.4-2. Müraciətlərin, rəylərin, bildirişlərin və məlumatların (sənədlərin) göndərilməsi, eləcə də müraciətlərin icra vəziyyətinin izlənilməsi EHİS-də formalaşdırılan elektron kabinet vasitəsilə həyata keçirilir. Qurumların əməkdaşları elektron kabinetlərdən EHİS-in "Vahid Giriş"altsistemi vasitəsilə identikləşdirildikdən sonra istifadə edirlər. Göndərilən müraciətlər, rəylər, bildirişlər və məlumatlar (sənədlər) təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilir.

4.4-3. Əlaqələndirici qurum daxil olan müraciətlər əsasında ən geci 20 (iyirmi) iş günü müddətində inteqrasiya ilə bağlı texniki tələblərə cavab verən elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyasını təmin edir və bu barədə aidiyyəti qurumlara bildirişlər göndərir.

4.4-4. Elektron xidmətlər, dövlət informasiya ehtiyatları və sistemləri inteqrasiya ilə bağlı texniki tələblərə cavab vermədiyi halda Əlaqələndirici qurum aidiyyəti qurumlarla birgə həmin texniki tələblərə uyğunluğun təmin edilməsi üçün zəruri tədbirlər görür. Həmin tədbirlərin görülməsi müddəti bu Qaydaların 4.4-3-cü bəndində nəzərdə tutulan müddətə daxil deyildir.

4.4-5. İnteqrasiya ilə bağlı texniki tələblərə uyğunluq təmin edildikdən sonra Əlaqələndirici qurum elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyasını təmin edir və bu barədə aidiyyəti qurumlara bildirişlər göndərir.";

4.2.2.3. 4.5-ci bənd üzrə:

4.2.2.3.1. 4.5-ci bəndin birinci abzasında "ehtiyatlarının və sistemlərinin inteqrasiyası" sözləri "ehtiyatlarından və sistemlərindən informasiyanın əldə olunması" sözləri ilə əvəz edilsin;

4.2.2.3.2. 4.5.2-ci yarımbənddə "qoşulan" sözü "inteqrasiya edilən" sözləri ilə əvəz edilsin;

4.2.2.3.3. 4.5.3-cü yarımbəndin 5-ci abzasında "qoşulmadığı" sözü "inteqrasiya olunmadığı" sözləri ilə, "qoşulması" sözü "inteqrasiyası" sözü ilə əvəz edilsin;

4.2.2.3.4. 4.5.4-cü yarımbənd üzrə:

4.2.2.3.4.1. 1-ci abzasda "qoşulan" sözü "inteqrasiya edilən" sözləri ilə əvəz edilsin;

4.2.2.3.4.2. 2-ci abzasda "qoşulan" sözü "inteqrasiya edilən" sözləri ilə, "qoşulduqdan" sözü "inteqrasiya edildikdən" sözləri ilə əvəz edilsin;

4.2.2.3.5. 4.5.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.5.5. dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası bu Qaydalara və Əlaqələndirici qurumun müəyyən etdiyi texniki tələblərə uyğun olaraq həyata keçirilir.";

4.2.3. aşağıdakı məzmunda 5.1-1-5.1-6-cı bəndlər əlavə edilsin:

"5.1-1. Elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsi və ya onlarda dəyişiklik edilməsi qurumların EHİS vasitəsilə sahibə ünvanladığı müraciət əsasında həyata keçirilir. Qurumlardan daxil olmuş müraciətlərə ən geci 20 (iyirmi) iş günü müddətində baxılır.

5.1-2. Elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsindən və ya onlarda dəyişiklik (məlumat mübadiləsinə və inteqrasiyaya təsir edən) edilməsindən imtina üçün əsas olmadıqda, Əlaqələndirici qurum tərəfindən aşağıdakı tədbirlərdən biri görülür:

5.1-2.1. elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsi məqsədəuyğun hesab edilir və bu barədə "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə müvafiq məlumatlar daxil edilir, EHİS vasitəsilə elektron xidmətlər göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası dayandırılır;

5.1-2.2. elektron xidmətlərdə, dövlət informasiya ehtiyatlarında və sistemlərində dəyişikliklər olunması məqsədəuyğun hesab edilir, elektron xidmətlərin, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin yenilənməsi (dəyişdirilməsi, təkmilləşdirilməsi) həyata keçirilir.

5.1-3. Elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsindən və ya onlarda dəyişiklik (məlumat mübadiləsinə və inteqrasiyaya təsir edən) edilməsindən imtina üçün əsas olduqda, onların arxivləşdirilməsinin və ya onlarda dəyişiklik edilməsinin məqsədəuyğun hesab olunmaması barədə rəylər 30 (otuz) iş günü müddətində Əlaqələndirici qurum tərəfindən hazırlanaraq elektron qaydada aidiyyəti qurumlara təqdim edilir.

5.1-4. Elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsindən və ya onlarda dəyişiklik (məlumat mübadiləsinə və inteqrasiyaya təsir edən) edilməsindən aşağıdakı hallarda imtina olunur:

5.1-4.1. elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsinin və ya onlarda dəyişiklik edilməsinin hüquqi əsasları və səbəbləri təqdim olunmadıqda;

5.1-4.2. elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsi və ya onlarda dəyişiklik edilməsi beynəlxalq standartlara, Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş texniki tələblərə və digər tələblərə uyğun olmadıqda;

5.1-4.3. elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi mümkün olduqda (elektron xidmət göstərilməsinin, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin aparılmasının texniki və maliyyə çətinlikləri, eləcə də istifadəçi sayının az olması səbəbindən arxivləşdirilməsi üçün müraciət edildiyi hallarda).

5.1-5. Arxivləşdirilməsi və ya dəyişiklik (məlumat mübadiləsinə və inteqrasiyaya təsir edən) edilməsi üçün müraciət olunan elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi ilə bağlı Əlaqələndirici qurum aidiyyəti qurumlara təkliflər verə bilər. Aidiyyəti qurumlar həmin təkliflər əsasında və Əlaqələndirici qurum tərəfindən müəyyən olunan müddətlər ərzində elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görür.

5.1-6. Bu Qaydaların 5.1-1-5.1-3-cü və 5.1-5-ci bəndləri ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi üçün qurumlardan dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyəti ilə bağlı əlavə texniki məlumatlar (sənədlər) alına bilər. Aidiyyəti qurumlar həmin məlumatları (sənədləri) Əlaqələndirici qurumun müraciəti daxil olduğu tarixdən 10 (on) iş günü müddətində Əlaqələndirici quruma təqdim edirlər.";

4.2.4. 7.1-ci bənd üzrə:

4.2.4.1. 7.1.5-ci yarımbəndə "dövlət" sözündən əvvəl "elektron xidmətlər, habelə" sözləri əlavə edilsin;

4.2.4.2. 7.1.6-cı yarımbəndə "dövlət" sözündən əvvəl "elektron xidmət təminatçısı," sözləri əlavə edilsin;

4.2.4.3. 7.1.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"7.1.8. elektron xidmətlərin, eləcə də inteqrasiya olunan dövlət informasiya ehtiyatının və sisteminin təhlükəsiz, dayanıqlı və fasiləsiz fəaliyyətini elektron xidmət təminatçısından, dövlət informasiya ehtiyatının və sisteminin sahibindən, operatorundan və iştirakçısından tələb etmək;".

5. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1004) ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin 5.2-ci bəndinin ikinci cümləsində və 5.3-cü bəndində "Vahid Giriş Sistemi" sözləri "EHİS-in "Vahid Giriş" altsistemi" sözləri ilə əvəz edilsin.

6. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli 268 nömrəli Sərəncamının(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 156 (Cild I); 2025, № 4 (I kitab), maddə 341) 2.10-cu bəndində "Elektron hökumət" portalı" sözləri "Elektron Hökumət İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654) ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı" hissəsinin 2.6-cı bəndinin "Tədbirin adı" sütununda "Portalına" sözü "İnformasiya Sisteminə" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 114 (Cild I); 2024, № 4, maddə 393) ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın 6.1.6-cı yarımbəndinin 2.2-ci, 2.3-cü və 4.1-ci abzaslarında, "8. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsinin 8.6.2-ci yarımbəndinin "Tədbirin adı" və "aralıq nəticələr" sütunlarında, 8.6.3-cü yarımbəndinin "Tədbirin adı", "ilkin nəticələr" və "aralıq nəticələr" sütunlarında ismin müvafiq hallarında "Elektron hökumət" portalı" sözləri ismin müvafiq hallarında "Elektron Hökumət İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2025-ci il*

# Elektron Hökumət İnformasiya Sisteminin fəaliyyətinin təmin edilməsi və mərkəzi, yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər büdcə təşkilatlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana və "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli Fərmanına uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Elektron Hökumət İnformasiya Sisteminin (bundan sonra - EHİS) və onun altsistemlərinin aparılması, saxlanılması və təkmilləşdirilməsi, habelə bu Fərmanın 3.2-ci və 5.2-ci bəndlərində nəzərdə tutulmuş işlərin həyata keçirilməsi ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulması üçün tədbirlər görsün;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra - Nazirlik):

3.1. EHİS-in fəaliyyətinin təmin edilməsi ilə bağlı:

3.1.1. EHİS-in aparılması, fəaliyyətinin təşkili və inkişafı üçün zəruri tədbirlər görsün;

3.1.2. EHİS-in Azərbaycan Respublikası Prezidentinin2019-cu il 3 iyun tarixli 718 nömrəliFərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

3.1.3. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə, bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" 2021-ci il 17 aprel tarixli 1315 nömrəli və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin;

3.2. elektron xidmətlər göstərilməsinin təşkili və göstərilməsi ilə bağlı:

3.2.1. elektron xidmətlərin təşkili, göstərilməsi və təkmilləşdirilməsi məqsədilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin (o cümlədən Azərbaycan Respublikası Mərkəzi Bankının) və digər büdcə təşkilatlarının (bundan sonra - qurumlar), eləcə də elektron imza xidmətindən istifadə üçün müraciət edən digər hüquqi və fiziki şəxslərin elektron imza vasitələri ilə təmin olunması işini təşkil etsin;

3.2.2. qurumların elektron xidmətlər göstərməsində istifadə edilən dövlət informasiya ehtiyatları və sistemləri arasında informasiya mübadiləsinin EHİS vasitəsilə aparılmasının təmin edilməsi məqsədilə zəruri tədbirləri həyata keçirsin;

3.2.3. qurumların elektron xidmətlərindən EHİS vasitəsilə "bir pəncərə" prinsipi əsasında istifadəni təmin etsin;

3.2.4. qurumlar tərəfindən elektron xidmətlər göstərilməsinin nəticəsi olaraq verilən sənədlərin EHİS vasitəsilə identikləşdirilməsi mexanizmini, eləcə də həmin mexanizmin təhlükəsizliyini təmin etsin;

3.2.5. elektron xidmətlərin təşkili, göstərilməsi və təkmilləşdirilməsi üçün qurumlara metodiki dəstəyi təmin etsin;

3.2.6. dövlət qulluqçularının və hərbi qulluqçuların informasiya texnologiyalarından istifadə və kibertəhlükəsizlik sahəsində hazırlıq səviyyələrinin artırılması məqsədilə tədris kurslarının təşkili istiqamətində zəruri tədbirləri həyata keçirsin;

3.2.7. bu Fərmanın 3.2.1-3.2.6-cı yarımbəndlərində və 5.2-ci bəndində nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Dövlət Xidmətlərinin Elektron Reyestrindən aşağıdakı məlumatların EHİS vasitəsilə "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə ötürülməsini və həmin məlumatların aktuallığını təmin etsin:

4.1. elektron xidmətin adı, həmin xidmətin göstərilməsi üçün tələb olunan sənədlərin dəqiq siyahısı, habelə elektron xidmətin göstərilməsindən imtina halları, ödənişli və ya ödənişsiz əsaslarla həyata keçirilməsi, ödənişin məbləği, hüquqi əsası və ödənilmə üsulları barədə məlumatların;

4.2. dövlət xidmətinin inzibati reqlamentində müəyyən edilən və xidmətin elektron formada göstərilməsi ilə bağlı olan digər məlumatların.

5. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və digər büdcə təşkilatlarına tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

5.1. EHİS-in fəaliyyətinin təmin edilməsi ilə bağlı:

5.1.1. sahibi və (və ya) operatoru olduqları dövlət informasiya ehtiyatlarının və sistemlərinin istifadəçilərinin identikləşdirilməsi prosesinin sadələşdirilməsi (asanlaşdırılması) məqsədilə həmin informasiya ehtiyatlarında və sistemlərində "Vahid Giriş" altsistemini tətbiq etsinlər;

5.1.2. "Açıq məlumatlar" portalının fəaliyyətinin təmin edilməsi məqsədilə Nazirliklə birlikdə sahibi olduqları (formalaşdırdıqları) açıq məlumatların EHİS vasitəsilə"Açıq məlumatlar" portalına ötürülməsini, bu mümkün olmadığı halda daxil edilməsini və həmin məlumatların mütəmadi olaraq yenilənməsini təmin etsinlər.

5.2. elektron xidmətlər göstərilməsinin təşkili ilə bağlı aşağıdakı tədbirləri həyata keçirsinlər:

5.2.1. fəaliyyət istiqamətlərinə uyğun olaraq elektron xidmətlər göstərilməsi üçün rəsmi internet informasiya ehtiyatlarında xüsusi elektron xidmət bölməsinin yaradılmasını və həmin bölmədə EHİS-ə keçidin verilməsini;

5.2.2. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini;

5.2.3. elektron xidmət bölməsində **"Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"**nə keçid verilməsini, eləcə də bu bölmədən maneəsiz və sərbəst istifadənin təmin edilməsini;

5.2.4. elektron xidmət bölməsinə müraciət edən şəxslər tərəfindən müvafiq sənədlərin (ərizə, blank və sair) elektron formasının interaktiv qaydada doldurulmasını, elektron informasiya ehtiyatlarına (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) daxil edilməyən sənədlərin skan edilmiş surətlərinin, elektron sənədlərin və məlumatların elektron formada qəbul edilməsini (bu Fərmanın 5.2.5-ci yarımbəndi nəzərə alınmaqla), bu barədə şəxsə təsdiq bildirişinin göndərilməsini və həmin sənədlərə normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada və müddətdə baxılmanın, eləcə də elektron xidmətlərin fasiləsiz göstərilməsinin təmin olunmasını;

5.2.5. dövlət xidmətləri, o cümlədən elektron xidmətlər göstərilməsini tənzimləyən normativ hüquqi aktlarla ərizəyə əlavə edilməli olan sənədlərin və məlumatların EHİS vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsini, yalnız bu mümkün olmadığı hallarda onların təqdim edilməsinin müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunmasını və ya müraciət edən tərəfindən təmin olunmasını;

5.2.6. göstərilən elektron xidmətlərə görə normativ hüquqi aktlarda nəzərdə tutulmuş rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin (ödəniş xidməti təchizatçıları vasitəsilə) təmin edilməsini, eləcə də elektron xidmət bölməsi vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyini təmin etmək məqsədilə zəruri texniki təhlükəsizlik tədbirlərinin görülməsini;

5.2.7. elektron xidmətlər göstərilməsində istifadə olunan dövlət informasiya ehtiyatlarında və sistemlərində saxlanılan məlumatların tamlığının, aktuallığının, mötəbərliyinin və təhlükəsizliyinin təmin edilməsini;

5.2.8. elektron xidmətlər göstərilməsinin gedişatı barədə şəxsə EHİS-də yaradılan şəxsi kabinet, elektron poçt və ya telefon (mobil və stasionar) vasitəsilə məlumat almaq imkanının yaradılması üçün tədbirlər görülməsini və nəticənin ona təqdim olunmasını;

5.2.9. elektron xidmətlər göstərilməsinin nəticəsi olaraq elektron sənədin və ya identikləşdirməyə imkan verən rekvizitlərə malik digər sənədin verilməsini (elektron xidmət göstərilməsinin nəticəsi olaraq sənədlərin və məlumatların verildiyi hallarda);

5.2.10. bu Fərmanın 5.2.1-5.2.9-cu yarımbəndlərində nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məlumat verilməsini.

6. Bələdiyyələrə tövsiyə edilsin ki, bu Fərmanın 5.1.1-ci və 5.1.2-ci yarımbəndlərində nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsini təmin etsinlər.

7. "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 380 (Cild I) 2-5-ci hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2025-ci il*

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Elektron Hökumət İnformasiya Sistemi haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Elektron Hökumət İnformasiya Sisteminin (bundan sonra - EHİS) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. EHİS bu Əsasnamənin 3.1-ci bəndində qeyd edilən altsistemləri vasitəsilə rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər büdcə təşkilatlarının, həmçinin bələdiyyələrin (bundan sonra - qurumlar) fəaliyyətinin, onların bir-biri ilə və digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini və şəffaflığını, habelə elektron xidmətlərin "bir pəncərə prinsipi" əsasında göstərilməsini, səmərəli və operativ sənəd (məlumat) mübadiləsini və açıq informasiyaya çıxış imkanını, eləcə də elektron xidmətlərin, EHİS-də saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. EHİS-in formalaşdırılmasının məqsədi rəqəmsal inkişaf və "elektron hökumət" sahələrində fəaliyyətin təşkilindən, dövlət idarəetməsinin optimallaşdırılmasından, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən, eləcə də müvafiq sahələr üzrə təhlil aparılmasından, proqnoz və hesabatlar hazırlanmasından və onlar əsasında müvafiq sahələr üzrə dövlət tənzimləməsinin, nəzarət və əlaqələndirmənin təmin edilməsindən ibarətdir.

1.4. EHİS-in və bu Əsasnamənin 3.1-ci bəndində qeyd edilən altsistemlərin sahibi funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra - Nazirlik), operatoru funksiyalarını "Vahid Kommunal Xidmətlər" altsisteminə münasibətdə Azərbaycan Respublikasının Energetika Nazirliyi, EHİS və bu Əsasnamənin 3.1.2-3.1.8-ci yarımbəndlərində qeyd edilən digər altsistemlərə münasibətdə isə Nazirliyin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (bundan sonra birlikdə - operator) həyata keçirirlər.

1.5. EHİS-də yaradılan, qurumlardan əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.6. Fərdi məlumatların EHİS-də toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların EHİS-də toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.7. EHİS-in fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. EHİS Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra - Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.9. Bu Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.10. Bu Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

### 2. EHİS-in texniki-texnoloji infrastrukturu

2.1. EHİS-in texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında "Mobil Prioritetli Tərtibat" prinsipi ilə qurularaq, EHİS-in funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə EHİS-dən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. EHİS fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq EHİS-in telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. EHİS-in fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları - Nazirliyin struktur bölmələri tərəfindən;

2.4.2. EHİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları -Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra - XRİTDX) tərəfindən.

2.5. EHİS-də formalaşdırılan, EHİS-ə daxil edilən və ötürülən məlumatlar EHİS-in informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli EHİS-in informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə EHİS, o cümlədən EHİS-də toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. EHİS-də aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

### 3. EHİS-in altsistemləri

3.1. EHİS aşağıdakı altsistemlərdən ibarətdir:

3.1.1. "Vahid Kommunal Xidmətlər" altsistemi;

3.1.2. "Rəqəmsal Razılıq" altsistemi;

3.1.3. "Rəqəmsal İcra Hakimiyyəti" altsistemi;

3.1.4. "Yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestri" altsistemi;

3.1.5. "Rəqəmsal Sənəd Dövriyyəsi" altsistemi;

3.1.6. "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri" altsistemi;

3.1.7. "Rəqəmsal Məlumat Mübadiləsi" altsistemi;

3.1.8. "Vahid Giriş" altsistemi.

3.2. "Vahid Kommunal Xidmətlər" altsistemi kommunal sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanılmasını və emalını, monitorinq və analitik təhlillər aparılmasını, proqnozların hazırlanmasını və qeyd edilən sahədə mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsini təmin edir.

3.3. İstifadəçilər kommunal xidmətlərə dair hesablanmış borclardan "Vahid Kommunal Xidmətlər" altsistemində yaradılan elektron kabinetləri vasitəsilə müvafiq olaraq şikayət verə bilərlər. Şikayətlər aidiyyəti iştirakçıların informasiya sistemlərinə göndərilir və onlara qanunlamüəyyən edilmiş qaydada baxılır. Şikayətlərə baxılmanın nəticəsi barədə qərarlar iştirakçıların rəhbərləri və ya onların həvalə etdiyi vəzifəli şəxslərin təkmil sertifikatlı gücləndirilmiş elektron imzaları ilə təsdiq edilərək elektron qaydada EHİS vasitəsilə "Vahid Kommunal Xidmətlər" altsisteminə göndərilir və altsistem tərəfindən istifadəçilərin elektron kabinetlərində yerləşdirilir (yerləşdirilmə vaxtı göstərilməklə).

3.4. "Rəqəmsal Razılıq" altsistemi aşağıdakıları təmin edir:

3.4.1. rəqəmsal texnologiyalardan istifadə etməklə xidmətlər göstərən sahibkarlıq subyektləri tərəfindən göstərdikləri xidmətlər çərçivəsində fərdi məlumatların sorğulanması zamanı şəxslərin onlara məxsus olan fərdi məlumatların toplanılmasına və işlənilməsinə razılıqlarının idarə edilməsini;

3.4.2. bu Əsasnamənin 4.3-cü bəndində nəzərdə tutulan məlumatların mərkəzləşdirilmiş qaydada və elektron formada bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektlərinə ötürülməsini.

3.5. Bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektləri bu Əsasnamənin 4.3-cü bəndində nəzərdə tutulan fərdi məlumatları, həmin məlumatların məxsus olduğu şəxslərin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada razılığını aldıqdan sonra EHİS vasitəsilə "Rəqəmsal Razılıq" altsisteminə göndərdikləri sorğu əsasında, eləcə də razılıqda qeyd olunmuş müddət ərzində əldə edirlər. Həmin məlumatlar onları əldə edən sahibkarlıq subyektləri tərəfindən, normativ hüquqi aktlarla müəyyən edilən hallar istisna olmaqla, üçüncü tərəfə (tərəflərə) ötürülə bilməz.

3.6. Sorğuların göndərilməsi və cavablandırılması bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektlərinin informasiya sistemlərinin EHİS-ə inteqrasiyası vasitəsilə həyata keçirilir.

3.7. Bu Əsasnamənin 3.5-ci bəndində qeyd edilən razılıq alınmadıqda "Rəqəmsal Razılıq" altsisteminin sahibi tərəfindən sorğunun icrasından imtina edilir.

3.8. Bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektləri tərəfindən bu Əsasnamənin 4.3-cü bəndində nəzərdə tutulan məlumatların əldə edilməsi ilə bağlı ödənişlərin məbləği "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 26.3-cü və 26.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, onlarla "Rəqəmsal Razılıq" altsisteminin sahibinin və informasiyanın ilkin mənbəyini formalaşdıran müvafiq iştirakçının qarşılıqlı razılığı əsasında müəyyən edilir.

3.9. "Rəqəmsal İcra Hakimiyyəti" altsistemi yerli icra hakimiyyəti orqanları tərəfindən elektron xidmətlər göstərilməsini, həmçinin qəyyumluq və himayəçilik orqanlarının (himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə istisna olmaqla) razılığı (icazəsi) ilə əlaqədar həmin orqanların qərarlarının toplanılmasını, emal edilməsini və ötürülməsini təmin edir.

3.10. "Yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestri" altsistemi yerli icra hakimiyyəti orqanları başçılarının qəbul etdikləri qeyri-normativ hüquqi aktlara dair məlumatların toplanılmasını, emal edilməsini və ötürülməsini təmin edir.

3.11. "Rəqəmsal Sənəd Dövriyyəsi" altsistemi dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemləri arasında real vaxt rejimində və təhlükəsiz qaydada sənəd mübadiləsinin aparılması ilə bağlı inteqrasiyanın və sənədlərin hərəkəti üzrə uçotun həyata keçirilməsini təmin edir.

3.12. "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri" altsistemi dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinin aparılmasını təmin edir.

3.13. "Rəqəmsal Məlumat Mübadiləsi" altsistemi dövlət informasiya ehtiyatlarının və sistemlərinin əlaqələndirilməsini, o cümlədən onlar arasında təhlükəsiz məlumat mübadiləsinin aparılmasını təmin edir.

3.14. "Vahid Giriş" altsistemi dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə zamanı istifadəçilərin təkmil sertifikatlı gücləndirilmiş elektron imza və digər elektron eyniləşdirmə vasitələri ilə vahid formada identikləşdirilməsini, habelə qeyd olunan informasiya ehtiyatlarına və sistemlərinə birdəfəlik girişi təmin edir.

3.15. EHİS-in və altsistemlərinin fəaliyyətinin təmin edilməsi məqsədilə informasiyanın ilkin mənbəyini formalaşdıran aidiyyəti iştirakçılar bu Əsasnamənin 4.1-4.4-cü bəndlərində nəzərdə tutulan məlumatları, habelə bu Əsasnamənin 3.1-ci bəndində qeyd edilən altsistemlərin funksionallığının təmin olunması məqsədilə sahib tərəfindən normativ hüquqi aktlara uyğun olaraq tələb edilən məlumatları (sənədləri), habelə həmin məlumatlarda (sənədlərdə) dəyişiklik olduqda yenilənmiş məlumatları (sənədləri) real vaxt rejimində EHİS-ə ötürürlər, bu mümkün olmadığı halda, müvafiq altsistemlərə elektron kabinetləri vasitəsilə daxil edirlər.

3.16. İstifadəçilərin elektron kabinetlərində özləri barədə olan məlumatlarda etdikləri dəyişikliklər EHİS tərəfindən real vaxt rejimində informasiyanın ilkin mənbəyini formalaşdıran müvafiq iştirakçılara göndərilir.

### 4. EHİS-ə daxil edilən və ötürülən məlumatlar

4.1. Kommunal sahədə xidmətlər göstərən qurumlar fəaliyyətlərinin təmin edilməsi məqsədilə aşağıdakı məlumatları (sənədləri) real vaxt rejimində EHİS vasitəsilə "Vahid Kommunal Xidmətlər" altsistemindən əldə edirlər:

4.1.1. fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər üzrə məlumatları;

4.1.2. fiziki şəxslərin məcburi köçkün statusuna malik olması barədə məlumatları;

4.1.3. hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatları (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla);

4.1.4. hüquqi və fiziki şəxslərin daşınmaz əmlakı (torpaq sahələri, tikili və qurğular) barədə məlumatları;

4.1.5. kommunal xidmətlərə dair hesablanmış borclardan verilmiş şikayətlər barədə məlumatları (şikayətlər üzrə iş materiallarını (ərizələri).

4.2. "Vahid Kommunal Xidmətlər" altsisteminin fəaliyyətinin təmin edilməsi məqsədilə kommunal sahədə xidmətlər göstərən qurumlar EHİS vasitəsilə aşağıdakı məlumatları (sənədləri) real vaxt rejimində altsistemə göndərirlər:

4.2.1. kommunal xidmətlərin abunəçiləri barədə məlumatları;

4.2.2. quraşdırılmış sayğaclar barədə məlumatları;

4.2.3. quraşdırılmış sayğaclar üzrə göstəricilər və bu göstəricilərə uyğun olaraq yaranmış borclar, sayğac olmadığı halda isə kommunal sahələrdə xidmətlər göstərən qurumlar tərəfindən hesablanmış borclar barədə məlumatları;

4.2.4. kommunal xidmətlərə dair hesablanmış borclardan sistemdənkənar verilmiş şikayətlər barədə məlumatları (şikayətlər üzrə iş materiallarını (ərizələri), şikayətlərə baxılmanın nəticəsi barədə qərarları (o cümlədən məhkəmə qərarlarını);

4.2.5. iştirakçıların və "Vahid Kommunal Xidmətlər" altsisteminin operatorunun həmin altsistemin fəaliyyəti ilə bağlı zəruri hesab etdiyi digər məlumatları.

4.3. Bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektləri fəaliyyətlərinin təmin olunması üçün "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl etməklə aşağıdakı məlumatları real vaxt rejimində "Rəqəmsal Razılıq" altsistemi vasitəsilə EHİS üzərindən ilkin mənbədən əldə edirlər:

4.3.1. fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər üzrə məlumatları;

4.3.2. fiziki şəxslərin məhkumluğu barədə məlumatları;

4.3.3. fərdi sahibkarların vergi orqanları tərəfindən qəbul olunmuş sonuncu gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannamələri, eləcə də fərdi sahibkar olmayan digər fiziki şəxslərin iş yerləri və aylıq gəlirləri (vergiyə və digər icbari ödənişlərə cəlb olunmamış) barədə məlumatları;

4.3.4. fiziki şəxslərin ailə üzvləri barədə məlumatları;

4.3.5. fiziki şəxslərin hərbi bileti üzrə məlumatları;

4.3.6. vətəndaşlıq vəziyyəti aktları barədə məlumatları;

4.3.7. bələdiyyələrin son bir il üzrə gəlirləri (yerli büdcə üzrə), hüquqi şəxslərin vergi orqanları tərəfindən qəbul olunmuş sonuncu mənfəət vergisi və ya sadələşdirilmiş vergi bəyannamələri barədə məlumatları;

4.3.8. bələdiyyələrin, hüquqi və fiziki şəxslərin daşınmaz əmlakları, habelə rəsmi reyestrlərdə qeydiyyata alınmış daşınar əmlakları barədə məlumatları;

4.3.9. qurumların ünvanları barədə məlumatları;

4.3.10. hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatları (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla);

4.3.11. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin VÖEN-ini;

4.3.12. hüquqi və fiziki şəxslər tərəfindən alınmış lisenziyalar və icazələr barədə məlumatları;

4.3.13. qurumların və fiziki şəxslərin notariuslar vasitəsilə verdikləri etibarnamələr üzrə məlumatları;

4.3.14. maliyyə sanksiyasının tətbiqi haqqında qərarlar, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlar (o cümlədən elektron qərarlar), habelə məhkəmə qərarları, həmin qərarların icra müddəti və müddətin bitməsi barədə məlumatları;

4.3.15. hüquqi və fiziki şəxslərin bələdiyyələrə yaranmış yerli vergi və ödəniş öhdəlikləri barədə məlumatları;

4.3.16. sahibin bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektlərinin fəaliyyətlərinin təmin olunması üçün zəruri hesab etdiyi digər məlumatları.

4.4. "Rəqəmsal Razılıq" altsisteminin fəaliyyətinin təmin edilməsi məqsədilə informasiyanın ilkin mənbəyini formalaşdıran iştirakçılar aşağıdakı məlumatları real vaxt rejimində altsistemə göndərirlər:

4.4.1. xeyrinə ödəniş aparılacaq fiziki şəxslərin və qurumların bank və xəzinədarlıq hesabları;

4.4.2. maliyyə sanksiyasının və inzibati cərimənin ödənilmədiyi təqdirdə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada görülmüş tədbirlər barədə məlumatları.

4.5. "Yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestri" və "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri" altsistemlərinə daxil edilən, eləcə də "Geoportal"a ötürülən məlumatların dairəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

4.6. "Açıq məlumatlar" portalına "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya əldə etmək haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarına əsasən əldə olunması, işlənilməsi, verilməsi və ya istifadəsi məhdudlaşdırılmayan məlumatlar ötürülür, bu mümkün olmadığı halda daxil edilir.

4.7. "Rəqəmsal İcra Hakimiyyəti" altsisteminə qəyyumluq və himayəçilik orqanlarının (himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə istisna olmaqla) razılığı (icazəsi) ilə əlaqədar həmin orqanların qərarları ötürülür, bu mümkün olmadığı halda daxil edilir.

4.8. EHİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.9. EHİS ilə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) EHİS-ə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.10. EHİS-də formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

### 5. EHİS-dən istifadə qaydası

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların EHİS-dən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq EHİS-ə inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin EHİS-dən ("Açıq məlumatlar" portalı, həmçinin "Rəqəmsal Məlumat Mübadiləsi", "Vahid Giriş" və "Rəqəmsal Sənəd Dövriyyəsi" altsistemləri istisna olmaqla) istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda qurumların və digər hüquqi şəxslərin rəhbər şəxsləri tərəfindən EHİS-də qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq EHİS-dən istifadə edirlər.

5.3. Fiziki şəxslər "Vahid Giriş" altsistemi vasitəsilə EHİS-də ("Açıq məlumatlar" portalı, həmçinin "Rəqəmsal Məlumat Mübadiləsi", "Vahid Giriş" və "Rəqəmsal Sənəd Dövriyyəsi" altsistemləri istisna olmaqla) identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq EHİS-dən istifadə edirlər.

5.4. EHİS vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə "bir pəncərə prinsipi" əsasında rəsmi internet informasiya ehtiyatı vasitəsilə aşağıda qeyd edilən xidmət kanalları üzərindən, ödəniş edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir:

5.4.1. "Mygov" portalı qurumların elektron xidmətlərinin göstərilməsini, habelə bütün növ dövlət xidmətləri və vətəndaş müraciətləri nəticəsində təqdim edilən sənədlərin (məlumatların) mərkəzləşdirilmiş qaydada təqdim olunmasını və onlardan istifadəni, vətəndaş müraciətlərinin və informasiya sorğularının mərkəzləşdirilmiş qaydada təqdim edilməsini və cavablandırılmasını, müraciətlərin icra statusunun izlənilməsini, eləcə də şəxslərin icraatla bağlı, o cümlədən onlara göstərilən xidmətlərdə, onlara dair məlumatlarda (sənədlərdə) baş verən dəyişikliklər (yeniliklər) barədə məlumatlandırılmasını, habelə fərdi məlumatlarının sorğulanmasına dair razılığın verilməsini və idarə olunmasını təmin edir;

5.4.2. "Mygov Biznes" portalı sahibkarlıq subyektlərinin dövlət qurumlarına (orqanlarına) müraciətinin elektron təşkilini, sahibkarlıq fəaliyyəti üçün zəruri olan bütün məlumatların mərkəzləşdirilmiş qaydada əldə edilməsini, eləcə də sahibkarlıq subyekti barəsində məlumatın işlənilməsinə razılığın idarə olunmasını, sahibkarlıq subyektlərinə elektron xidmətlər göstərilməsini, habelə dövlət xidmətləri göstərilməsində istifadə edilən müvafiq dövlət informasiya ehtiyatlarının və sistemlərinin (satınalma, lisenziya və icazələr, vergi, logistika, poçt sahələri prioritet olmaqla) təkmilləşdirilməsini, o cümlədən sahibkarı təmsilçilik səlahiyyətinin idarə edilməsinin təşkilini təmin edir;

5.4.3. "Açıq məlumatlar" portalı əldə olunması, işlənilməsi, verilməsi və ya istifadəsi qanunla məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş məlumatların (açıq məlumatların) toplanılmasını, saxlanılmasını, emalını və istifadəsini təmin edir;

5.4.4. "Geoportal" milli məkan məlumatlarının axtarılması, əldə edilməsi və milli məkan məlumatları üzrə xidmətlərin göstərilməsini təmin edir.

5.5. Kommersiya və qeyri-kommersiya hüquqi şəxslərinin, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin xidmətləri "Mygov" və "Mygov Biznes" portalları vasitəsilə təqdim oluna bilər.

5.6. EHİS vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) bu Əsasnamənin 5.4-cü bəndində qeyd edilənlərlə yanaşı, istifadəçilərin EHİS-in fəaliyyətində iştirakını və ondan istifadəsini təmin edirlər. Elektron xidmətlər istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

### 6. Sahibin vəzifələri və hüquqları

6.1. EHİS-in fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. EHİS-in idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. EHİS-in "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə, o cümlədən "Fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestri"nə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. EHİS-in, həmçinin fərdi məlumatların EHİS-də toplanılmasının, işlənilməsinin və mühafizəsinin fərdi məlumatlar sahəsində Azərbaycan Respublikasının normativ hüquqi aktların tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. EHİS-in informasiya təhlükəsizliyini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra - DTX), XRİTDX ilə və operatorla birlikdə təmin etmək;

6.1.5. EHİS-in informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə və XRİTDX-yə təqdim etmək, habelə həmin dövlət orqanları tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.6. EHİS-ə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.7. EHİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.8. EHİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün operatorla birlikdə tədbirlər görmək;

6.1.9. ölkə üzrə bütün elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.10. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.11. EHİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.12. aidiyyəti qurumların EHİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.13. ölkə üzrə dövlət xidmətlərinin göstərilməsi üçün tələb edilən məlumatlar (sənədlər) digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin məlumatların (sənədlərin) ilkin mənbədən əldə edilməsi üçün operatorla birlikdə tədbirlər görmək;

6.1.14. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) EHİS-ə daxil etmək;

6.1.15. EHİS-dən sərbəst və maneəsiz istifadənin, habelə onun dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.16. EHİS-də dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.17. EHİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. EHİS-in fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. EHİS-in formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. EHİS-dən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. EHİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğular vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 7. Operatorun vəzifələri və hüquqları

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. EHİS-in informasiya təhlükəsizliyini DTX, XRİTDX və sahiblə birlikdə təmin etmək;

7.1.2. EHİS-in informasiya təhlükəsizliyini təmin etmək məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə və XRİTDX-yə təqdim etmək, habelə həmin dövlət orqanları tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. EHİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. EHİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. EHİS-in təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlığında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə EHİS-in "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün sahiblə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. EHİS-in fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla, texniki tədbirlər görmək və bu barədə EHİS-in fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. EHİS-dən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə EHİS-in proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) EHİS-ə daxil etmək;

7.1.9. EHİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.10. EHİS-in komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

7.1.11. sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdiyi təkliflər əsasında EHİS-də dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.12. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.13. EHİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə təqdim etmək;

7.1.14. EHİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərəuyğun formada aparmaq;

7.1.15. EHİS-dən istifadəni, habelə onun üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi elektron marketlərdə yerləşdirmək (mobil tətbiq olduğu halda);

7.1.16. aidiyyəti qurumların EHİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.17. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. EHİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. EHİS-in təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. EHİS ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. EHİS-in parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər EHİS-in təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, EHİS-ə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 8. İştirakçıların vəzifələri və hüquqları

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. EHİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. EHİS-ə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə EHİS-ə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. EHİS-dən, habelə EHİS-də olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. EHİS-də saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun EHİS-ə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. EHİS-in fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarının və sistemlərinin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək;

8.1.10. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə məlumat vermək;

8.1.11. öz təşəbbüsləri, habelə sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdiyi təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək;

8.1.12. dövlət informasiya ehtiyatlarını və sistemlərini, habelə elektron xidmətlərini EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək, habelə elektron xidmətlərin göstərilməsini EHİS vasitəsilə, onun xidmət kanalları üzərindən həyata keçirmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. EHİS-in fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. EHİS-in təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

### 9. İstifadəçilərin hüquqları

9.1. İstifadəçilərin EHİS-dən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. EHİS-dəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahib və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. EHİS-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. EHİS-dən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülh bəyannaməsinin uğurla imzalanması münasibətilə Sizə Albaniya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram. Bu sənədin imzalanması iki ölkə arasında əməkdaşlığa və qarşılıqlı anlaşmaya yol açan tarixi bir mərhələdir. Sizin tərəfinizdən, eləcə də Amerika Birləşmiş Ştatları tərəfindən nümayiş etdirilən davamlı qətiyyəti və sadiqliyi yüksək dəyərləndiririk.

Fürsətdən istifadə edərək bir daha təsdiq edirəm ki, Albaniya Azərbaycanla dostluğa, qarşılıqlı hörmətə və ortaq maraqlara əsaslanan, davamlı şəkildə inkişaf edən tərəfdaşlığa böyük əhəmiyyət verir.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə ölkələrimiz arasında əlaqələr bundan sonra da inkişaf edəcək və Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və töhfələri daha da artacaqdır.

Cənab Prezident, sülh prosesinin davamlı uğuru və dost Azərbaycan xalqının firavanlığı ilə bağlı ən xoş arzularımı və Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Bayram BEQAY,***
***Albaniya Respublikasının Prezidenti***

Zati-aliləri!

Sizin 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş görüşünüzün yekunlarına dair Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla tarixi Birgə Bəyannamənin imzalanması münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Zati-alinizin müasir tarixə həkk olunmuş qətiyyətli və hüquqauyğun addımları Asiyada uzun müddət davam etmiş daha bir münaqişənin həll olunmasını təmin etdi.

Azərbaycanın əldə etdiyi bu əlamətdar nailiyyət ölkənizin regional və qlobal sülh və təhlükəsizliyin təşviqinə dönməz sadiqliyini bir daha nümayiş etdirdi.

Zati-alinizin strateji rəhbərliyi altında Azərbaycanın səyləri Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) əhatə etdiyi geniş regionun tranzit və nəqliyyat potensialının reallaşması ilə dayanıqlı əlaqəliliyə, mədəniyyətlərarası dialoqun təşviqinə, iqlim dəyişikliyi ilə bağlı çağırışlarla mübarizəyə və AQEM-in vasitəçilik, münaqişələrin həlli və münaqişədən sonra bərpa qabiliyyətlərinin güclənməsinə mühüm töhfə verir.

Zati-aliləri, Azərbaycana və xalqınıza davamlı sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Kayrat SARIBAY,***
***Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi***

# Amerikalı ekspert: "Azərbaycanla Ermənistan arasında ədalətli vasitəçi olduğunu sübut etmək Tramp üçün də prestijlidir"

**Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Ağ Evdə dialoqu davam etdirən və bütün həll edilməmiş məsələlərin sülh yolu ilə və tam həllinə gətirib çıxaran sənədin Anlaşma Memorandumunun rəsmi imzalanması çox müsbət haldır.**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Vaşinqtondakı Bay Atlantik Universitetinin (BAU) politologiya və beynəlxalq münasibətlər üzrə professoru Paolo Von Şirah deyib.

O bildirib ki, Birləşmiş Ştatlar zəmanət olaraq, ölkələri bir araya gətirən üçüncü tərəf kimi etibarını gücləndirir.

"Hazırda regionun inkişafı ilə bağlı xoş ümidlər yaranıb. Xüsusən də bu, regionun Avropa və Mərkəzi Asiya, Avropa və Yaxın Şərq, Yaxın Şərq və Mərkəzi Asiya arasında əlaqə mərkəzinə çevrilməsinə yönəlmiş vacib infrastrukturun qurulmasında Amerika sərmayələrinin də cəlbini mümkün edir. Beləliklə, bütün bunlar çox müsbətdir. Düşünürəm ki, Tramp üçün də onilliklər ərzində müharibə aparan iki tərəf arasında ədalətli vasitəçi olduğunu sübut etmək çox prestijlidir. İndi daha müharibə yoxdur. Ərazi məsələləri həll olunub, lakin hələ görüləsi çox iş var. Düşünürəm ki, hər kəs bu görüşün uğurlu olmasından razıdır", - deyə amerikalı ekspert əlavə edib.

O bildirib ki, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp birinci və ikinci prezidentlik dövründə dəfələrlə müharibəni, hərbi müdaxilələri, heç bir yerdə döyüşməyi sevmədiyini və sülh istədiyini söyləyib: "O, İsraillə Fələstin arasında sülh yaratmağa çalışıb və bu, davam edən bir prosesdir. Tramp Ukrayna ilə Rusiya arasında sülh yaratmağa çalışır. Azərbaycan və Ermənistanla bağlı Birləşmiş Ştatların Prezidentinin bu sazişi imzalayan şəxs kimi birbaşa ön plana çıxması hər iki tərəfə bu prosesi davam etdirərkən müəyyən arxayınlıq hissi verməlidir".

# İsveçrədə ermənipərəst parlamentarilərin Azərbaycan əleyhinə irəli sürdükləri qətnamə layihəsi rədd edilib

**Cenevrə kantonunun parlamentinin bir sıra erməniperəst üzvü tərəfindən 2024-cü il noyabrın 5-də irəli sürülmüş "Dağlıq Qarabağın ilhaqı və Azərbaycanın siyasi məhbuslarının azadlığa buraxılması" adlı 24.321 saylı qətnamə layihəsi Azərbaycanın İsveçrədəki səfirliyinin apardığı məqsədyönlü fəaliyyət nəticəsində avqustun 11-də bu ölkənin parlamentinin yuxarı palatası olan Kantonlar Şurasının Xarici Əlaqələr Komitəsi tərəfindən rədd edilib.**



Azərbaycanın İsveçrədəki səfirliyindən AZƏRTAC-a bildirilib ki, bununla yanaşı, həmin komitənin vitse-prezidenti, Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən Karlo Sommaruga tərəfindən irəli sürülmüş, yalnız "məhbuslara" və "erməni mədəni irsinin mühafizəsinə" istinad edən yeni qərar layihəsi 5 əleyhinə, 4 lehinə və 3 bitərəf səslə komitənin gündəliyindən çıxarılıb.

Qeyd edək ki, İsveçrə parlamentinin yuxarı palatasının Xarici Əlaqələr Komitəsinin mətbuat məlumatında Cenevrə kantonal parlamentinin təxribat xarakterli məlum təşəbbüsünün birtərəfli olduğu, yalnız Azərbaycan tərəfinə tələblər irəli sürdüyü vurğulanıb və bu cür yanaşmaya etiraz ifadə olunub.

İsveçrə parlamentinin sözügedən qərarı bir daha radikal erməni qrupları tərəfindən dəstəklənən parlamentarilərin uğursuzluğunu nümayiş etdirib.

# Keniya Senatının üzvləri Azərbaycanın bu ölkədəki səfirliyində olublar

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun cari ilin iyununda Keniyaya rəsmi səfərin nəticələrindən biri kimi iki ölkənin parlamentləri arasında əməkdaşlığın daha da gücləndirilməsi ilkin olaraq razılaşdırılıb. Bu məsələ Keniyanın ikipalatalı qanunvericilik orqanları Milli Assambleyanın sədri Moses Vetanq'ula və Senatın sədri Amason Ceffa Kinqi ilə görüşlərdə müzakirə edilib.**



Ölkəmizin Keniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Milli Məclisi ilə Keniya Senatı arasında dostluq qrupunda iştirak edəcəyi ehtimal olunan Keniya Senatının üzvləri Stevart Madzayo, Tabitha Mutinda və Hamida Kibvana Azərbaycanın bu ölkədəki səfirliyini ziyarət ediblər.

Səfir Sultan Hacıyev senatorları Ulu Öndər Heydər Əliyevin siyasi kursuna əsaslanan inkişaf yolu və azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri haqqında məlumatlandırıb. Onlara Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi dövründəki fəaliyyətinin və parlament diplomatiyasının önəmi, COP29-a ev sahibliyi zamanı irəli sürülmüş təşəbbüslər, eləcə də WUF13-ə hazırlıq planları haqqında məlumat verilib.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın ötən həftə Vaşinqtonda imzaladığı Birgə Bəyannamənin həm Azərbaycan ilə Ermənistan arasında, həm də ümumilikdə regionda sülh və inkişaf üçün tarixi əhəmiyyəti barədə danışılıb.

Sonda tərəflər Azərbaycanın Milli Məclisi ilə Keniyanın Senatı arasında yaradılacaq əməkdaşlığın ölkələr arasında sürətlə inkişaf edən əlaqələrin dinamikasına müsbət töhfə verəcəyinə ümidvar olduqlarını ifadə ediblər.

# Ukraynaya növbəti humanitar yardım

**Azərbaycan Respublikası tərəfindən Ukraynaya humanitar yardım məqsədilə nəzərdə tutulmuş elektrik avadanlıqlarından ibarət növbəti yükün ilk hissəsi bu gün Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb.**




Yardımın göndərilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 11 avqust tarixli Sərəncamına əsasən, Energetika Nazirliyi tərəfindən təmin edilir. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Energetika Nazirliyinin mətbuat katibi Cahid Mikayılov bildirib.

O qeyd edib ki, humanitar yükün tərkibinə ümumilikdə 90 min metrə yaxın elektrik kabelləri və naqillər, həmçinin 25 ədəd generator və 7 dəst transformator daxildir. Ukraynada davam edən müharibədən zərər görmüş bölgələrin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpasına dəstək məqsədilə göndərilən bu avadanlıqların ilk hissəsi - 10 yük avtomobilindən ibarət karvanla yola salınıb. Bildirilib ki, Ukrayna tərəfinin müraciətləri əsasında təşkil edilən və ümumi dəyəri 2 milyon dollar olan sözügedən yardımın növbəti hissəsinin də yaxın günlərdə yola salınması planlaşdırılır.

Qeyd edək ki, Azərbaycan bundan əvvəl də Ukraynaya elektrik təchizatı ilə bağlı humanitar yardımlar göndərib. Hazırkı müharibə şəraiti ilə əlaqədar olaraq, ölkəmizin Ukraynaya göstərdiyi ümumi humanitar dəstək, o cümlədən bərpa və yenidənqurma yönümlü yardımların ümumi dəyəri artıq 44 milyon dolları keçib.

# Rumıniyanın Bursa nəşrində Azərbaycan-Ukrayna münasibətlərinə toxunulub

**Rumıniyanın nüfuzlu "Bursa" nəşrində dərc edilmiş analitik məqalədə bildirilir ki, Prezident İlham Əliyev Rusiya tərəfindən Azərbaycanın SOCAR-a məxsus enerji obyektlərinə və qaz nəqliyyat infrastrukturlarına hava hücumlarına baxmayaraq, Azərbaycan-Ukrayna enerji əməkdaşlığının davam edəcəyinə əmin olduğunu bəyan edib.**




AZƏRTAC-ın məlumatına görə, məqalədə qeyd olunur ki, Prezident İlham Əliyev bu mövqeyini Ukrayna Prezidenti Volodimir Zelenski ilə telefon danışığı zamanı ifadə edib. Hər iki lider Rusiyanın hücumlarını qətiyyətlə pisləyib və bu hücumların ikitərəfli enerji layihələrinə təsir etməyəcəyini vurğulayıb.

Yazıda bildirilib ki, yanvar ayından etibarən Ukrayna Trans-Balkan marşrutu vasitəsilə Azərbaycandan ilk qaz nəqli sınaqlarını həyata keçirib və əməkdaşlığın əhəmiyyətli dərəcədə genişləndirilməsini planlaşdırdığını açıqlayıb. Lakin bu dövrdə Rusiya Ukrayna ərazisində SOCAR-a məxsus neft anbarlarını və qaz kompressor stansiyalarını hədəfə alan bir neçə hava hücumu həyata keçirib.

Məqalədə vurğulanır ki, bu hadisələr təkcə enerji sahəsində deyil, həm də regionun siyasi dinamikasında yeni gərginliklər yaradır. Bununla belə, prezidentlər İlham Əliyev və Volodimir Zelenski arasındakı möhkəm dialoq və qarşılıqlı etimad enerji resurslarının bölgədə sabitlik və inteqrasiya amili olaraq qalmasını təmin edir. Prezident İlham Əliyev Rusiyanın hücumlarına cavab olaraq Ukraynaya humanitar enerji yardımı məqsədilə 2 milyon ABŞ dolları məbləğində elektrik avadanlığı göndərilməsi üçün göstəriş verib. Analitik məqalədən belə nəticə çıxarılır ki, Azərbaycan bu strateji kursdan geri dönməyəcək, enerji əməkdaşlığı siyasi və geosiyasi dəyişikliklərdən asılı olmayaraq davam etdiriləcək.

# Ukrayna səfiri: "Azərbaycanın bizə göstərdiyi dəstəyi yüksək qiymətləndiririk"

**"Biz Azərbaycan Prezidenti İlham Əliyevə və hökumətinizə Ukraynaya göstərdiyi zəruri yardıma görə dərin minnətdarlığımızı bildiririk".**



AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Ukraynanın Azərbaycandakı səfiri Yuriy Husyev bildirib. Səfir qeyd edib ki, Azərbaycandan göndərilən elektrik avadanlığı bütün enerji sistemlərini bərpa etmək üçün istifadə olunacaq.

"Elektrik avadanlığından ibarət olan bu yük 2025-ci ildə Azərbaycandan göndərilən ikinci yardımdır. Azərbaycanın bizə göstərdiyi bu dəstəyi yüksək qiymətləndiririk. Biz hər zaman Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü dəstəkləmişik. Çətin anımızda yanımızda olduğuna görə, Azərbaycana minnətdarlığımızı bildiririk", - deyə Yuriy Husyev əlavə edib.

# Şimaldan "soyuq külək"lər əsməkdə davam edir

## Ancaq bu, Azərbaycanı haqlı mövqeyindən və təmkinli davranışından çəkindirə bilməyəcək

**Son günlər Rusiya heç bir tutarlı səbəb və əsas gətirmədən Azərbaycana qarşı təxribatlar törətməyə başlayıb. Uzun illərdən bəri problemsiz münasibətlər şəraitində yaşadığımız şimal qonşumuz birdən-birə ölkəmizlə əlaqələri gərginləşdirmək yolunu tutub. Görəsən, buna səbəb nədir?**

Hadisələrin gedişindən aydın görünən odur ki, Kreml Azərbaycanın müstəqil daxili və xarici siyasətini, qazandığı yüksək nüfuzu və etimadı həzm edə bilmir. Çoxdan iflasa uğramış "parçala və hökm sür" siyasətinə yenidən can verərək onu yaşadığımız indiki zamanda da davam etdirmək istəyir, "nostalji" xəyallarla yaşayır. Halbuki Azərbaycan təzyiqlərlə üz-üzə qalsa da, başqa dövlətlərin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara heç vaxt qoşulmayıb. Bunu Rusiya rəsmiləri də dəfələrlə dilə gətirərək Prezident İlham Əliyevə, Azərbaycan dövlətinə minnətdarlıqlarını ifadə ediblər. Amma görünür, indi tamam başqa yol tutublar.

Rəsmi Moskvanın Azərbaycana qarşı ədalətsiz siyasəti özünü ötən il dekabrın 25-də mülki təyyarəmizin Rusiya səması üzərində vurulmasında aydın göstərdi. Bundan başqa, Rusiyadakı azərbaycanlı miqrantlara qarşı zor tətbiq edilməsi də birmənalı olaraq siyasi məqsəd daşıyır və bir mərkəzdən idarə olunduğunu iddia etməyə əsas verir. Azərbaycan bu təxribatlara cavab verməyə və təzyiqlərin qarşısının alınması üçün müvafiq addımlar atmağa məcburdur. Xüsusən təyyarəmizə qarşı törədilmiş terror hadisəsini necə yaddan çıxarmaq olar?! Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşdə də bir daha bəyan etdi ki, Azərbaycan bu hadisəni heç zaman unutmayacaq: "Bizim xahiş və tələblərimiz tamamilə məntiqlidir: qəzanın baş verməsində günahı etiraf etmək, təyyarəni vuran şəxsləri cəzalandırmaq, həlak olanların ailələrinə, zərərçəkənlərə və AZAL-a - itirilmiş təyyarəyə görə kompensasiya ödənilməsini təmin etmək".

Rusiya-Azərbaycan münasibətlərinin gərginləşməsində Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini, erməniperəst Konstantin Zatulin ön sıralarda gedir. O, tez-tez Azərbaycana qarşı reallığı əks etdirməyən fikirlərlə gündəmi zəbt edir. "Azərbaycan bizim demək olar, ən sadiq müttəfiqimizdir. Xüsusilə Ermənistanda baş verənlərin fonunda. Amma biz reallıqla, onların bizə münasibəti ilə üzləşdik. Bütün bunlar guya bizim vurduğumuz təyyarə məsələsi fonunda baş verir. Rusiya Prezidenti üzr istəyib, rusiyalılar da həlak olub. Rusiyanı şeytanlaşdırmaq istəyi Ukrayna dronlarının hücumu zamanı baş verənlərlə bağlıdır. Hamıya aydındır ki, bu, istənilən halda hava təhlükəsi səbəbindən baş verib", - deyən K.Zatulin Azərbaycana şər atmaqdan, real faktları təhrif etməkdən belə çəkinmir. Ondan geri qalmayan, Kremlin "tut yemiş bülbülü" kimi tanınan, heç vaxt dilinə doğru söz gəlməyən V.Solovyov da Azərbaycana qarşı sərsəm-sərsəm fikirlər səsləndirir, iki ölkə arasında olan münasibətləri pozmağa çalışır.

Təəssüflər olsun ki, son günlər Rusiyanın Azərbaycana münasibətində müşahidə olunan gərginlik daha açıq və sistemli xarakter almağa başlayıb. Rusiya mediasında Azərbaycana qarşı səsləndirilən təxribat xarakterli bəyanatlar fonunda baş verən son hərbi-siyasi hadisələr Moskvanın Bakıya münasibətində neqativ dönüşün gərginləşdiyini göstərir. Rusiyanın Ukrayna ərazisində Azərbaycanın qaz nəql etdiyi infrastruktur obyektinə zərbə endirməsi artıq "qırmızı xətt"in keçilməsi deməkdir. Nişan alınan stansiyanın Azərbaycan qazının Ukraynaya ötürülməsində istifadə edildiyi nəzərə alınarsa, bu zərbənin yalnız rəsmi Kiyevə yox, eyni zamanda Bakıya hədəfləndiyi açıq-aydın hiss olunur. Odessa vilayətindəki Azərbaycan neftinin də ixrac edildiyi qaz kəməri sisteminin, SOCAR-ın yanacaqdoldurma məntəqəsinin raket və dron hücumlarına məruz qalması Rusiyanın Azərbaycana qarşı düşmənçiliyinin açıq nümunəsidir. Bundan əvvəl də Azərbaycanın Ukraynadakı səfirliyi və SOCAR-ın ofisinin istiqamətinə raket zərbəsi endirilmişdir.

Təbii ki, Rusiya belə təxribatçı hərəkətləri ilə enerji diplomatiyasını alətə çevirərək Cənubi Qafqazda itirdiyi nüfuzunu bərpa etməyə səy göstərir. Azərbaycanın Avropa İttifaqı ilə qaz sahəsindəki əməkdaşlığının genişlənməsini, enerji ixracını ildən-ilə artırdığını Moskva qısqanclıqla qarşılayır. Amma sözsüz ki, Azərbaycan Rusiyanın bu təxribatçı hərəkətlərinə məhəl qoymayaraq müstəqil enerji siyasətindən geri çəkilməyəcək. Rəsmi Bakı həm Avropa ilə enerji əməkdaşlığını dərinləşdirəcək, həm də beynəlxalq hüquqa söykənən mövqeyini müdafiə etməyə davam edəcək.

Məlum olduğu kimi, avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan Vaşinqtonda Birgə Bəyannamə imzalayıblar. Bəyamnamədə Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsinin həyata keçirilməsi də öz əksini tapıb. Bununla da Zəngəzur dəhlizinin açılması üçün çox mühüm addımlar atılıb. Yəqin ki, Rusiyanı Azərbaycana qarşı qıcıqlandıran, təxribatlar törətməyə sövq edən amillərdən biri də budur. Çox güman ki, Rusiyanın könlündən Zəngəzur dəhlizinin "Tramp yolu" yox, "Putin yolu" adlandırmaq keçirmiş. Amma bu işdə Rusiya günahı kimsədə yox, özündə axtarmalıdır.

Tarix boyu Azərbaycan nəinki Rusiya, ümumiyyətlə, bütün dövlətlərlə qarşılıqlı hörmətə və etimada əsaslanan siyasət yürüdüb, sülh, əmin-amanlıq şəraitində yaşamağın tərəfdarı olub. Ölkəmiz bu yanaşmanı yalnız sözdə deyil, əməli olaraq həyata keçirib. Rəsmi Bakı hər hansı bir dövlətlə əlaqələr qurmağa, əməkdaşlıq etməyə başlayarkən tarixin sınağından uğurla çıxmış bəşəri prinsiplərə üstünlük verib. Şimal qonşumuz olan Rusiya ilə də əlaqələr bu prinsiplər üzərində qurulub. Çünki dünyada hökm sürən hazırkı geosiyasi şəraitdə dövlətlərarası münasibətlər sistemində səmimi dialoq və qarşılıqlı hörmət əsas şərtdir. Amma gərək qarşı tərəf də bu mühüm prinsiplərə əməl etsin.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Azərbaycan-ABŞ əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir

## Sarsılmaz qətiyyət üzərində qurulan strateji tərəfdaşlıq

### Bu, İlham Əliyevlə Donald Trampın praqmatik, obyektiv və ədalətli siyasətinin nəticəsidir



**Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri çərçivəsində dövlətlərimiz arasında strateji münasibətlərin əsasının qoyulması təkcə Bakı deyil, Vaşinqton üçün də olduqca əlamətdar hadisədir. Azərbaycan-ABŞ əlaqələrinin 30 ildən çox tarixi var və dünyanın heç bir dövləti Vaşinqtonla bu səviyyəli iqtisadi əməkdaşlıqdan danışa bilməz. ABŞ ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycan neftinin dünya bazarına çıxarılması prosesinin başlıca siyasi dəstəkverəni qismində çıxış edib. Dünyanın böyük neft şirkətlərinin Azərbaycan bazarına daxil olmasında rəsmi Vaşinqtonun Bakı ilə yenicə qurulmuş münasibətlərə böyük önəm verməsinin ciddi təsiri olub. Bununla belə, tərəflər arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılmasına dair sənədin imzalanması münasibətlərdə keyfiyyətcə yeni və fərqli mərhələnin əsasını qoyur.**

#### Strateji münasibətlər qarşılıqlı etimada və məsuliyyətə əsaslanmalıdır

Azərbaycan özünün müstəqil siyasəti ilə dünya dövlətləri və xüsusən də güc mərkəzlərinin nəzərində ciddi etimad ünvanına çevrilib. Bu status imkan verir ki, rəsmi Bakı Avropa İttifaqının bir sıra üzvləri ilə strateji münasibətlərə malik olmaqla yanaşı, eyni məzmunlu və statuslu razılaşmanı Pekinlə də əldə edə bilsin. İndi isə dünyanın bir nömrəli iqtisadiyyatına sahib güc - ABŞ ilə strateji münasibətlərin əsasının qoyulması ölkəmizin özünün xarici siyasət prioritetlərində seçim edərkən nə qədər müstəqil davrana bildiyinin göstəricisidir.

İkitərəfli münasibətlər etimad və etibar məsələsidir. Bu kimi əlaqələrin qurulmasına qərar anidən verilmir, illərin sınağından çıxmış təmaslar strateji tərəfdaşlığın bünövrəsini təşkil etməlidir. Strateji münasibətlər tərəflərin üzərinə ciddi öhdəliklər qoyur və bu kimi əlaqələr tam əminliklə demək olar ki, müttəfiqliyin ən ali məqamıdır.

Dünya təcrübəsində, xüsusilə də son dövrlərdə seysmik geosiyasi vəziyyət və qeyri-sabit maraqlar şəraitində bəzi dövlətlərin, hətta özlərinin imzaladıqları strateji tərəfdaşlığa dair sənədlərdən irəli gələn vəzifə və öhdəlikləri pozduqlarının şahidi oluruq. Bu səbəbdən strateji əlaqələr müstəvisində münasibətlərin qurulması yüz ölçüb, bir biçməyi tələb edir.

Strateji müttəfiqləri bir-birilərinə yaxın edən bir amil ümumi maraqlar və üst-üstə düşən məqsədlərdirsə, digəri etibarı qazanmaq və onu qorumağı bacarmaqdır. Bu gün rəsmi Bakı ilə Vaşinqtonun dünyada baş verən bir sıra təzahürlərə baxışları ümumi xarakter daşıyır. Bu təbii ki, ilk növbədə Azərbaycanın beynəlxalq aləmdə yeni rol - orta güc statusu qazanması ilə bağlıdır. İndi Bakının xarici siyasət xətti təkcə təmsil olunduğu bölgə və ya qonşuları ilə məhdudlaşmır, artıq daha geniş coğrafiyalarda yaranan hadisələrə reaksiya verə bilmək mərhələsinə daxil olub. Bakının Yaxın Şərqdə oynamağa başladığı rol Vaşinqtonun bu mürəkkəb bölgədə baş verənlərə yanaşması ilə yaxınlıq təşkil edir. Məsələn, İsrail-Türkiyə və yaxud Suriya-İsrail münasibətlərinin bərpası və qurulması prosesində Azərbaycan da əsas vasitəçi qismində çıxış edir. Vaşinqtonun regional liderliklərini qəbul etdiyi və özünə müttəfiq saydığı Ankara və Təl-Əviv arasında pozitiv gündəmin olmasında həyati maraqları var. Əsəd diktaturası və istibdadından sonra qurulan yeni Suriyada sabitlik və iqtisadi rifah ABŞ-nin regional təhlükəsizlik sahəsində önəm verdiyi amillərdən biridir. Bu gün əgər Azərbaycan Suriyaya qaz ixrac edirsə, təbii ki, bütün sivil dünya kimi ABŞ tərəfindən də təqdir olunur.

Vaşinqtonun Azərbaycan-Ermənistan sülh prosesinə evsahibliyi və vasitəçilik etməsi, ABŞ ilə aramızdakı münasibətlərin strateji səviyyəyə yüksəlməsi, bir növ, dövlətlərarası əlaqələrin sifarişidir. Hərçənd altına xətt çəkərək qeyd etmək lazımdır ki, əvvəlki administrasiyanın - Co Bayden hakimiyyəti illərində bu barədə düşünmək nəinki çətin, hətta absurd olardı. Bayden ABŞ-si ilə Azərbaycan normal münasibətlərinin qurulması bir yana, Bakı-İrəvan sülh gündəmini ən azı dörd il geriyə atmaqla Vaşinqtonun bölgəmizdəki nüfuzunu şübhə və zərbə altına salmışdı.

Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində bu məsələni xüsusi vurğuladı: "Əvvəlki administrasiya dövründəki dörd ili mən itirilmiş illər kimi qiymətləndirirəm. Çünki əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi. Bizim Amerika Birləşmiş Ştatları ilə əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı. Ona görə indi biz vaxt itirə bilmərik. Xüsusilə cənab Trampın və onun administrasiyasının nümayəndələrinin - komandasının Azərbaycana olan müsbət münasibətini, yəqin ki, tamaşaçılar da bizim keçirdiyimiz görüşlərdən və mətbuat konfransındakı abhavadan hiss ediblər. Bu xoş münasibət, əlbəttə ki, çox önəmli bir amildir".

Bu gün Azərbaycanla ABŞ-nin artıq strateji münasibətlər qurmaq qərarına gəlmələri məhz Donald Trampın praqmatik, obyektiv və ədalətli yanaşmasının məhsuludur. Bu yerdə bir məqama da toxunmağa xüsusi ehtiyac var ki, Azərbaycan Prezidenti İlham Əliyev hələ Trampın hakimiyyətinin ilk aylarında ABŞ ilə strateji münasibətlərin əsasının qoyulmasının mümkünlüyünə işarə etmişdi.

#### Erməni lobbisi və diasporundan çəkinməyən ilk ABŞ Prezidenti

Azərbaycan ABŞ ilə münasibətləri tarixində daim sabit və dəyişməz prinsiplərdən çıxış edib. Baxmayaraq ki, Vaşinqtonda administrasiyalar dəyişsə də, Bakı ilə münasibətlərə problemlər və komplekslər eynəyindən baxmağa davam ediblər. Bu kurs ABŞ-nin daxili siyasəti və seçki sisteminə öz məkrli maraqları müstəvisindən müdaxilə edən erməni diasporu ilə əlaqəli idi ki, prezidentdən tutmuş senator və konqresmenlərədək hamı "erməni səsləri"nin arxasınca qaçaraq dövlət maraqlarını və prioritetlərini güdaza veriblər. Bu baxımdan Donald Tramp yeganə ABŞ Prezidentidir ki, nə birinci hakimiyyətinin seçkilərində, nə də indi erməni diasporunun manipulyasiyalarına önəm verib və özünün müstəqil siyasətini yürüdüb. Bu gün Vaşinqton və Bakıda strateji müttəfiqlik müzakirələrinin aparılmasında ən önəmli amillərdən biri də budur: Tramp üçün ilk növbədə dövlətinin maraqlarıdır ki, Bakı ilə xoş münasibətlər bu yolda çox mühüm mərhələ və istiqamətdir. Erməni diasporu və lobbisinin istək, arzu və təşəbbüsləri isə, necə deyərlər, ermənilərin öz problemidir.

ABŞ ilə münasibətlərimizdə bir məqam da var ki, bu, həm 33 il ərzində dövlətlərarası əlaqələrin məntiqinə kölgə salırdı, həm də Azərbaycan üçün bir mənəvi məsələ idi. Söhbət 907-ci düzəlişdən gedir ki, erməni lobbisinin təşəbbüsü ilə qəbul edilmiş və faktiki olaraq Vaşinqton-Bakı gündəmini işğal etməklə təkcə Azərbaycanın deyil, ABŞ-nin özünün də maraqlarına ziyan vururdu. Azərbaycan özü-özünü təmin edən ölkədir və biz hətta ən çətin anlarımızda belə problemlərimizi özümüz yoluna qoymağa üstünlük vermişik. Çünki gerçək müstəqillik məhz belə taleyüklü anlarda formalaşır və möhkəmlənir. Ancaq hər halda, bu haqsızlıq bizə qarşı niyə olmalı idi?

Azərbaycan özünün proqressiv xarici siyasəti və səmimi amallarından irəli gələrək ABŞ və müttəfiqlərinin Əfqanıstan əməliyyatına - beynəlxalq terrorizmlə mübarizəyə yardım etmək məqsədilə öz səmasını koalisiya qüvvələrinə açmışdı. Məhz bu kampaniya ərzində Vaşinqton 907-ci düzəlişin fəaliyyətini dayandırmışdı. Ancaq sonra, necə deyərlər, "yağışlar yağıb, çatlaqlar örtüldüyünə" görə, Bayden hakimiyyəti onu yenidən qüvvəyə mindirdi. Trampın isə 907-ci düzəlişin tətbiqini məhz Prezident İlham Əliyevlə görüşü zamanı dayandırması, ABŞ-nin hazırkı dövlət başçısının Azərbaycanla əlaqələrə nə qədər önəm verdiyini bütün dünyaya nümayiş etdirdi. "Prezident Trampın bu rəmzi jestinin bizim üçün çox dərin mənası var. Təbii ki, bu gün Azərbaycanın xarici yardıma ehtiyacı yoxdur, ölkəmiz xarici yardımdan asılı deyil. İqtisadiyyatımız sabitdir, xarici borcumuz ÜDM-in yeddi faizindən də azdır. Özümüz donor ölkəyə çevrilmişik. Beləliklə, bu gün 907-ci düzəliş əsasən siyasi və rəmzi məna daşıyır. Bu, artıq ədalətsizliyin aradan qalxdığını göstərir. Beləliklə, bu, Prezidentin adından çox mühüm siyasi jest idi. Eyni zamanda bu gün onun ofisində bu sənədlə bərabər, Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması haqqında sənədi də imzaladıq. Bu iki mühüm hadisə bu gün baş verib", - Prezident İlham Əliyev dedi.

#### Yekun sülh müqaviləsini istəyən ilk ABŞ lideri

Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalı və dünyanın buna göz yumması rəsmi Bakının qarşısında duran əsas xarici siyasət problemi olub. Biz bu illərdə digər dövlətlərlə münasibətlərimizin qurulmasından tutmuş, daxili siyasi və ya iqtisadi problemlərimizin həllinədək geniş aspektli məsələlərə istisnasız olaraq həmin reallığı nəzərə alaraq baxmışıq. Qarabağın işğal altında olması bizim üçün ən həssas məsələ, hətta ölüm-dirim mövzusu olub. Odur ki, Trampın səmimi təşəbbüslə yekun sülh sənədinin imzalanması yolunda tərəflər arasında vasitəçiliyi öz üzərinə götürməsi Bakıda yüksək qiymətləndirilir.

Tramp ilk ABŞ prezidentidir ki, bu problemin tamamilə həllində maraqlıdır və belə bir istiqamətdə ciddi addımlar atır. O, eyni zamanda həm də sülhə əsas maneələrdən biri olan Amerikadakı erməni diasporunun siyasi quluna çevrilmiş qanunvericilərin ifşası kimi missiyanı da üzərinə götürüb. Menendez, Şiff, Peloni, Şermann, Marki, Smit kimi qanunvericilərin naqis, korrupsioner əməlləri məhz Tramp hakimiyyəti dövründə, özü də cəmi bir neçə ay ərzində üzə çıxarılıb və ictimailəşib.

Donald Trampın haqlı olaraq USAID kimi təşkilatların fəaliyyətinə son qoyması yalnız ABŞ deyil, Azərbaycan və bizim kimi haqsızlığa, qərəzli təbliğata məruz qalan digər dövlətlərin də maraqlarına cavab verir. Tramp aydın şəkildə göstərir ki, bu kimi qurumların fəaliyyəti rüşvət üzərində qurulub. Əgər USAID rüşvət mexanizmlərindən gen-bol istifadə edibsə, deməli, bu saxtakar əməllərdən Azərbaycan və digər dövlətlərə qarşı da yararlanıb. Bu yanaşmanı eynilə "Human Rights Watch", "Freedom House" barədə də işlədə bilərik. Bu qurumlar ABŞ-nin dünyada gözü götürmədiyi ölkələrə qarşı istifadə edilən mexanizmlərin əsas icraçıları olublar. Tramp isə yeganə liderdir ki, buna son qoyub və ABŞ-nin xarici siyasətini qarşılıqlı maraq və faydalar gündəminə qaytarıb.

ABŞ-yə Bayden Administrasiyasının rəhbərlik etdiyi əvvəlki 4 il təəssüf ki, itirilmiş illər oldu. Bayden Administrasiyası da, Ermənistana açıq-aşkar tərəf tutan Fransa Prezidenti E.Makron da, Avropa İttifaqı, Avropa Şurası, Avropa Parlamenti və digər bu kimi qurumlar da Azərbaycana münasibətdə qeyri-adekvat davrandılar. Sülhün əldə olunması üçün optimal həllər tapmaq əvəzinə Azərbaycanı güzəştlərə məcbur etmək yolu tutdular. Regionumuzda qanlı münaqişələrin bundan sonra da davam etdirilməsi üçün yeni əsasların yaradılmasına cəhdlər edildi. Onlar Ermənistana yenə də Azərbaycanla bərabərhüquqlu, mehriban qonşuluq münasibətləri qurmaq potensialına malik ölkə kimi yox, əsrlər boyu regionu qarışdırıb burada öz maraqlarını təmin etməkdən ötrü masa nəzərində yanaşdılar.

Lakin Azərbaycan Prezidenti İlham Əliyevin postkonflikt dövründə aparılan sülh proseslərində də tutduğu qətiyyətli mövqe bu güzəşt siyasətini iflasa uğratdı. Siyasi və diplomatik təzyiqlərə, beynəlxalq mediada təşkil olunan ardıcıl qarayaxma kampaniyalarına, sanksiya hədələrinə baxmayaraq, dövlət rəhbərimiz öz mövqeyindən bir addım belə geri çəkilmədi, əsl Liderə xas qətiyyət və prinsipiallıq nümayiş etdirərək siyasi strategiyasını tam həcmdə, uğurla reallaşdırdı. Azərbaycan Prezientinin ABŞ-yə tarixi səfəri və Ağ Evdə əldə olunmuş möhtəşəm nəticə cənab İlham Əliyevin növbəti qalibiyyətinin ifadəsi idi.

Bütün bunlar onu deməyə əsas verir ki, Tramp hakimiyyəti dövründə Azərbaycan-ABŞ münasibətlərində qarşıya qoyulan bütün hədəflərə nail olunacaq. Hər iki tərəf bu niyyətdədir və bu istək səmimi, təbii xarakter daşıyır. Hər iki dövlətin lideri möhkəm iradəyə, qətiyyətə sahibdirlər və strateji münasibətlərin qurulmasında israrlıdırlar. Bu reallıq əsası qoyulan strateji tərəfdaşlığın məhsuldar olacağını şübhəsiz edir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## ABŞ-nin Prezidenti Donald Tramp Nobel Sülh mükafatına layiqdir

### O, dünyada müharibələri dayandırmağa çalışan sülhpərvər lider kimi qəbul edilir

**Avqustun 8-də dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində möhtəşəm tarixi hadisə baş verdi. ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında 7 bənddən ibarət Birgə Bəyannamə imzalandı. Prezident İlham Əliyev çıxışında vurğuladı ki, əldə olunan razılaşma regionda uzunmüddətli sülhün təmin olunması üçün real zəmin yaradır.**

Ağ Evdə imzalanan sazişin ən mühüm bəndlərindən biri də "Trump Route for International Peace and Prosperity" adlanan yeni tranzit koridorunun yaradılması ilə bağlıdır. Bu yol Azərbaycan, Ermənistan, Türkiyə və Avropa arasında ticarət və logistik əlaqələri genişləndirəcək, həmçinin Orta Asiyaya çıxış imkanlarını gücləndirəcək. Bu sənəd təhlükəsizlik, müdafiə sənayesi, enerji, iqtisadiyyat, süni intellekt, tranzit və iqlim dəyişikliyi kimi çoxşaxəli sahələri əhatə edir.

Prezident İlham Əliyevin Ağ Evdəki bəyanatı və Vaşinqton səfəri Azərbaycan diplomatiyası üçün tarixi mərhələ oldu. İmzalanan sülh sazişi yalnız iki ölkə arasındakı münasibətləri deyil, bütün Cənubi Qafqazın geosiyasi xəritəsini dəyişdirə bilər. Dövlətimizin başçısı çıxışında "Prezident Trampın strateji baxışı və münasibəti sayəsində nəinki bizim regionda, həmçinin son aylarda Asiyada, Afrikada və hazırda Cənubi Qafqazda müharibələrə son qoyulub. Otuz ildən çox idi ki, biz bu müharibəyə son qoya bilmirdik. Biz həyatları qurban verdik və çox pis müharibə içində idik və Prezident Tramp, onun komandası və bizim yaxın dostumuz cənab Uitkoff və onun komandası olmasaydı, yəqin ki, bu gün Ermənistan və Azərbaycan yenə bu bitməyən danışıqlar prosesində qalardı", - deyə qeyd etdi.

Vaşinqton razılaşması, ABŞ-Azərbaycan strateji tərəfdaşlığının təməlinin qoyulması və "Trump Route" kimi iri layihə sözsüz ki, Azərbaycanın gələcək onillikdə regional və qlobal arenada mövqelərini daha da gücləndirəcək. Sülh nəinki bizim bölgəmiz, eyni zamanda bütün dünya üçün böyük imkanlar yaradır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, "Tramp rifah və sülh marşrutu" divarları yox edəcək, bir sıra ölkələr üçün investisiya, sərmayə, sabitlik və rifah baxımından, həmçinin beynəlxalq təhlükəsizlik baxımından yeni imkanlar vəd edir.

ABŞ Prezidenti Donald Tramp Vaşinqtonda keçirilən tarixi görüşdən sonra "Truth Social" hesabında paylaşım edərək Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla birgə uzun illər davam edən münaqişə və itkilərdən sonra belə bir sənədi imzalamağın onun üçün böyük şərəf olduğunu qeyd edib. Tramp daha sonra vurğulamışdır: "Onlar iki möhtəşəm insan və böyük liderdirlər. İndi isə mənim yaxşı dostlarım oldular!"

İki ölkə arasında sülhün yaranması üçün ABŞ Prezidenti Donald Tramp çox uğurlu təşəbbüslərlə çıxış edib. Demək olar ki, Donald Trampın adı dünya tarixinə müharibələrə son qoymağa, münaqişələri həll etməyə çalışan dünya lideri kimi düşəcək.

Rusiya-Ukrayna müharibəsi kontekstində apardığı danışıqlar və tərəfləri uzlaşdırmaq cəhdləri, 12 günlük İran-İsrail gərginliyinin bitirilməsindəki çağırışları və fəaliyyəti, Vaşinqtonda baş tutan Azərbaycan-Ermənistan danışıqları və digər xoşməramlı xidmətləri deməyə əsas verir ki, ABŞ Prezidenti Donald Tramp bundan sonrakı fəaliyyətində də dünyada sülh və əmin-amanlıq yaratmağa çalışacaq.

Prezident Donald Trampın dünyada sülhyaratma səylərini yüksək dəyərləndirən dövlətimizin başçısı Vaşinqtonda Birgə Bəyanatın imzalanması zamanı ABŞ Prezidentinin Nobel Sülh mükafatına layiq görülməsi üçün Nikol Paşinyan ilə birgə Nobel komitəsinə müraciət etmək barədə təkliflə çıxış edib: "Bəlkə biz baş nazir Paşinyan ilə razılaşarıq və Nobel mükafatının komitəsinə birgə təşəbbüs də irəli sürə bilərik. Cənab Tramp bu mükafata layiqdir". Mətbuata açıqlamasında Azərbaycan Prezidenti bir daha vurğulamışdır: "Bəs əgər Nobel Sülh mükafatı Prezident Trampa verilməsə, kimə verilməlidir? Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək. Auditoriyanın reaksiyasından hesab edirəm ki, biz qayıdan kimi birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik". Azərbaycan Prezidentinin təşəbbüsünə Nikol Paşinyan da dəstək verərək çıxışında Prezident Trampın Nobel Sülh mükafatına layiq olduğunu bildirib.

Ağ Evdən verilən məlumata görə, ABŞ Prezidenti D.Trampın son aylar apardığı diplomatik fəaliyyəti, xüsusən də qlobal münaqişələrin həlli istiqamətindəki təşəbbüsləri bir sıra dünya liderləri və hökumətləri tərəfindən yüksək dəyərləndirilərək onun Nobel Sülh mükafatına namizədliyi irəli sürülüb.

Ağ Ev rəsmilərinin sözlərinə görə, Trampın Nobel Sülh mükafatına təqdim olunması, xüsusən də onun Cənubi Qafqaz, Yaxın Şərq və Asiya istiqamətində son diplomatik təşəbbüsləri ilə bağlıdır. Xüsusən də Azərbaycan və Ermənistan arasında sülh prosesi, İsrail və ərəb ölkələri ilə münasibətlərin normallaşdırılması, eləcə də Asiya-Sakit okean regionunda gərginliyin azaldılması istiqamətində onun tərəfindən atılan addımlar vurğulanır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Sülh prosesində tarixi mərhələ



# İlham Əliyevə qlobal dəstək artır

## Beynəlxalq birlik ABŞ-də əldə edilən Azərbaycan-Ermənistan arasındakı sülh razılaşmasını alqışlayır

**Prezident İlham Əliyevin ABŞ səfəri, Ermənistanla sülh müqaviləsi üzrə əldə olunan razılaşmalar, imzalanan Birgə Bəyannamə, ABŞ ilə Azərbaycan arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə işçi qrupunun yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması təkcə ölkəmizdə deyil, beynəlxalq miqyasda da müzakirə mövzusu olaraq qalır. Bir çox xarici ölkələrin aparıcı mətbu orqanlarında dərc olunan araşdırma yazılar, siyasi ekspertlərin rəyləri əsasında hazırlanan məqalələr bunu deməyə əsas verir.**

Eyni zamanda Prezident İlham Əliyevin ABŞ səfərindən sonra dost və tərəfdaş ölkələrin liderləri ilə telefon danışıqları zamanı səslənən fikirləri də bu prosesin tərkib hissəsi adlandırmaq olar.

Öncə Vaşinqtonda imzalanan sənədlərə diqqət edək. Ağ Evdə imzalanan bütün sənədlər ilk növbədə Azərbaycanın milli maraqlarına uyğundur. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilən görüş, onun şahidliyi ilə imzalanan birgə bəyannamə, Azərbaycan-ABŞ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsini şərtləndirəcək Anlaşma Memorandumu bir daha göstərdi ki, İlham Əliyev dünyaya sülh, əmin-amanlıq, təhlükəsizlik çağırışındadır və bu hər zaman yüksək amallara sadiq olduğunu isbatlayıb.

Azərbaycanla Ermənistan arasındakı sülh sazişinin imzalanmasına dair sənədlərin paraflanması, əlbəttə ki, həm ABŞ, həm də regionda marağı olan bir çox ölkələr üçün müsbət haldır.

ABŞ Dövlət Departamentinin sözçüsü Tammi Bryus da bildirib ki, dünya artıq Prezident Trampın bu məsələdə nə qədər ciddi olduğunu bilir. Azərbaycanla Ermənistan arasında imzalanmış razılaşma ABŞ Prezidenti üçün çox əhəmiyyətlidir. Onun sözlərinə görə, tərəflər Ağ Evdə oldular. Bu, administrasiya və dünya üçün vacibdir. Bu barədə bəzi insanlar bəlkə də hələ xəbərsizdirlər. Bu iki qonşu onilliklərdir ki, münaqişədədir. Artıq 35 ildən çoxdur ki, saysız-hesabsız insan həyatını itirib, nəsillər zərər görüb. Avropalılar, Fransa, Rusiya Prezidenti Vladimir Putin və hətta Bayden münaqişəni bitirməyə cəhd etsə də, yalnız Prezident Tramp tarixi sülhü razılaşdırmaq üçün bu iki ölkəni uğurla bir araya gətirə bilib: "Ona görə də düşünürəm ki, dünya bilir ki, Tramp münaqişələrin və ya ədavətin nə qədər davam etməsindən asılı olmayaraq, ölkələr arasında uzunmüddətli, davamlı sülhə sadiqdir. O, realistdir və bu öhdəlik gördüyümüz kimi, diplomatiyaya əsaslanır. O, müharibələri dayandırmaq üçün ABŞ Prezidenti olmaqdan maksimum yararlanaraq əlindən gələni edəcək".

Avqustun 10-dan başlayaraq, dünyanın müxtəlif ölkələrinin, dost və qardaş dövlətlərin liderlərinin İlham Əliyevə etdikləri telefon zəngləri zamanı səsləndirdikləri fikirlərin ümumi məzmunu Azərbaycan Prezidentinin sülh gündəliyinin dəstəkləndiyi, təqdir edildiyi fonundadır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Ukrayna Prezidenti Volodimir Zelenski, Albaniya Prezidenti Bayram Beqay, Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Əl Tani, İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynlə telefon danışıqları zamanı dövlətimizin başçısının ABŞ səfərində imzalanan sənədlərin tarixi əhəmiyyəti və bunun əlaqələrin inkişafına verəcəyi töhfələrdən söhbət açılıb. Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin paraflanmasının, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub. Bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edən İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz əlaqənin yaradılmasına xidmət edəcək nəqliyyat bağlantısının bütün regionun çiçəklənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan regionda sülh gündəliyinin irəli aparılmasında nümayiş etdirdiyi liderliyə görə İlham Əliyevə təbriklərini çatdırıb və qeyd edib ki, Türkiyə regionda sülhü və sabitliyi daim dəstəkləyir.

Onu da xüsusi olaraq vurğulayaq ki, Vətən müharibəsi zamanı və savaşdan sonrakı dövrlərdə Azərbaycanı Fransanın timsalında ittiham edən bəzi dövlətlər, beynəlxalq təşkilatlar da susqun qalmayıblar. Azərbaycanın əleyhinə kampaniya aparan həmin dairələr bu gün İlham Əliyevin ABŞ səfərini, Vaşinqtonda əldə edilən razılaşmaları dəstəklədiklərini bəyan ediblər.

Məsələn, Avropa İttifaqı İlham Əliyev və Nikol Paşinyanın görüşünü "hərarətlə qarşılayıb", "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflanmasını alqışlayıb. Təşkilatın saytında yerləşdirilən açıqlamada qeyd olunub ki, Prezident Trampın Ağ Evdə iştirakı ilə Birgə Bəyannamənin imzalanması həm Ermənistan, həm də Azərbaycan üçün böyük inkişafdır, hər iki ölkə üçün və bütün regionda davamlı sülhə yol açır. Avropa İttifaqı Ermənistan-Azərbaycan normallaşma prosesini qətiyyətlə dəstəkləyir və regional əlaqəyə və tam açıqlığa, ilk növbədə, münaqişə irsi ilə bölünmüş əhaliyə fayda vermək və regionu davamlı sülhə, sabitliyə və rifaha yaxınlaşdırmağa sərmayə qoymağa hazırdır.

Avropa Şurasının baş katibi Alain Berset də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında davamlı sülh üçün razılaşdırılmış mərhələni alqışlayıb və dəstək verməyə hazır olduğunu bildirib.

Avropa Şurası Parlament Assambleyasının prezidenti Theodoros Rousopoulos da ABŞ-nin himayəsi altında Ermənistan və Azərbaycan arasında Vaşinqtonda imzalanmış sülh sazişi layihəsinin mətnini səmimiyyətlə alqışladığını vurğulayıb.

İki ölkə arasındakı razılaşmanı alqışlayanlar içərisində hətta Fransa da var. Bu ölkənin Azərbaycandakı səfirliyinin bəyanatında qeyd edilir ki, Fransa Azərbaycan və Ermənistan arasında əldə olunan razılaşmanı qətiyyətli irəliləyiş hesab edir. Bəyanatda deyilir: "Birləşmiş Ştatların öhdəliyi sayəsində əldə edilən nəticələr qətiyyətli irəliləyişdir. Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin ən qısa zamanda imzalanması və ratifikasiyası bu prosesi tamamlayacaq. Bu baxımdan Fransa tərəflərin ATƏT-in Minsk qrupu strukturlarının ləğvinə başlamaq üçün birgə çağırışını dəstəkləyir". Əlbəttə ki, bir ölkənin səfirliyinin yaydığı bəyanatda dövlətin mövqeyi ifadə olunur.

Azərbaycana qarşı müxtəlif qətnamələr qəbul edən, ölkəmizi "etnik təmizləmədə" ittihamlayan, qarayaxma kampaniyalarından əl çəkməyən Avropa Parlamenti, eləcə də ölkəmizə qarşı ədalətsiz qərarlarına görə Azərbaycan nümayəndə heyətinin sessiyalarına qatılmaqdan imtina etdiyi Avropa Şurası Parlament Assambleyası indi İlham Əliyevin sülh gündəliyini təqdir edirlər.

Azərbaycana qara yaxanlar, beynəlxalq təşkilatlardan uzaqlaşdırılmasını tələb edənlər indi İlham Əliyevin ədalətli, müstəqil siyasətini, diplomatiyasını alqışlayır və bəyan edirlər ki, bu siyasət bölgəyə sabitlik gətirəcək.

Göründüyü kimi, beynəlxalq ictimaiyyət tarixi ABŞ görüşündə imzalanan sənədləri, Azərbycanla Ermənistan arasında Birgə Bəyanatı alqışlayır. Yəni Donald Trampın vasitəçiliyi ilə reallaşan bu proses qlobal dəstək almaqda davam edir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# İrəvanın gecikmiş etirafı

## Ermənistan ərazilərimizi 30 il işğalda saxlamaqla özünü qlobal layihələrdən kənarda qoydu

**ABŞ-nin bəzi media qurumları xeyli müddətdir mütəmadi olaraq Azərbaycan haqqında şayiələr yayır, təhqiramiz yazılar dərc edir və əslində, Amerika ictimai rəyini çaşdırırdılar. Bunu, əsasən, erməni maraqlarına uyğun fəaliyyət göstərən erməni lobbi qruplarının nümayəndələri edirdilər. Son hadisələr də həmin qrupları əsla sevindirmir, çünki onların maraqları tamamilə fərqlidir.**

Prezident İlham Əliyev bu il avqustun 8-də Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində sözügedən erməni lobbisi qruplarının ümumiyyətlə, bədnam fəaliyyətini, eləcə də öz xalqı qarşısında "xidmətlər"ini belə xarakterizə edib: "Onlar işğala görə məsuliyyət daşıyanlardır, çünki onların ideyaları, məsləhətləri, pulları və Ermənistanın müxtəlif hökumətlərinə təsirləri Ermənistanın özü üçün dağıdıcı rol oynayıb. Əgər onlar, belə qruplar olmasaydı, Ermənistan daha çox inkişaf etmiş, möhkəm, müstəqil sistemə malik ölkə olardı. Amma onlar, sadəcə, vaxt itirdilər, torpaqlarımızı işğal edərək vaxt itirdilər və sonda bu işğalı əbədi saxlaya bilmədilər, əslində isə özlərini inkişafdan 30 il geri atdılar".

Beləliklə, bir qədər geriyə nəzər salaq. Son onilliklər ərzində Ermənistan dalan ölkəyə çevrildi. Bu vəziyyətə özünün böyük səhvləri və cinayətləri nəticəsində düşdü. Belə ki, son onilliklər regionda həyata keçirilən qlobal layihələrin heç birinin iştirakçısı deyil. Öz xislətinə görə bu layihələrin hamısından qıraqda qalıb. Neft və qaz ixracı marşrutları, dəmir yolu xətləri, nəqliyyat dəhlizləri onun ərazisindən yan keçir. Bir sözlə, Ermənistan bu sahədə də özünü çıxdaş bir ölkəyə çevirdi.

Azərbaycan həmin dövrdə dünya əhəmiyyətli nəhəng layihələr həyata keçirdi və bu istiqamətdə işləri uğurla davam etdirir. Hələ keçən əsrin sonunda ölkəmiz Bakı-Novorossiysk, Bakı-Supsa kimi neft kəmərlərini işə saldı. Ardınca, XXI əsrin əvvəlində üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri çəkildi. Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində 1768 kilometr məsafə boyu uzanan bu kəmər artıq uzun illərdir Xəzərin ölkəmizə məxsus sektorundan çıxarılan nefti dünya bazarlarına çatdırır.

BTC bütün regiona xeyir-bərəkət gətirən kəmərdir və belə bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də iqtisadiyyatına, əhalisinin güzəranına böyük zərbədir. Ermənistan, eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsindən kənarda qalıb. Təbii ki, bundan sonra çəkilən müxtəlif təyinatlı xətlər də Ermənistandan keçməyib. Azərbaycan qonşu Gürcüstan və Türkiyə ilə birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunu çəkib. "Şərq-Qərb" nəqliyyat dəhlizinin tərkib hissəsi olan bu yolla daşımalar ildən-ilə artır.

Ermənistan isə bütün bu nəhəng işlərə kənardan, düşdüyü iqtisadi dalandan seyrçi kimi baxır. Səbəb aydındır. Azərbaycan bu qlobal layihələri həyata keçirəndə torpaqlarımızın böyük bir hissəsi işğal altında idi. Təbii ki, neçə-neçə bölgəmizi tar-mar edən, insanlarımızı soyqırımına məruz qoyan cinayətkar qonşu ilə heç bir layihədə tərəfdaş ola bilməzdik. Dövlətimizin başçısı o vaxt qəti bildirmişdi ki, erməni faşistləri torpaqlarımızdan çıxmayana qədər vəziyyət bu cür də davam edəcək. Beləliklə, Ermənistan siyasi, iqtisadi, enerji və nəqliyyat dalanına çevrilmişdi.

İndi dünyanın müxtəlif yerlərində gedən iqtisadi proseslər, çətinliklər, böhranlar Azərbaycan iqtisadiyyatının dayanıqlı olduğunu göstərir. Biz güclü iqtisadiyyat yaratmışıq və iqtisadi asılılığı tamamilə aradan qaldırmışıq. Əgər kimdənsə iqtisadi cəhətdən asılı olsaydıq, zəfər çala bilməzdik. Yəni qalib gəlmək üçün önəmli layihələr icra etmişik. Bu gün dünyanın və bölgəmizin enerji-nəqliyyat xəritələrinə baxmaq kifayətdir ki, hər kəs təşəbbüsümüzlə icra edilən layihələrin həm ölkəmizə, həm də tərəfdaşlarımıza nə qədər böyük fayda gətirdiyini görsün. Bu nəqliyyat və enerji layihələrində iştirak edən ölkələrin, dostlarımızın, müttəfiqlərimizin sayı onlarladır.

Dövlətimizin gücü, Müzəffər sərkərdəmizin iradəsi və zəkası ilə, igidlərimizin qanı-canı bahasına artıq mənfur işğalçını torpağımızdan qovmuşuq. Şanlı qələbə qazanmışıq. İndi dövlətimiz, Prezidentimiz böyük humanizm göstərərək erməniləri regionda həyata keçirməyə başladığımız layihələrdə iştirak etməyə çağırır. Məsələn, Azərbaycan Zəngəzur dəhlizinin ("Tramp yolu") açılması üçün praktiki addımlar atır. Ermənistan tərəfi isə beş ilə yaxındır bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmirdi. Ermənistanda nədənsə Zəngəzur adı gələndə vahiməyə düşürlər. Ona görə də vaxt qazanaraq bu layihədən kənarda qalmağa cəhd edirdilər.

Prezident İlham Əliyev cari ilin əvvəlində nəqliyyat məsələlərinin müzakirəsinə həsr olunmuş müşavirədə bu barədə demişdir: "Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq. Yenə də deyirəm, bizim Ermənistana ərazi iddiamız yoxdur. Ancaq Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək Azərbaycandan - Azərbaycana keçid verməlidir".

Dövlətimizin başçısı Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə verdiyi müsahibədə də bu məsələdən geniş bəhs etdi. Qeyd etdi ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqə mövzusu ətrafında son beş ildə nə qədər şayiələr, nə qədər təxribatlarla üzləşmişik. Müxtəlif ölkələrin rəhbərləri Azərbaycanın guya ermənilərə hücum etməyi planlaşdırdığı barədə şayiələr yayırdılar, ölkəmizin bu ərazini guya güc yolu ilə ələ keçirməyi planlaşdırdığını deyirdilər. Bunun yalan məlumat olduğu barədə bütün cavablarımız nəticə vermirdi: "Bu gün baş verənlərin nəticəsində isə Prezident Trampın şahidliyi ilə Ermənistanın baş nazirinin şəxsən imzaladığı Birgə Bəyannamədə Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz keçidlə bağlı mövqeyimizi dəqiq əks etdirən müddəa var. Sənəddə bu, Ermənistanın suverenliyinə hörmət prinsipi ilə qeyd olunub. Beləliklə, biz istəyirdik ki, Azərbaycanın bir hissəsindən digər hissəsinə maneəsiz giriş əldə edək. Yeri gəlmişkən, bu, həm də Ermənistanın 2020-ci il noyabrın 10-da imza atdığı öhdəlik idi, lakin beş il ərzində heç bir irəliləyiş olmamışdı. Ərazidə heç bir iş aparılmırdı. Bu illər ərzində biz dəmir yolunu az qala Ermənistan sərhədinə çatdırmışıq. Təxminən bir ildən az vaxt lazımdır, sürətlə işləsək, bəlkə də altı aya onu tamamilə Ermənistan sərhədinə çatdırarıq. Eyni zamanda biz Naxçıvan Muxtar Respublikasında dəmir yolunun bərpasına başlayırıq. Deməli, bizə bu 40 kilometrlik dəmir yolu lazımdır ki, Azərbaycanın iki hissəsini birləşdirə bilək. Bu, təkcə dəmir yolu ilə bitmir. Biz elektrik ötürücü xətləri, fiber-optik xətlər, potensial olaraq Azərbaycanın və Xəzərin digər tayından qonşularımızın enerji resurslarını daşıya biləcək enerji infrastrukturları haqqında düşünürük".

Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında imzalanan sənədlər ölkəmizin niyyətlərini açıq şəkildə nümayiş etdirir. Sülh eyni zamanda əlaqələrin qurulmasını istədiyimizi göstərir. Biz ölkəmizin iki hissəsi arasında təhlükəsiz keçidlə inteqrasiyanı istəyirik. Bu da təkcə bizim üçün deyil, daha geniş region, eləcə də Ermənistanın özü üçün çoxlu imkanlar vəd edəcək.

"Mən Ermənistanın baş naziri ilə görüşlərin birində demişdim ki, Ermənistanın tranzit ölkə olmaq şansı yaranacaq. Dedim ki, siz tranzit ölkə olmağın mənasını bilmirsiniz. Siz tranzit ölkə deyilsiniz və yalnız Azərbaycan sayəsində tranzit ölkə ola bilərsiniz. Azərbaycansız tranzit ölkə olmaq mümkün deyil və siz tranzit ölkə olmağın üstünlüyünü görəcəksiniz", - deyə dövlətimizin başçısı vurğulamışdır.

Ermənistan uzun illər özünü bax bu imkanlardan məhrum etmişdir.

Azərbaycan isə daha güclü tranzit ölkə olmağa çalışır. Biz istəyirik ki, ərazimizdən keçən dəhlizlər daha çox yükdaşıma qabiliyyətinə malik olsun. Bu, pul gətirir, iş yerləri açır və siyasi imkanlar vəd edir. Prezident İlham Əliyev də məhz perspektivlərə böyük inam bəsləyərək demişdir: "Beləliklə, bu nəqliyyat marşrutu - qısaltması TRIPP kimi səslənən "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" daha bir tarixi nailiyyət olacaq. Amma yenə də, daha əvvəl qeyd etdiyim kimi, vaxt itirməməliyik. Biz bu işlərlə mümkün qədər tez məşğul olmalıyıq. Birləşmiş Ştatlar bu marşrutu idarə edəcək və ümidvaram ki, regiondakı bütün xalqların xeyrinə bu əlaqə xətlərini qurmaq üçün həmin mühüm vəzifələri öz üzərinə götürəcək investorlar tapılacaq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan-ABŞ əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir

**Avqustun 8-də Ağ Evdə keçirilən tarixi sülh sammitinin nəticələri yalnız Cənubi Qafqazda yox, geniş coğrafiyada yaratdığı dəyişikliklər baxımından vacib əhəmiyyət daşıyır. Təkcə Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə çoxsaylı ölkələrin bu marşrut xətti ilə geniş iqtisadi imkanlar qazanmasına mühüm şərait formalaşır. Eyni zamanda Qarabağda qazandığı zəfəri ilə dünyada bu tip münaqişələrə son qoymağın mükəmməl örnəyini ortaya qoyan Prezident İlham Əliyev Vaşinqtonda qazandığı diplomatik qələbəsi ilə sülhü bərqərar etməyin Azərbaycan modelini yaratdı.**



# Artıq iki tərəfin qəbul etdiyi sülh gündəliyi var

## Buna kölgə salmağa çalışanlar fəaliyyətlərini dayandırmalıdırlar

Bununla Cənubi Qafqazın lider ölkəsinin rəhbəri həm də ölkəmizin, xalqımızın onilliklərdir apardığı haqq mübarizəsinin məntiqi nəticəsi olan ədalətin bərpasını dünyaya nümayiş etdirdi və bu, beynəlxalq birlik tərəfindən təsdiqləndi.

### İflasa uğramış Minsk qrupunun kitabı birdəfəlik bağlanır

Üç onillik boyu davam edən mənasız sülh danışıqlarını bitirərək ərazilərini güc yolu ilə işğaldan qurtaran və bununla həm də BMT TŞ-nin məlum qətnamələrini özü icra edən Azərbaycan ərazi bütövlüyünü, suverenliyini tam təmin etdi. Bu sayədə Azərbaycanın diktə etdiyi şərtlər əsasında sülh müqaviləsinin imzalanmasına da çox az qaldı. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə sülh gündəliyinin nizamlanması, sülh müqaviləsinin mətninin paraflanması, iki ölkə arasında Vaşinqtonda Birgə Bəyannamənin imzalanması bölgədə davamlı sülhə gedən yolda mühüm mərhələ oldu.

Burada diqqətçəkən vacib məqamlardan biri də Azərbaycanın ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyətini de-fakto sonlandırmasıdır. Çünki qətiyyətli siyasəti ilə bölgədə barış üçün mühit formalaşdıran ölkəmiz, əslində, Minsk qrupunun yarıtmaz həmsədrlərinin görməli olduğu işi yerinə yetirmişdir.

Vətən müharibəsindən dərhal sonra Ermənistana təkmil sülh modeli təklif edən Azərbaycanın şərtlərindən biri də məhz bu ölü qurumun buraxılması üçün birgə müraciətin edilməsi idi. Ancaq Ermənistan xarici havadarlarının dəstəyindən ruhlanaraq müharibə eyforiyasına qapıldığı üçün bu şərtə əməl etməkdən yayınırdı.

Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistanın baş nazirinin iştirakı ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri "Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnini paraflayıblar.

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk Prosesi və əlaqəli strukturların (ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun) bağlanması ilə əlaqədar ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətindən sonra ATƏT Nazirlər Şurasının bağlanma ilə bağlı qərar layihəsi ATƏT iştirakçı dövlətləri arasında yayılıb və onlar qərarın qəbul edilməsi üçün lazımi prosedurları dəstəkləməyə çağırılıblar.

Bir sözlə, hüquqi olaraq buraxılmasının vaxtı çoxdan yetişən ATƏT-in Minsk qrupunun fəaliyyəti de-yure dayandırılır. Necə deyərlər, tam iflasa uğramış bu mənasız qrupun kitabı artıq bağlanır.

### Bölgədə Aİ missiyasının fəaliyyətinə heç bir lüzum yoxdur

Azərbaycanın bölgədə yaratdığı yeni reallıqların, sülh şəraitinin fonunda Avropa İttifaqının Ermənistandakı missiyasının yersiz fəaliyyəti də qabarıq şəkildə özünü büruzə verir.

Faktiki olaraq bölgədə nə müharibə var, nə də münaqişə. Azərbaycanın liderliyi ilə yürüdülən sülh prosesi çərçivəsində İrəvan və Bakı aralarındakı məsələ və problemləri masa arxasında çözürlər. İkitərəfli və üçtərəfli dialoqların aparılması, sərhədlərin delimitasiya və demarkasiyası prosesinə start verilməsi, sərhəd dirəklərinin quraşdırılması, Qazax rayonunun 4 kəndinin qaytarılması, nəhayət, Vaşinqtonda sülh müqaviləsinin mətninin paraflanması da bunun bariz nəticəsidir. Məlum olduğu kimi, Ermənistan konstitusiyasının preambula hissəsində Azərbaycana qarşı ərazi iddiaları var. İrəvan konstitusiyasında dəyişiklik etdikdən sonra yekun sülh müqaviləsi istənilən tarixdə imzalana bilər.

Bütün bunlar da göstərir ki, Avropa İttifaqının Ermənistandakı missiyasının sərhədlərimizdə fəaliyyətinə heç bir ehtiyac yoxdur. İflasa uğramış sözügedən missiyanın lüzumsuzluğu aydın şəkildə görünür. Hər kəsə bəllidir ki, bu missiya Azərbaycana qarşı riyakar mövqedə dayanan Fransa Prezidenti Emmanuel Makronun mənfur layihəsi idi. Burada Aİ-nin, Qərbin Ermənistanda hərbi mövcudluğunu təşkil etmək, kəşfiyyat işləri aparmaq, Ermənistanla Azərbaycan arasında münasibətləri gərginləşdirmək kimi çirkin məqsədlər güdülürdü.

Aİ-nin qondarma müşahidə missiyasının müddətinin uzadılması, hərbiləşdirilməsi planları da Cənubi Qafqazda müharibə niyyətlərinin gerçəkləşdirilməsinə xidmət edirdi.

Bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev də məhz bu məsələyə xüsusi vurğu etdi ki, Avropa İttifaqının qondarma müşahidə missiyasının müddətinin uzadılması etimadı möhkəmləndirmədi, əksinə, sarsıtdı: "Axı, bunun bizimlə razılaşdırılmasını tələb etdikdə, hansısa yüksək ambisiyalardan çıxış etmirdik, sadəcə istəyirdik ki, bu missiyanın özünün yaradılması və onun sərhədimizə göndərilməsi bizimlə, 2022-ci ilin oktyabrında Praqada şəxsən mənimlə razılaşdırılsın".

Dövlətimizin başçısı əlavə etmişdi ki, əgər həmin vaxt biz bunun iki aylığına və 40 nəfərdən ibarət olacağı barədə razılığa gəldiksə, deməli, bu, belə də olmalı idi: "Mən razılığa gəldikdə, hətta sözdə də olsa, həmişə bu razılaşmalara əməl edirəm. Amma belə bir vəziyyətdə Avropada hesab etdilər ki, onlar həmin razılaşmaları pozmaq hüququna malikdirlər. Sonra heç nə bildirmədən, bizimlə heç bir razılıq olmadan onlar nəinki bu missiyanın müddətini uzatdılar, sayını artırdılar, həm də Avropa İttifaqının üzvü olmayan ölkəni dəvət edərək mahiyyətcə etimadı qırdılar".

Qeyd edək ki, Kanada sözügedən missiyaya qoşulan ilk qeyri-Avropa ölkəsi oldu.

2022-ci ilin dekabrından, əslində, qısa müddətlik zaman ərzində fəaliyyət üçün işə başlayan bu missiya Azərbaycanın razılığı olmadan hazırda da varlığını sürdürür. Ötən müddətdə Aİ missiyası bölgədə suları bulandırmaqla, "binokl" şousu həyata keçirməklə sülhə töhfə vermək yox, ona mane olmaq missiyasını yerinə yetirib.

Bakı ilk gündən bu missiyanın varlığına heç bir lüzum olmadığını qətiyyətlə bildirib. Paraflanmış sülh sazişinin VII maddəsində də deyilir ki, tərəflər qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Buna görə də Aİ missiyası dərhal fəaliyyətini dayandırmalıdır.

Buna görə də Ermənistan üzərindən sərhədlərimizə məqsədyönlü şəkildə hərbi güc kimi yerləşdirilmiş Aİ missiyasının fəaliyyətinə xitam verilməsi üçün İrəvan dərhal lazımi addımlar atmalıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# ABŞ ilə münasibətlərin qurulması milli maraqlar üçün çox önəmlidir

**Avqustun 8-də Prezident İlham Əliyevin ABŞ Prezidenti tərəfindən rəsmi dəvətlə həyata keçirdiyi Vaşinqton səfəri, Azərbaycan ilə ABŞ arasında əlaqələrin dərinləşməsi baxımından mühüm siyasi addım olmaqla yanaşı, Cənubi Qafqaz regionu üçün də strateji əhəmiyyət kəsb edən hadisə kimi yadda qaldı. Səfər zamanı imzalanan sənədlər və qəbul edilən qərarlar isə bölgədə davamlı sülhə, təhlükəsizliyə və qarşılıqlı etimada əsaslanan yeni mərhələyə yol açdı.**

Milli Məclisin deputatı Kamran Bayramov qeyd edib ki, bu səfər, Azərbaycan-ABŞ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və regionda sülhün təmin olunması istiqamətində əhəmiyyətli addımların atıldığını göstərir: "Vaşinqtonda keçirilən görüşlər zamanı Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Birgə Bəyannamə imzalanıb. Bu sənəd Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması istiqamətində mühüm bir addımdır. Həmçinin ATƏT-in Minsk qrupu və onun əlaqəli strukturlarının bağlanması ilə bağlı birgə müraciət imzalanıb. Bu, uzun illərdir davam edən vasitəçilik mexanizminin rəsmi olaraq sona çatdığını göstərir".



Deputat bildirib ki, Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp ilə görüşü də xüsusi əhəmiyyət kəsb edir. Bu görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın inkişaf etdirilməsi və regional sabitliyin təmin olunması məsələləri müzakirə olunub. Vaşinqton səfəri həmçinin Azərbaycanın beynəlxalq nüfuzunun artmasına və regionda sülhün təmin olunmasına yönəlmiş diplomatik səylərinin göstəricisidir. Bu səfər Azərbaycanın xarici siyasətində yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə verdiyi açıqlamada bir daha Azərbaycanla Ermənistan arasında baş verən proseslərin Cənubi Qafqazda sülh, sabitlik və rifah arzulayan hər kəs, eləcə də bütövlükdə region üçün böyük önəm daşıdığını vurğulayıb: "Dövlət başçısı Vaşinqtonda Azərbaycan mediasına verdiyi müsahibədə ABŞ səfərinin nəticələrini yüksək qiymətləndirərək bildirdi ki, Prezident Trampın dəvəti ilə ABŞ-yə edilən bu səfər Azərbaycan-Amerika münasibətlərində yeni mərhələnin - əməkdaşlıq və strateji tərəfdaşlıq dövrünün başlanğıcıdır: "Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir"".

Deputat xatırladıb ki, artıq iki ölkə arasında "Strateji Tərəfdaşlıq Xartiyası"nın hazırlanması məqsədilə xüsusi Strateji İşçi Qrupu yaradılıb və bu sənədin əhatə etdiyi istiqamətlər qarşıdakı əməkdaşlıq imkanlarını geniş şəkildə ortaya qoyur. Buraya qarşılıqlı sərmayə yatırımı, enerji təhlükəsizliyi, nəqliyyat və tranzit, əlaqələndirmə, süni intellekt, müdafiə sənayesi və təhlükəsizlik sahələri daxildir. Təkcə bu sahələrin sadalanması belə göstərir ki, Azərbaycanın beynəlxalq mövqeyi güclənir, qarşısında isə yeni imkanlar açılır.

K.Bayramov əlavə edib ki, Prezident İlham Əliyevin ABŞ-yə səfəri zamanı nümayiş etdirdiyi siyasi uzaqgörənlik, möhkəm dövlətçilik iradəsi və peşəkar diplomatik yanaşma təkcə çağdaş liderlik nümunəsi deyil, həm də uzun illər ərzində ölkəmizə qarşı yönəlmiş qərəzli yanaşmaların iflasa uğradığını göstərən tarixi məqam oldu. Vaşinqtonda imzalanan Birgə Bəyannamə Azərbaycanın milli maraqlarını tam əks etdirməklə, onun ərazi bütövlüyünü və suveren hüquqlarını qəti şəkildə tanıdı. Bu isə Prezident İlham Əliyevin beynəlxalq arenada qazandığı yüksək etimadın, prinsipial və ardıcıl siyasətinin növbəti mühüm diplomatik nəticəsi kimi dəyərləndirilə bilər. "Göründüyü kimi, Vaşinqton görüşü Azərbaycanın gələcək geosiyasi mövqeyinin möhkəmlənməsi baxımından çox mühüm strateji əhəmiyyət daşıyır. Bu səfər təkcə ikitərəfli münasibətlərin inkişafı deyil, həm də regionda güc balansının Azərbaycanın lehinə dəyişdiyini göstərdi. Siyasi proseslərə fəal şəkildə təsir edən bir ölkə olaraq Azərbaycan artıq yalnız regional deyil, qlobal səviyyədə də söz sahibi olduğunu sübut edir. Bu reallıq dövlətin uzunmüddətli hədəflərinə doğru inamla irəlilədiyini və milli maraqların beynəlxalq müstəvidə qətiyyətlə təmin olunduğunu nümayiş etdirir", - deyə deputat bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə

## Vaşinqton görüşü iki ölkə arasında əlaqələrin inkişafına təkan verəcək

**Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən sonra ABŞ-də hakimiyyətə gələn Co Bayden riyakar, Ermənistana əsaslanan siyasəti ilə ölkəmizlə münasibətləri korlayaraq, prezidentliyi dövründə İrəvana hər cür dəstək göstərməyə çalışıb. Bununla da Azərbaycan-ABŞ münasibətləri dərin böhran dövrünü yaşayıb.**

Donald Tramp hakimiyyətə gələndən sonra isə iki ölkə arasında əvvəlki münasibətlər bərpa olunmağa başlamışdır. Azərbaycan-ABŞ münasibətlərinin yeni səhifəsi isə, təbii ki, avqustun 8-də Ağ Ev rəhbəri Donald Tramp və Azərbaycan Prezidenti İlham Əliyev arasında keçirilən ikitərəfli görüşdən başlayır. Donald Trampın dəvəti ilə Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri tarixi əhəmiyyət daşımaqla, iki ölkə arasında əlaqələrin inkişafına təkan verdi, münasibətləri yeni səviyyəyə yüksəltdi. Bu baxımdan səfər çərçivəsində iki ölkə arasında imzalanan sənədlər böyük əhəmiyyətə malikdir.

Xüsusilə Azərbaycan və ABŞ münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə qaldıracaq iki ölkə lideri tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" tarixi əhəmiyyət daşıyır. Memorandum qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının növbəti 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılmasını nəzərdə tutur. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla, regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır.

Vaşinqtonda ikitərəfli və üçtərəfli görüşlərdən sonra Azərbaycanın media nümayəndələrinə müsahibəsində Prezident İlham Əliyev bu memorandumu yüksək qiymətləndirərək, sənədin böyük əhəmiyyəti olduğunu bildirib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan tərəfini təmsil edəcək tərkib artıq müəyyən olunub: "Biz öz təkliflərimizi irəli sürəcəyik. Artıq mənim səfərim çərçivəsində Amerikanın bir neçə aparıcı şirkəti ilə görüşlər keçirilmişdir. Yəni biz vaxt itirmək istəmirik. Onsuz da əvvəlki administrasiya dövründəki dörd ili mən itirilmiş illər kimi qiymətləndirirəm. Çünki əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi".

Bu sənəd iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıqları genişləndirməklə, ABŞ investorlarının Azərbaycanda yeni sahələrə sərmayə yatırmalarına imkan yaradacaq. Bu da Azərbaycana xarici valyutanın gəlməsi ilə yanaşı, amerikalı sərmayədarlara yeni imkanlar açacaq. Bu barədə danışan ABŞ Dövlət Departamentinin sözçüsü Temmi Bryus da ABŞ-nin imzaladığı ikitərəfli iqtisadi sazişlərin Amerika şirkətləri üçün yeni imkanlar açdığını bildirib.

Ağ Evdə imzalanan, ədalətsizliyə son qoyan, tarixi əhəmiyyətə malik, iki ölkə münasibətlərinin müsbət istiqamətdə inkişafına təkan verən digər sənəd isə "Azadlığa Dəstək Akt"ına 907-ci düzəlişin ləğv olunmasıdır. 1992-ci ildə ABŞ Konqresi tərəfindən "Azadlığı müdafiə aktı"na əlavə edilən və ölkəmizə ABŞ-nin birbaşa dövlət yardımını qadağan edən qanunvericilik aktı 2001-ci ildə 11 sentyabr hadisələrindən sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədilə Konqres tərəfindən prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verildiyi üçün hər il Ağ Ev rəhbərləri tərəfindən onun tətbiqi dayandırılırdı. 2023-cü ildə qəbul edilən "Ermənistanı müdafiə aktı" çərçivəsində isə Co Baydenin hakimiyyətinə təsadüf edən 2024-2025-ci illərdə ABŞ Prezidentinin bu aktın tətbiqini dayandırmaq səlahiyyəti də ləğv edildi. Bu da təbii ki, Bayden administrasiyanın Azərbaycana qarşı məkrli, qərəzli, ermənipərəst siyasətindən qaynaqlanırdı.

Prezident İlham Əliyevin Donald Trampla ilk görüşündə ABŞ Prezidenti tərəfindən 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncam imzalandı. Azərbaycan-ABŞ münasibətlərinə kölgə salan lazımsız düzəlişi Donald Trampın Prezident İlham Əliyevlə görüşü çərçivəsində ləğv etməsi isə əhəmiyyətli rəmzi məna daşıyır. Azərbaycana qarşı tarixi ədalətsizliyin aradan qaldırılmasına, eyni zamanda iki ölkə arasında əlaqələrin təmiz, ağ səhifədən başlamasına imkan verdi.

907-ci düzəlişin tətbiqindən danışan dövlətimizin başçısı da onun ləğvini tarixi hadisə adlandırıb. Ölkə rəhbəri qeyd edib ki, 2001-ci ildə bu sanksiyalar dayandırılıb, çünki ABŞ Hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı var idi: "Biz isə çox vacib nəqliyyat yollarını, "Şimal Paylayıcı Şəbəkə" adlanan əlaqəni təmin etdik. Bu, təkcə hava uçuşları deyil, həm də quru və dəniz nəqliyyatını əhatə edirdi. Sonra hər il Amerika prezidentləri bu düzəlişin qüvvəsini dayandırırdılar, 2023-cü ilə qədər".

Prezident İlham Əliyev 2023-cü ildə bu düzəlişin dayandırılmadığını və Azərbaycana qarşı sanksiyaların yenidən qüvvəyə mindiyini də diqqətə çatdırdı. Dövlət başçısının da qeyd etdiyi kimi, bu, Azərbaycana mənfi münasibətin və nankorluğun zirvəsi idi.

Səfər çərçivəsində dövlətmizin başçısının və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum" da imzalanıb. Bu sənəd isə şirkətlər arasında mövcud olan müsbət əlaqələri möhkəmləndirməklə, Azərbaycanda həm qeyri-ənənəvi, həm də ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi istiqamətində potensial əməkdaşlıq sahələrini ehtiva edir.

Ümumilikdə Donald Trampın hakimiyyətə gəlməsindən sonra Azərbaycan və ABŞ münasibətlərinin inkişafı müsbət dinamikaya qayıdıb. ABŞ liderinin öz sosial media hesabında Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı çıxışından paylaşımlar etməsi, eyni zamanda Ağ Evin rəmzi açarını İlham Əliyevə təqdim etməsi və bunu nadir hallarda etdiyini deməsi prezidentlər arasında dostluq münasibətlərindən xəbər verir. Prezident İlham Əliyev də Trampın altı ay ərzində Afrikada, Asiyada və Cənubi Qafqazda qeyri-mümkün görünən işlər gördüyünü bildirərək Ağ Ev rəhbərinin sülh gətirdiyini və ortaya nəzərəçarpan nəticələr qoyduğunu vurğulayıb.

Beləliklə, səmimi və dostluq şəraitində keçən tarixi görüşün nəticələri, əldə olunan razılaşmalar, ölkə liderlərinin münasibətləri Azərbaycan və ABŞ arasında yeni səhifə açmaqla dövlətlərarası əlaqələrə müsbət təsir göstərəcək, müxtəlif sahələrdə əməkdaşlıqların genişləndirilməsinə, münasibətlərin müsbət məcrada inkişafına təkan verəcək.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

● 14 avqust Pakistanın Müstəqillik Günüdür!

**XX əsrin ortalarında dünyanın siyasi xəritəsində mühüm dəyişiklik baş verdi. Uzun zaman Böyük Britaniyanın müstəmləkəsi olmuş Hindistanın iki hissəyə bölünməsi nəticəsində müstəqil Pakistan dövləti yarandı. Bu hadisə həm də islam dünyasının tarixində mühüm bir mərhələnin başlanğıcı oldu. Eyni zamanda 1947-ci ildə müstəqillik əldə edəndən sonra Hindistanın BMT qətnamələrini qulaqardına vurması nəticəsində Kəşmir üstündə münaqişə yarandı və sonralar dəfələrlə iki ölkə arasında qanlı müharibələrə gətirib çıxardı. 1999-cu ildən sonra tərəflərin nüvə silahına malik olması onların arasında baş verən qarşıdurmanı artıq Cənubi Asiya regionu üçün deyil, bütövlükdə dünyanı təhdid edən bir təhlükəyə çevirdi.**



# Azərbaycan-Pakistan strateji tərəfdaşlığı güclənir

Pakistan adı yaradılması nəzərdə tutulmuş bu ölkəyə hələ 1933-cü ildə qoyulub və mənası "paklar diyarı", "pak insanlar ölkəsi" anlamındadır. Bu dövlətin qurulmasında misilsiz xidmətləri olan, öz şüurlu həyatını onun yaradılmasına həsr etmiş böyük rəhbər Məhəmməd Əli Cinna o zaman ağır xəstə idi. Ona özünün şah əsəri olan müstəqil Pakistanı yalnız bir il görmək qismət oldu.

İslam dünyasının yeganə nüvə dövləti olan Pakistanın əhalisi 2025-ci ildə 255,3 milyon nəfərə çatmışdır. Hazırda əhalisinin sayına görə dünyada 5-ci yeri tutur. Böyük insan resurslarına malik olan Pakistan iqtisadiyyatında bu il sabitləşmə əlamətləri müşahidə olunur. Cari maliyyə ilində ümumi daxili məhsulun 2,7 faiz artacağı, xidmət sektorunda da artımın olacağı proqnozlaşdırılır. Bununla belə, iqtisadi artıma mənfi təsir göstərə biləcək regional qeyri-sabitliklə bağlı narahatlıqlar da mövcuddur.

Çətin qlobal iqtisadi vəziyyətə baxmayaraq, Pakistan iqtisadiyyatında 2025-ci ilin iyununda başa çatan maliyyə ilində ümumi daxili məhsulda 2,7 faiz artım qeydə alınıb. İnflyasiya durmadan azalır, səhmdarların inamı artır və əsas iqtisadi göstəricilər yaxşılaşır.

Pakistan bu il orta səviyyədən yuxarı gəlirli ölkəyə çevrilmişdir və onun 2047-ci ilə qədər (ölkənin yüzilliyi) dünyanın ən yaxşı 10 iqtisadiyyatı sırasına daxil olması gözlənilir.

Pakistan iqtisadiyyatı 2025-ci maliyyə ilində ilk dəfə olaraq nominal ümumi daxili məhsulu 411 milyard dollar olmaqla əhəmiyyətli bir mərhələyə çatdı. Pakistan islahatlar və sabitlik ilə dəstəklənən 2035-ci maliyyə ilinə qədər 1 trilyon dollar ümumi daxili məhsul əldə etməyi hədəfləyir. Təsadüfi deyil ki, Pakistanın Baş naziri Şahbaz Şərif demişdir ki, "Cəsarətli islahatlar, balanslaşdırılmış siyasət və xalqımızın dözümlülüyü sayəsində Pakistan iqtisadiyyatı davamlı inkişaf yolundadır".

Kənd təsərrüfatı ölkənin mühüm iqtisadiyyat sahəsidir və ixracın 75 faizi bu sahədə formalaşır. Əsas ixrac məhsulları kimi buğda, şəkər çuğunduru, pambıq, düyü, meyvə və tərəvəz, çay, ədviyyat və digər ərzaq məhsulları daha çox paya malikdir. Hazırda o, çəltiyin ən böyük istehsalçılarından biridir.

Pakistan iqlim dəyişikliyinə həssaslıq baxımından dünyada beşinci ölkədir, fəlakət riskinə görə isə 194 ölkə arasında 23-cü yerdədir. 2030-cu ilə qədər iqlim dəyişikliyinin təsirləri ilə mübarizə aparmaq məqsədilə Pakistanın müxtəlif sektorlarına təxminən 350 milyard dollar sərmayə qoyulmalıdır.

Son zamanlar Pakistan texnoloji suverenliyə can atır, lakin bu ambisiyalar obyektiv iqtisadi və siyasi reallıqlar və əsas suvarma çaylarının mənbələrinə nəzarət edən Hindistanla uzun sürən münaqişə ilə toqquşur.

Pakistan yüngül sənayesi dünya bazarına toxuculuq məmulatları, paltarlar, dəri məmulatları, elektronika və məişət texnikası, tibbi avadanlıqlar və dərmanlar ixrac edir.

Hazırda Bəlucistan, Sind və Pəncab əyalətlərində 7 təbii qaz və neft yatağı istismar olunur. Pakistan rəqəmsal texnologiyaları fəal surətdə mənimsəyir. Son illər burada kriptovalyutalara və süni intellektə marağın artması müşahidə olunmaqdadır. Xüsusilə Karaçi və Lahor kimi böyük şəhərlərdə gənclər kompüter imkanlarından daha çox istifadə edir və ticarətdə iştirak edirlər. Əhalinin 45,7 faizi internetə sabit qoşula bilir. Ölkə texnologiyadan uzaq durmur, amma onun təbiətə zərərini minimuma endirməyə çalışır.

Pakistan 2025-26-cı maliyyə ili üçün 62,4 milyard dollarlıq ümumi federal büdcə elan edib, müdafiə xərcləri əvvəlki ilə nisbətən 20 faiz artaraq 9 milyard dollar təşkil etmişdir.

Pakistan islam dünyasının nüfuzlu və böyük dövlətlərindən biri kimi Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 12-də ilk tanıyanlardan biri olub. Diplomatik əlaqələr isə 9 iyun 1992-ci il tarixdə qurulub. O vaxtdan başlayaraq bu münasibətlər siyasi, iqtisadi, hərbi, mədəni-humanitar və digər sahələrdə, o cümlədən parlamentlər səviyyəsində inkişaf edərək daha da dərinləşmiş və möhkəmlənmişdir. Bunda dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri mühüm rol oynamışdır. Hələ 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin Kasablankada Pakistanın sabiq Baş naziri Benazir Bhutto ilə görüşündən sonra Azərbaycan-Pakistan münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin 2025-ci ilin fevralında Azərbaycana səfəri çərçivəsində təşkil olunan Pakistan-Azərbaycan biznes-forumu iki ölkə arasında ticarət dövriyyəsinin artmasına və qarşılıqlı investisiyaların güclənməsinə töhfə verdi. Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci il fevralın 24-ü Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə mətbuata verdiyi birgə bəyanatında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulamışdı. Bu dost ölkənin baş naziri dəfələrlə ölkəmizə səfərləri zamanı Xankəndi və Şuşaya da getmiş və birgə strateji tərəfdaşlığa dair bəyanatlarla çıxış etmişdir.

İkitərəfli münasibətlər Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlığı formatında da inkişaf edir. Pakistan hökuməti hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmiş, ölkəmiz üçün ən çətin anlarda onun yanında olmuşdur. Zəfərlə bitən 44 günlük Vətən müharibəsi buna bariz nümunədir. Hər iki ölkə bir sıra beynəlxalq qurumlar çərçivəsində də daim bir-birinin mövqeyini dəstəkləmişdir. Ölkələrimiz İslam Əməkdaşlıq Təşkilatı və D-8 çərçivəsində iqtisadi əlaqələri daha da genişləndirmək niyyətindədir.

Azərbaycan ilə Pakistan arasında ticarət-iqtisadi əlaqələr həmçinin strateji xarakter daşıyır və hər iki ölkənin hökumətləri bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün ciddi səylər göstərirlər. 2024-cü ildə qarşılıqlı ticarət dövriyyəsi 22,5 faiz artaraq 22 milyon dollara çatıb ki, bu da əvvəlki illə müqayisədə 4,9 milyon dollar çoxdur. Azərbaycanın Pakistandan idxalı 8,6 faiz artaraq 21,8 milyon dollar təşkil edib. Bu ilin yanvar-aprel aylarında iki ölkə arasında ticarət əməliyyatlarının həcmi təxminən 11 milyon dollar təşkil edib.

2024-cü il iyulun 11-də İslamabadda Azərbaycan və Pakistan hökumətləri arasında imzalanmış güzəştli ticarət haqqında saziş oktyabr ayında təsdiq edilib. Tərəflər yaxın bir neçə il ərzində Pakistan və Azərbaycan arasında qarşılıqlı ticarət dövriyyəsinin həcmini ildə ən azı 1 milyard dollara çatdırmaq əzmində olduqlarını bildiriblər. Azərbaycan və Pakistan arasında imzalanmış güzəştli ticarət sazişi ticarət üçün yeni imkanlar açıb.

Pakistan və Azərbaycan sahibkarları arasında əməkdaşlığın gücləndirilməsi, investisiya mühitinin yaxşılaşdırılması və qarşılıqlı investisiyaların artırılması məqsədilə müntəzəm olaraq danışıqlar aparılır. Təsadüfi deyil ki, 2024-cü ilin sentyabrında keçirilən biznes-forumunda hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, əczaçılıq, tekstil, sənaye və digər sahələrdə fəaliyyət göstərən 90-a yaxın sahibkar iştirak ediblər.

Cari il iyulun 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən 17-ci Zirvə görüşü çərçivəsində imzalanan investisiya sazişinə əsasən, Azərbaycan tərəfi Pakistan iqtisadiyyatının inkişaf etdirilməsinə 2 milyard dollar yatırım qoyacaq. Bu saziş Bakı ilə İslamabad arasında ticarət və investisiya əlaqələrini tarixən yüksək səviyyəyə çatdırır. Bu, həm də qardaşlıq əlaqələrinin və iqtisadi tərəfdaşlığın daha da möhkəmlənməsinə zəmanət verir.

Həmçinin Bakı və İslamabad arasında investisiyalar üzrə Anlaşma Memorandumu imzalanıb. Azərbaycan və Pakistan qarşılıqlı investisiyaları təşviq etmək barədə razılığa gəliblər. Əsas investisiya sahələrinə neft və qaz kəşfiyyatı, bərpaolunan enerjinin inkişafı və enerji səmərəliliyi daxildir. Bu ilin iyul ayında Azərbaycanın iqtisadiyyat nazirliyi ilə Pakistanın federal rabitə nazirliyi arasında İslamabadda keçirilən görüşdə tərəflər regional əməkdaşlığın möhkəmləndirilməsinin tərəfdarı olduqlarını bildirmişlər.

Həmçinin 2025-ci ilin yanvarında Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirliyi ilə Pakistanın özəlləşdirmə üzrə federal nazirliyi arasında Azərbaycan tərəfinin Pakistanın əsas yol layihələrinə, o cümlədən M6 və M9 magistrallarına mümkün investisiyaları barədə danışıqlar aparılıb. Bu layihələr Pakistan, Azərbaycan və Mərkəzi Asiya respublikaları arasında ticarət əlaqələrinin yaxşılaşdırılmasına xidmət edəcək.

2025-ci ilin fevralında SOCAR-ın nümayəndə heyətilə Pakistanın özəlləşdirmə nazirliyinin nümayəndəliyi arasında enerji tərəfdaşlığının daha da genişləndirilməsini müzakirə etmək üçün görüş keçirilib.

Hazırda Azərbaycanda Pakistanın 3600 şirkəti qeydiyyatdan keçib. Bu şirkətlər əsasən kənd təsərrüfatı, sənaye, tikinti, nəqliyyat, ticarət və həmçinin xidmət sahələrində fəaliyyət göstərirlər.

Enerji sahəsində əməkdaşlıq da prioritet istiqamətlərdən biri sayılır. 2024-cü ilin dekabrında Pakistan Dövlət Neft Şirkəti (PSO) Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Pakistanın enerji mənbələrinin şaxələndirilməsinə kömək edəcək neft məhsullarının tədarükünə dair saziş imzalayıb.

Bu gün qardaş Pakistanın silahlı qüvvələri dünyada sayına görə 6-cı yerdədir. Pakistan hərbi texnologiyaları və kadr hazırlığı sahəsində Azərbaycana mühüm dəstək göstərir. Son illər Azərbaycan Pakistanda istehsal olunan müasir hərbi texnikaya, xüsusilə aviasiya sahəsindəki yeniliklərə xüsusi maraq göstərir. Bu əməkdaşlığın ən son və mühüm nailiyyətlərindən biri Azərbaycanın ötən il Pakistandan JF-17C çoxməqsədli qırıcı təyyarələri alması oldu. Hərbi sahədə Pakistanla Azərbaycan arasında müttəfiqlik gələcəyə istiqamətlənmiş strateji tərəfdaşlıq kimi qiymətləndirilir.

Azərbaycan və Pakistan arasında əlaqələr dərin tarixi və mədəni tellərlə bir-birinə sıx bağlıdır. İki xalqı ortaq islami dəyərlər, tarix və ənənələr sıx birləşdirir. Qarşılıqlı münasibətlərin inkişafında mədəniyyət və təhsil sahəsində əlaqələrin xüsusi yeri vardır. Son illər tələbə və müəllimlərin mübadiləsi, həyata keçirilən humanitar layihələr böyük əhəmiyyət kəsb edir.

Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra Bakı Dövlət Universitetinin Asiya və Afrika ölkələri tarixi kafedrasının müəllimləri Tarix və Şərqşünaslıq fakültələrində "Pakistan tarixi", "Pakistanın siyasi sistemi" və "Pakistanın xarici siyasəti" fənlərini tədris edirlər. Təhsilin magistr və doktorant pillələri üzrə Pakistan tarixinə dair dissertasiya mövzuları, elmi-tədqiqat işləri uğurla müdafiə olunur. Pakistan tarixinə dair dərslik, dərs vəsaitləri, monoqrafiyalar nəşr edilmişdir. Eyni zamanda Şərqşünaslıq fakültəsində urdu dili və ədəbiyyatı fənləri tədris olunur və urdu dili dərsliyi çap olunmuşdur.

Hər iki ölkədə mədəniyyət günlərinin və həftələrinin keçirilməsi, müxtəlif təyinatlı sərgilərin, yarmarkaların təşkili də qarşılıqlı mədəni əlaqələrin inkişafında mühüm rol oynayır. Son zamanlar iki ölkə arasında turizm sahəsində əlaqələr də güclənir. Bu sahədə 2024-cü ilin oktyabrında təsdiq edilmiş Azərbaycan və Pakistan hökumətləri arasında hava əlaqəsi haqqında saziş mühüm rol oynayır.

Azərbaycan və Pakistan xalqlarını azadlıqsevərlik, qonaqpərvərlik, humanizm və sairə kimi bir çox müsbət dəyərlər birləşdirir. Hər iki qardaş ölkənin həyata keçirdiyi məqsədyönlü sülhsevər siyasət yaxın gələcəkdə Avrasiya arealında mühüm iqtisadi dəhlizin formalaşmasına təkan verəcək. Bu dəhliz iqtisadi tərəqqiyə geniş yol açacaq. Azərbaycan Cənubi Qafqazda, Pakistan isə Cənubi Asiyada söz sahibidir, dünya siyasətində də özlərinə məxsus rol oynayırlar.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*

● 2025-ci il Konstitusiya və Suverenlik İlidir

# Hüquqi islahatların təməli, milli həmrəyliyin rəmzi




**Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu müstəqil dövlətçiliyin möhkəmləndirilməsi yolunda xüsusi əhəmiyyət kəsb edən tarixi bir mərhələdir. Konstitusiyanın qəbulu Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu sahəsində ən dəyərli xidmətlərindən biridir. Bu baxımdan Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncamına əsasən, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi, hüquqi dövlət quruculuğu prosesinin daha da inkişaf etdirilməsi, suverenliyin möhkəmləndirilməsi istiqamətində atılan addımların davamı kimi mühüm əhəmiyyət daşıyır.**



1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi bərpa etdi, müasir dövlət quruculuğu üçün möhkəm əsas yaratdı. Ulu Öndərin qayıdışı həmçinin xalqımız üçün dönüş nöqtəsi oldu, uzaqgörən siyasəti milli müstəqilliyin qorunmasına, hüquqi dövlətin əsaslarının yaradılmasına və dövlət institutlarının möhkəmləndirilməsinə zəmin yaratdı. Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını qoydu. Bu hadisə dövlətçiliyimizin inkişafında tarixi mərhələ idi. Ulu Öndər qeyd edirdi: "...Mən bugünkü günü tarixi bir gün sayıram. Çünki Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının bütün tarixi ərzində ilk dəfə olaraq öz məsələlərimizi müstəqil, suveren şəkildə həll etmək imkanına malikik və bu zəmin əsasında müstəqil və suveren Azərbaycanın Konstitusiyasının layihəsini hazırlaya bilmişik".

Heydər Əliyevin də qeyd etdiyi kimi, Konstitusiya vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, dünya dövlətləri ilə sülh və əməkdaşlıq münasibətlərinin qurulması kimi ali məqsədlərin reallaşdırılması üçün əsas hüquqi baza rolunu oynayır. Əsas Qanunun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ümummilli Liderin 1996-cı il 1 noyabr tarixli fərmanına əsasən, hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başladı. Bu gün Konstitusiyamız dövlətçilik ənənələrinin təntənəsi, hüquqi islahatların təməli və milli həmrəyliyin rəmzidir. Konstitusiyamızın müddəaları sırasında dövlətin ərazi bütövlüyünün qorunması xüsusi yer tutur.

Heç şübhəsiz ki, Azərbaycan Respublikasının Konstitusiyası əsas hüquqi sənəd kimi, dövlətin sosial-iqtisadi inkişaf strategiyasının ideoloji və elmi təməlini təşkil edir. Bu sənədin mahiyyəti hüquqların qorunması, ölkənin idarə olunmasında və iqtisadi qərarların qəbulunda konseptual və istiqamətverici rol oynayır. Dövlətin iqtisadi siyasəti, sosial təminat mexanizmləri və struktur islahatları Konstitusiyada təsbit olunan prinsiplərə əsaslanaraq formalaşdırılır. Eyni zamanda qəbul edilən qərarların ideoloji əsası milli dövlətçilik ideyalarına, ədalət və bərabərlik prinsiplərinə söykənir. Bu ideoloji baza həm hüquqi, həm də iqtisadi müstəvidə uzunmüddətli inkişafın təmin olunmasında mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "...Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir". Bu qələbə suverenliyin təmin edilməsinin, hüquqi prinsiplərin reallıqda həyata keçirilməsinin bariz nümunəsidir.

Bu gün işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən quruculuq prosesi sürətlə davam edir. Vətəndaşlarımızın doğma torpaqlarına qayıdışı ilə onların sosial, iqtisadi və mədəni hüquqları yenidən təmin olunur. Prezident İlham Əliyev tərəfindən tətbiq olunan yeni dövlət idarəçiliyi texnologiyaları, innovasiyalara uyğun formalaşdırılan sistem Azərbaycan Respublikasının sosial siyasətinin reallaşdırılması və insanların rifahının təmin olunması naminə iqtisadi imkanlardan səmərəli istifadə sahəsində ölkəmiz regional lider, qlobal aktora çevrilib.

Təbii ki, qazanılan bu və digər tərəqqiyə yol açan uğurların əsasında Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş və Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla təkmilləşdirilən və yeni səviyyəyə qaldırılan inkişaf strategiyası durur.

Azərbaycan özünün mühüm rolunu və nüfuzunu 44 gündə əldə etdiyi Zəfərlə təsdiqlədi. Ölkəmizin tarixinin inkişaf, rifah və zəfər dövrü Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlət başçısının liderlik keyfiyyətləri, səmərəli dövlət idarəçiliyi sahəsində zəngin təcrübəsi bütün uğurların danılmaz əsasıdır.

Əldə edilən nailiyyətlər və qazanılan zəfərlər Azərbaycan dövlətinin və onun vətəndaşının rifahına hesablanıb. Qələbələrə aparan mübarizə yolu zəfərlə tamamlandı və sülhlə yekunlaşdı. Həm müharibəni, həm də sülhü qazandıq. Qazanılan qələbə ölkənin milli inkişafının keyfiyyətcə yeni mərhələsi üçün əsas yaratdı.

Prezident İlham Əliyevin yürütdüyü siyasi kursun prioriteti Azərbaycanın dünya dövlətləri arasında rəqabətədavamlı, effektiv və sabit inkişaf sahəsində layiqli yer tutmağı, keyfiyyətə əsaslanan iqtisadi yüksəlişə nail olmağı və vətəndaşlar üçün yüksək həyat standartları təmin etməsidir. Bu hədəfə çatmaq üçün əsaslı institusional tədbirlər görülüb və ilk növbədə cəmiyyətin inkişafı insan potensialına və intellektə əsaslanıb. Prezident İlham Əliyev dövlətin idarəetmə sistemini müasir standartlara uyğun çalışmağa istiqamətləndirməklə yanaşı, yeni məzmun dəyişikliyi mədəniyyətinin əsasını qoyub. Dövlət başçısının həyata keçirdiyi idarəçilik strategiyasının təməlində də məhz elmi-intellektual insan potensialının formalaşması və milli dəyərlərin dəstəklənməsi dayanır.

"Konstitusiya və Suverenlik İli" milli həmrəylik və dövlətçilik ideyalarının güclənməsi üçün strateji əhəmiyyətə malikdir. İl ərzində həyata keçirilən layihələr və tədbirlər Azərbaycan dövlətinin müasir dövrdəki çağırışlara cavab verməsini təmin etmək, hüquqi dövlətin inkişafına, milli birliyə və sosial rifaha xidmət etmək məqsədi daşıyır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyası (AƏSMA) olaraq biz də "Konstitusiya və Suverenlik İli" çərçivəsində demokratik dəyərlərin təbliği və hüquqi maarifləndirmə istiqamətində tədbirlər həyata keçiririk. Bu məqsədlə tələbələr və gənclər üçün hüquqi biliklərin aşılanması, onların konstitusion hüquqları barədə məlumatlığının artırılması üçün müxtəlif seminarlar, açıq dərslər və müzakirələr təşkil edirik. Bu tədbirlər hüquqi dövlət quruculuğu prosesi, gənc nəslin vətəndaş məsuliyyətinin güclənməsi baxımından əhəmiyyətlidir.

Azərbaycanın uğurlarının təməlində, heç şübhəsiz, ölkədə reallaşdırılan innovativ iqtisadiyyatın formalaşmasına əsaslanaraq sosial sahədə inkişafın təmin olunması, əhalinin rifahına yönəlik iradə, strategiya və uğurlu idarəçilik dayanır.

Qalib ölkənin hər bir vətəndaşı üçün Konstitusiyaya hörmət etmək, qanunlara riayət etmək və müstəqilliyimizi qorumaq ali vəzifədir. Bu vəzifəni layiqincə yerinə yetirmək gələcək nəsillərə ötürəcəyimiz ən dəyərli mirasdır.

*Yusif AĞAYEV,*
*AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyasının rektor vəzifəsini icra edən, dosent*

# REGİONLAR

## Ağdam şəhərinin 3 yaşayış məhəlləsində inşaat işləri davam edir



**İşğal dövründə tamamilə dağıdılaraq xarabalığa çevrilmiş Ağdam şəhərində hazırda böyük tikinti bumu yaşanır. Təhsil, səhiyyə, mədəniyyət, sənaye obyektləri ilə yanaşı, yaşayış məhəllələrinin tikintisi də həyata keçirilir.**

Hazırda 2-ci, 4-cü və 5-ci yaşayış məhəllələrində inşaat işləri sürətlə davam edir. Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin mətbuat katibi Leyla Sarabi AZƏRTAC-a bildirib ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair 1-ci dövlət proqramına uyğun olaraq, Ağdam şəhərində 5 yaşayış məhəlləsinin tikintisi reallaşacaq. Hazırda 2-ci yaşayış məhəlləsində 11 kvartal üzrə 66 çoxmənzilli bina tikilir. Onlardan 60-ı yaşayış, 6-sı isə qeyri-yaşayış binalarıdır. Bu məhəllədə 1268 mənzil olacaq ki, onlardan 114 ədədi birotaqlı, 464 ədədi ikiotaqlı, 536 ədədi üçotaqlı, 154 ədədi isə dördotaqlıdır. 2-ci yaşayış məhəlləsinə Ağdam sakinlərinin geri qayıdışı bu ilin sonuna kimi reallaşacaq.

4-cü yaşayış məhəlləsi 14 hektara yaxın ərazidə inşa olunur. Burada 10 kvartal üzrə 64 bina olacaq. Onlardan 47-si yaşayış, qalanları isə qeyri-yaşayış binasıdır. 4-cü yaşayış məhəlləsində 4450 nəfərdən ibarət 1080 ailənin məskunlaşdırılması nəzərdə tutulur. Bu məhəllədəki binalarda 48 ədəd birotaqlı, 356 ədəd ikiotaqlı, 474 ədəd üçotaqlı və 202 ədəd dördotaqlı mənzillər olacaq. Bundan əlavə, bu yaşayış məhəlləsində də yerüstü və yeraltı avtomobil dayanacağı yaradılacaq.

5-ci yaşayış məhəlləsi isə 12 hektardan artıq ərazidə layihələndirilib. Burada 12 kvartal üzrə 50 ədəd bina inşa olunacaq. Onlardan 40 ədədi çoxmənzilli yaşayış binası, 10 ədədi isə qeyri-yaşayış binalarıdır. Həmin binalarda 1074 mənzil olacaq ki, onlardan 5 ədədi birotaqlı, 372 ədədi ikiotaqlı, 443 ədədi üçotaqlı və 254 ədədi isə dördotaqlıdır. 5-ci yaşayış məhəlləsində də qeyri-yaşayış binaları tikiləcək, uşaq, idman və istirahət meydançaları, eləcə də qazanxanalar olacaq.

Tikinti şirkətinin direktoru Mirzə Məcnunov 4-cü yaşayış məhəlləsində görülən işlər barədə məlumat verib. Onun sözlərinə görə, binaların bəzilərinin fasadında və daxilində hörgü işləri görülür, bəzilərində isə dəmir-beton konstruksiya işləri yekunlaşmaq üzrədir. Digərlərinin 5-ci və 6-cı mərtəbələrində işlər davam edir. Binanın zirzəmisində hörgü və suvaq işləri aparılır. Hər bir binada lift və zirzəmidə avtomobil dayanacağı nəzərdə tutulub.

## Yaşıl kolların ağ örpəyə bürünməsinə çox qalmayıb

### Neftçala pambıqçıları növbəti kompleks becərmə aparırlar

**Avqust pambıqçılıqda kolların bartoplama ayı hesab olunur. Bu ayda bitkilərin üstündə formalaşan bar orqanları məhsulun hər hektardan neçə sentner olacağına təminat verir. O səbəbdən pambıqçılar diqqətli olmağa çalışırlar.**

Kultivatorun qabaq və yan təkərlərinin önünə xüsusi qoruyucu qurğu (şit), işçi orqanlarına isə sellofan və parça bağlayırlar ki, yan budaqları sındırmasın, formalaşmış qozaları əzib yerə tökməsin. Məhsulun ərsəyə gəldiyi bu vaxtlar çalışırlar ki, sovka ziyanvericisinə qarşı daha güclü mübarizə aparsınlar, onun əmələ gəlməsinə, artıb çoxalmasına imkan verməsinlər. Bu məqsədlə hər gün bir neçə dəfə sahələrə baş çəkib yoxlama aparırlar.

Neftçala pambıqçıları ənənələrinə sadiq qalaraq bu il də bol məhsul yetişdirmək əzmilə çalışırlar. Qeyd edək ki, cari ilin əvvəlində 5 pambıqçılıq şirkətinin - "Prime Cotton", "P-Aqro", "Azərtəsərrüfat", "Azərpambıq ASK" və "Taşobasi" MMC filialları tərəfindən 1419 nəfər torpaq mülkiyyətçisi və fermerlə müqavilə bağlanaraq rayon üzrə 7 min 167 hektarda pambıq əkini aparılması planlaşdırılmış, yazda bu plan həyata keçirilmişdir. Havaların qeyri-sabit keçməsinə baxmayaraq, fermer və sahibkarlar aprel-may aylarında çiyid səpini aparmışlar. Əkin zamanı aqrotexniki qaydalara əməl olunmuş, səpinlə birlikdə hər hektara 100 kiloqram ammofos gübrəsi verilmişdir.

Şirkət filiallarının mütəxəssisləri də öz tövsiyə və məsləhətlərini əsirgəməmişlər. Pambıqçılar texnika, çiyid, mineral gübrələr, ziyanvericilərə qarşı preparatlar və digər vasitələrlə vaxtlı-vaxtında təmin olunmuşlar. Hazırda sahələrdə 5-ci kompleks becərmə gedir. 4 min hektardan çox sahədə 2-ci suvarma aparılmışdır. Bu iş indi də davam edir.

Cari il Neftçalada pambıq əkmiş fermerlərdən biri də Yuxarı Qaramanlı kənd sakini Əliağa Mütəllimovdur. Təcrübəli fermer torpaqdan qazandığı vəsaiti elə torpağın özünə yönəldib. Əlavə torpaqlar alıb, torpaq icarəyə götürüb. İndi öhdəsində 30 hektara yaxın torpaq var. Fermer deyir ki, torpaq diqqət və qayğı istəyir, gərək şumu vaxtında və keyfiyyətlə aparasan, o biri işləri də həmçinin: "Öhdəmdə olan sahələrin bəzisi həndir-hamar olduğundan bitkilər yaxşı su içə bilmirdi. Bitkinin də canı, bildiyiniz kimi, sudadır. Yaxşı su içməsə, bol məhsul vermir. Odur ki, zəhmət, xərc tələb etməsinə baxmayaraq, həmin sahələrdə lazer texnikası ilə hamarlama işləri gördürmüşəm. Düzdür, birinci il bir qədər az məhsul verir, amma sonrakı illərdə faydasını əldə edirsən - məhsuldarlıq xeyli artır".

Əliağa kişi sözünə davam edərək deyir: "Bu il 13 hektarda pambıq əkmişəm. Üç oğlumla birlikdə əkdiyimiz sahələri becəririk. Pambıqdan başqa, taxıl, yonca da əkirik. Mal-qara da saxlayırıq. Kəndlinin qapısında inəyi, qoyunu, toyuq-cücəsi olmasa, işi fəna olar. Hər şeyə pul versə, bir şey artıra bilməz, problemləri aşıb-daşar. Pambığa gəldikdə isə deyə bilərəm ki, o, çox zərif bitkidir. Onu körpə uşağa bənzədənlər doğru deyiblər - bir gün ondan nəzərini çəksən, lazım olan qayğını göstərməsən, hiss edirsən ki, yarpaqları, qol-budaqları təravətini itirir, sanki sahibindən küsür. Bu işləri bildiyimizdən, qaydalara əməl etdiyimizdən, şükürlər olsun ki, işlərimiz yaxşı gedir. İndi hər kolun üstündə 18-20 formalaşmış qoza var. Mən hələ gül-darağı demirəm. Təkcə mənim yox, kəndimizdəki digər fermerlərin sahələrində də bol məhsul yetişir. Müqavilə bağladığım "P-Aqro" MMC Neftçala rayon filialının işçilərinin də bu işlərdə xüsusi əməyi var. Hər gün yanımızdadırlar. Aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə həyata keçirməyimizdə bizə dəstək olur, əllərindən gələni edirlər".



Yeri gəlmişkən, qeyd edək ki, bu il Yuxarı Qaramanlı ərazisi üzrə 37 nəfər fermer 129 hektarda pambıq əkib. Keçən il kənddə 120 hektar əkin sahəsinin hər hektarından orta hesabla 37 sentner məhsul götürülmüşdür. Mütəxəssislərin dediklərinə görə, bu il məhsuldarlığın daha yüksək olacağı gözlənilir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Aqrar sığorta eksperti olmaq istəyən namizədlər üçün növbəti təlimlər keçirilib

**Aqrar Sığorta Fondunda aqrar sığorta eksperti olmaq istəyən namizədlər üçün növbəti təlimlər keçirilib. Təlimlərdə müxtəlif hadisələrin əkin sahələrinə vurduğu zərərlər, məhsuldarlığa təsirin araşdırılması prosesi, zərərlərin hesablanması və sair məsələlər barədə geniş məlumat verilib.**

Aqrar Sığorta Fondunun ofisində və Şamaxı rayonunun meyvə bağlarında keçirilən təlimlərdə ölkənin müxtəlif regionlarından olan 28 namizəd iştirak edib.

Qeyd edək ki, aqrar sığorta ekspertləri - aqrar sığorta mexanizmində mühüm yer tutur. Sığortalanması üçün müraciət edilmiş təsərrüfatlara baxış keçirilərək risklərin qiymətləndirilməsi, eləcə də hadisə baş verən təsərrüfat və əkin sahələrində hadisələrin araşdırılması, dəymiş zərərin hesablanması aqrar sığorta ekspertləri tərəfindən həyata keçirilir.

Aqrar Sığorta Fondunda keçirilən təlimlərdən sonra namizədlər Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi imtahanlarda iştirak edəcəklər. Uğur qazanan (60% çox bal toplayan) namizədlər müvafiq sertifikat alacaq, adları Azərbaycan Mərkəzi Bankının (AMB) müvafiq reyestrinə daxil ediləcək və Aqrar Sığorta Fondu ilə xidməti müqavilə bağlayaraq fəaliyyətə başlaya biləcəklər.

Xatırladaq ki, aqrar sığortanın əhatə dairəsi genişləndikcə, qeydə alınan sığorta hadisələri və fermerlərə ödənişlər də artmaqdadır. 2025-ci ilin ilk yarım ilinin nəticələrinə görə, Aqrar Sığorta Fondu tərəfindən fermerlərə 4,4 milyon manat sığorta ödənişi edilib. Bu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 55% artıqdır. Aqrar sığortanın əhatə etdiyi məhsullarının sığorta şərtləri və tarifləri ilə Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsində ətraflı tanış olmaq mümkündür.



## Əlverişli iqlim, münbit torpaq, işgüzar kəndli

### Bunlar varsa, bolluq da olacaq, güzəran da




**Ölkənin qərb bölgəsində yerləşən Şəmkirdə aqrar sahənin inkişafı istiqamətində uğurlu addımlar atılır. Əldə olunan nailiyyətlər rayon iqtisadiyyatının imkanlarını artırmaqla bərabər, təsərrüfat adamlarının güzəranını da yaxşılaşdırır.**

Əhalisinin sayına görə respublikamızda böyük rayonlardan olan Şəmkir əlverişli relyefə, münbit torpaqlara malikdir. Rayonun ən qiymətli sərvəti isə işgüzar insanlarıdır. Onların sayəsində hər il rayon aqrar sahədə böyük uğurlara imza atır.

İndi isə keçək konkret rəqəmlərə. Keçən il cari ilin məhsulu üçün rayon üzrə 2181 hektarda qarğıdalı, 333 hektarda şəkər çuğunduru, 6615,2 hektarda kartof, 102 hektarda lobya, 698 hektarda dən üçün günəbaxan, 70 hektarda bostan, 6555,3 hektarda tərəvəz, 11859 hektarda yem bitkiləri əkilmişdir. Ötən dövr ərzində rayonda 574 milyon 237,7 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 3,8 faiz çoxdur.

Əvvəlki illərdə olduğu kimi, bu il də taxılçılığın inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, cari ilin məhsulu üçün 14 min 224 hektar sahədə taxıl toxumu səpilmişdir. Onun 7 min 366 hektarı suvarılan, 6 min 858 hektarı dəmyə şəraitində əkilmişdir. Son məlumata görə, rayon ərazisində 7 min 156 hektar sahədə biçin aparılmış, 27 min 181 ton məhsul yığılmışdır. Hər hektardan 38 sentner taxıl götürülmüşdür.

Kənd təsərrüfatının digər sahələrində də nəticələr yaxşıdır. İndiyədək tərəvəz əkilmiş sahələrin 392,6 hektarından 221 min 256 ton, meyvə və giləmeyvə bağlarından 18 min 381,5 ton məhsul toplanmışdır.

Cari ilin məhsulu üçün rayonda həmçinin 6 min 615,2 hektar sahədə kartof əkilmişdir. Son statistik məlumata görə, əkilmiş sahələrin 4802 hektarında məhsul yığımı başa çatmış, 133 min 975 ton kartof yığılmışdır. Orta məhsuldarlıq əvvəlki ildəkindən çox - 278 sentner olmuşdur.

Heyvandarlıq məhsulları istehsalında da irəliləyiş qeydə alınmışdır. Cari ilin yanvar-iyun aylarında rayon üzrə 5244 ton ət, 29 min 606,4 ton süd, 18 milyon 210 min ədəd yumurta istehsal edilmişdir ki, bunlar da ötən illə müqayisədə çoxdur.

Onu da bildirək ki, rayonda istehsal olunan kənd təsərrüfatı məhsullarının satışında ciddi problem yaşanmır. Məhsulların bir hissəsi yerli bazarlarla yanaşı, xarici bazarlara da çıxarılır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Ağcabədi taxılçıları zəmilərdən 154 min tondan çox məhsul toplayıblar

**Respublikanın ən böyük taxılçılıq rayonlarından olan Ağcabədidə yüksək məhsuldarlığa nail olunub.**

Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, 2025-ci ildə rayonda 34 min 749,9 hektar sahədə taxıl becərilib. Onun 20 min 971,7 hektarı buğda, 13 min 776,2 hektarı dən üçün arpadır. Ağcabədili fermer və torpaq mülkiyyətçiləri zəmilərdən 154 min 314 ton məhsul əldə ediblər. Toplanmış məhsulun 100 min 192 tonu buğda, 54 min 122 tonu arpadır. Hər hektarın məhsuldarlığı orta hesabla 44,4 sentner, o cümlədən buğda sahələrində 47,8, arpa sahələrində isə 39,3 sentnerdir.

## Yardımlıda biçin başa çatıb

**Rayon Statistika İdarəsindən verilən məlumata əsasən, əkin aparılmış 2 min 644 hektar sahənin 2 min 631 hektarında taxıl biçini başa çatıb.**

Ailə kəndli təsərrüfatına aid 13 hektar biçilməmiş buğda sahəsində yanğın səbəbindən biçin aparılmamışdır. Qalan sahələrdən 6 min 359,8 ton məhsul yığılmışdır. Orta məhsuldarlıq 24,2 sentner olmuşdur.

Arpa sahələrində biçin tam yekunlaşmış, sahələrdən 782 tona yaxın məhsul yığılmışdır ki, bu da 20 sentner məhsuldarlıq deməkdir. Buğda sahələrində də biçin yekunlaşmışdır. 2 min 194 hektar sahədən 5 min 485,8 ton məhsul biçilmişdir. Orta məhsuldarlıq 25 sentnerə çatmışdır.

Kənd təsərrüfatı təyinatlı müəssisələr tərəfindən əkin aparılmış 117 hektar sahədə də biçin işləri tam yekunlaşmışdır.

***"Azərbaycan"***

## Bölgələrdə qəhvəyi mərmər bağacığının yayılmasına qarşı mübarizə tədbirləri görülür

**Zərərvericiyə qarşı mübarizə tədbirlərinin effektivliyini təmin etmək məqsədilə il ərzində qışlama yerlərinin monitorinqi keçirilib, 51 rayonda 9140 ədəd feromon tələ quraşdırılıb.**

Monitorinqlər nəticəsində zərərvericinin 2272 ədəd yetkin fərdi, 61 ədəd nimfası aşkar edilib. Zərərvericinin yetkin fərd və nimfaları əsasən şimal-qərb və qərb bölgələrində quraşdırılmış feromon tələlərdə müşahidə olunub. Sirayətlənmə səviyyəsinin yüksək olduğu 125 ocaqda (315,7 hektar ərazidə) bütün təhlükəsizlik qaydaları nəzərə alınmaqla kimyəvi mübarizə tədbirləri həyata keçirilib.

Qeyd edək ki, qəhvəyi mərmər bağacığı son illər, əsasən, fındıq bağlarının ən təhlükəli karantin zərərvericilərindən hesab edilir. Məhsudarlığa ciddi ziyan vura bilən zərərverici inkişafı və yayılması üçün əlverişli şərait yarandıqda sürətlə çoxalaraq yayılır. Dişi fərdlər hər birində 25-30 ədəd olmaqla topa şəklində yarpağın alt səthinə yumurta qoyur. Qəhvəyi mərmər bağacığı həm yetkin, həm də sürfə mərhələsində qida bitkisinin meyvələri, cavan budaqları və yarpaqlarının şirəsini sormaqla qidalanır. Bunun nəticəsində də meyvələrdə müxtəlif zərərlər əmələ gəlir (dadı pisləşir, üst səthi kələ-kötür olur). Zərərverici ilə sirayətlənmə zamanı sitrus meyvələri, xurma və üzümün meyvələri yetişmədən tökülür. Zərərverici qərzəkli bitkilərdə meyvələri sütül dövründə zədələyir və ləpə inkişafdan qalır.

Hazırda Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzinin mütəxəssisləri tərəfindən qəhvəyi mərmər bağacığına qarşı mübarizə tədbirləri davam etdirilir.






# TURİZM






● Gəzməli, görməli yerlərimiz

# Tariximizi yaşadan turizm marşrutları

**Yayın qızmar günlərində istər paytaxt Bakıda, istərsə də bölgələrdə səyahətə çıxmış turistlərlə tez-tez rastlaşmaq olur. Öyrəndik ki, bu ilin birinci yarısında Azərbaycana 178 ölkədən 1 milyon 217,4 min nəfər turist gəlib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, gələnlərin 25,8 faizi Rusiya, 17,6 faizi Türkiyə, 9,4 faizi Hindistan, 8,2 faizi İran, 4,2 faizi Gürcüstan, 3,7 faizi Qazaxıstan, 3,2 faizi Səudiyyə Ərəbistanı, 2,9 faizi Pakistan, 2,1 faizi Çin, hər birindən 1,9 faiz olmaqla İsrail və Özbəkistan, 1,8 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,4 faizi Ukrayna, 1,3 faizi Türkmənistan, hər birindən 1 faiz olmaqla Belarus və Küveyt, 12,6 faizi digər ölkələrin vətəndaşları olub. Gələnlərin 67,9 faizi kişilər, 32,1 faizi qadınlardır. Məmnunluq doğuran odur ki, dünyada 11 iqlim qurşağından doqquzunun Azərbaycanda olması, əsrarəngiz təbiəti və qədim tarixi özündə yaşadan abidələr səyahətçilərin, eləcə də müalicə məqsədilə ölkəmizə gələn əcnəbilərin diqqətini özünə daha çox çəkir.

### Səyahətçilər yeni yaradılan turizm ünvanlarına xüsusi maraq göstərirlər

Müşahidələrdən məlum olur ki, turistlər min illər bundan öncə mövcud olmuş tarixi abidələrlə yanaşı, ölkəmizdə son illər yaradılan tarixi mədəniyyət abidələrini ziyarətə də böyük maraq göstərirlər. Turistlərin belə ünvanlar sırasında Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mərkəz, Hərbi Qənimətlər Parkı, Bayraq Meydanı, İçərişəhər, Qız qalası, Şirvanşahlar sarayı, qəhrəman şəhidlərin uyuduğu Dağüstü park, tarixin minilliklərindən söhbət açan yerli memarlıq abidəsi hesab edilən mülklər, Qobustan qayaları, Beşbarmaq dağı, Şəki xan sarayı, Nuhun qəbri, Qubanın Xınalıq kəndi, Talış dağları və digərlərinin adını qürurla çəkə bilərik. Məmnunluq doğuran odur ki, Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə əsasən, yeni turizm məkanlarının da sayı ildən-ilə artmaqdadır. Nümunə üçün deyək ki, Qobustan rayonundakı "Diri Baba" türbəsi diqqətçəkən ünvanlardandır. Saf təbiəti və tarix-memarlıq abidələri ilə zəngin olan İsmayıllı rayonundakı qədim Basqal qəsəbəsini görmək çox qürurvericidir. Burada olan səyahətçilər rayondakı çoxsaylı gəzinti, yürüş və velosiped cığırlarından yararlana bilirlər.

Adı tarixin dərin qatlarından gələn Basqal qəsəbəsi 240 hektarlıq ərazidə yerləşir. Bunun 50 hektarı 1989-cu ildə yaradılan "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğuna aiddir. Qəsəbədə təxminən 1480 nəfər, onlardan təxminən 600 nəfəri qoruq ərazisində yaşayır. Tarixən Basqalın mərkəzi hesab olunan ərazidə Orta əsrlər yol mədəniyyətinə xas olan pilləkənvari və daş döşəməli yolları, ənənəvi hasarlar və qədim taxta qapı-darvazalarının qorunub saxlanılması daha maraqlı görünür.

Qoruğun mühüm tarixi abidələrindən biri hesab olunan Basqal hamamı maddi-mədəniyyət nümunələrimizin qorunması məqsədilə dövlət nəzarətinə götürülüb, Bazar meydanında Hamam Muzeyi əsaslı şəkildə bərpa edilib. Turistlər üçün maraq doğuran odur ki, muzeydə Azərbaycanda hamam mədəniyyətinin özəllikləri, inkişafı haqqında, eləcə də hamamla bağlı xalq adət və ənənələri, onun külxana adlanan döşəməaltı istilik sistemi haqqında maraqlı məlumatlarla tanış ola bilirlər.

Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Basqal qəsəbəsinin inkişafı, Basqalın tarixi irsinin qorunması ilə bağlı bir neçə il bundan əvvəl mənim tərəfimdən xüsusi sərəncam verilmişdir. Bu sərəncam əsasında Dövlət Turizm Agentliyi burada artıq bir müddətdir ki, işlər aparır. İşlərin təxminən 50 faizi başa çatıb və bu gün hər kəs bunu görə bilər. Basqal bizim qədim kəndlərimizdən biridir, özünəməxsus tarixə malik olan bir yerdir. Əlbəttə, mən çox istərdim ki, həm bu yerin tarixi siması qorunsun, eyni zamanda burada yaşayan insanlar üçün daha yaxşı şərait yaradılsın - bunu da biz təmin etdik, - iş yerlərinin yaradılması üçün yeni imkanlar açılsın. Əminəm ki, Basqal qəsəbəsi Lahıc qəsəbəsi kimi, bu bölgənin çox qədim tarixi yaşayış məkanı olaraq öz simasını bütün dünyaya açacaq. Yəni həm Azərbaycan vətəndaşları, həm ölkəmizdə olan qonaqlar, bildiyiniz kimi, indi Lahıca durmadan səfərlər edirlər. Əminəm ki, eyni aqibət Basqal qəsəbəsi üçün də olacaq. Bu məqsədlə bu tarixi yaşayış yerinin konservasiyası, bunun tarixi simasının qorunması xüsusi əhəmiyyət daşıyır".





Görünən odur ki, qədim tarixi və müasirliyi ilə gözoxşayan Basqal dünya turizm həvəskarlarına gəl-gəl deyir.

### Turizmin inkişafına böyük töhfə

Erməni işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur təkcə tarixi və siyasi əhəmiyyətinə görə deyil, həm də turizm potensialına görə səyahətçilərin arzu etdikləri ünvanlardandır. Füzuli rayonunda yerləşən kurqanlar, Azıx mağarası və digər arxeoloji abidələr təkcə Azərbaycan deyil, dünya miqyasında nadir tarixi irs nümunələridir. Azıx mağarası dünyanın ən qədim insan yaşayış məkanlarından biri hesab edilir. Burada aparılan arxeoloji qazıntılar nəticəsində 350-400 min il əvvələ aid insan qalıqları aşkarlanıb. Bölgədə arxeoparkların yaradılması, tədqiqatların davam etdirilməsi və turizm marşrutlarının açılması Qarabağın Daş dövrü irsinin geniş tanıdılmasına xidmət edəcək.

Xocavənd rayonunun Tuğ kəndi, tarixi memarlığı, təbiəti və şərabçılıq ənənələri ilə kənd turizmi üçün ideal məkandır. Tuğda aqroturizm, ekoturizm və mədəni turizmin paralel inkişafı mümkündür. Burada keçmiş şərab istehsalı ənənələrinin bərpası, festivalların təşkili və tarixi memarlığın qorunması kimi layihələr həyata keçirilə bilər. Şuşa şəhəri və ətraf ərazilər, xüsusilə Turşsu və Dəmirsu kimi müalicəvi suların olduğu bölgələr sanatoriya və sağlamlıq turizminin yenidən inkişafı üçün əlverişli şərait yaradır. Bu mineral sular vaxtilə mədə-bağırsaq və revmatik xəstəliklərin müalicəsində təsirli olub, sovet dövründə minlərlə insanın müalicə aldığı yerlər idi. İndi onlar əvvəlki kimi xalqa xidmət edəcək.

Ağdam, Suqovuşan, Hadrut, Talış, Kəlbəcər və Laçın kimi ərazilərdə kənd turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Bu bölgələrdə həm dağ, həm meşə, həm də düzənlik relyeflərinin bir araya gəlməsi təbiətlə təmas istəyən turistlər üçün ideal şərait yaradır. Şuşaya çəkilən dəmir yolu və nəqliyyat infrastrukturunun yenilənməsi isə turist axınını artıracaq.

Hazırda bu rayonlarda geniş bərpa-quruculuq işləri həyata keçirilir. Tarixi, mədəni və dini abidələrin bərpası ilə yanaşı, kənd təsərrüfatı sahələrinin canlandırılması da kənd turizminin inkişafı üçün əsas baza rolunu oynayır. Bölgəyə həm yerli, həm də xarici turistlərin marağını artırmaq üçün kompleks turizm infrastrukturları yaradılır. Bundan əlavə, Qusar, Xaçmaz, Şamaxı, Qəbələ, Zaqatala, Balakən, Tovuz, Gədəbəy, Yardımlı, Masallı, Ordubad və digər bölgələr də yüksək potensiala malikdir. Hər rayonun özünəməxsus təbiəti, tarixi abidələri, mətbəxi və mədəniyyəti onu fərqli bir turizm məkanına çevirə bilər.

### Yaradılan turizm marşrutları geniş imkanlara malikdir

Ölkəmizdə təhlükəsizlik və sabitlik hökm sürür. Günün tələblərinə cavab verən infrastruktur yaradılıb, 9 beynəlxalq aeroport, müasir magistral yollar, dəmir yolları, hotellər, kurortlar, yay-qış xizək, dəniz kurortları, müalicəvi turizm və s. inkişaf edir.

Bölgədə səyahət turizmi, kənd turizmi, müalicə turizmi, eləcə də dağ turizmi üçün geniş imkanlar mövcuddur. Bu mövcudluğun sırasında səyahətçi qonaqların bir qismi tarixi abidələrə və inanc yerlərinə daha çox maraq göstərirlər. Qarabağın tacı hesab edilən Şuşa şəhəri və onun ətrafındakı əzəmətli dağlar, Xankəndi, Laçın, Kəlbəcər və digər rayonlar turizm baxımından unikal məkanlardır. Belə cənnətməkan ərazilərdə yeni turizm ünvanlarının yaradılması dövlətimizin prioritet istiqamətlərindəndir. Cari il iyun ayının əvvəllərində Azərbaycan Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü ərəfəsində bölgə turizminin inkişafında diqqətçəkən məqamlardan olan Xankəndi-Şuşa kanat yolunun inşası üçün seçilmiş əraziyə baxıb. Uzunluğu 6 min metrə yaxın olacaq kanat yolunun Xankəndidə hündürlüyü 844 metr, Şuşada isə 1317 metr təşkil edəcək. Kanat yolunda hərəkətin müddəti 13 dəqiqəyədək, sürəti isə saniyədə 8 metr nəzərdə tutulur.

Bu layihənin icrası ümumilikdə turizmin inkişafına təkan verməklə yanaşı, Xankəndidən Şuşaya və əks istiqamətə insanların rahat gediş-gəlişinin təmin olunmasında mühüm rol oynayacaq.

Xatırladaq ki, Azərbaycanda artıq bir neçə bölgədə kanat yolları fəaliyyət göstərir. Qəbələdə, Şahdağ və Tufandağ turizm mərkəzlərində yerləşən kanat yolları hər il minlərlə turist cəlb edir. Kanat yolları dağlıq ərazilərdə turizmin inkişafı üçün vacib infrastruktur elementlərindən biridir. Bu, nəqliyyat baxımından əlverişli olmaqla yanaşı, həm də insanlara təbiətin gözəlliklərini daha yaxından görmək imkanı yaradır.

Kəlbəcər isti suları, füsunkar dağ mənzərələri və meşələri ilə seçilir. Bu bölgə yaxın gələcəkdə dünyanın əsas turizm məkanlarından birinə çevrilmək potensialına malikdir. Bir müddət əvvəl Kəlbəcərin turizm resurslarının mövcud vəziyyəti, resurslarının qiymətləndirilməsi, turizm dəhlizləri, turizm inkişaf potensialı və prioritet turizm məhsulları sahələri üzrə araşdırmalar aparılıb.

Artıq "Kəlbəcər Turizm İnkişaf Konsepsiyası" sənədi hazırlanıb. Sənəddə Kəlbəcərin 2040-cı ilədək ilboyu turizm fəaliyyətlərinin təşkili və Cənubi Qafqaz regionunda ən çox səfər edilən turizm məkanlarından birinə çevrilməsi hədəflənir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● İstirahət məkanı



# Qədim və müasir Qəbələ

**Son illər Azərbaycan dünyanın cəlbedici turizm ölkələrindən birinə çevrilib. Respublikamızın əhalisinin, eləcə də istirahət üçün buranı seçən əcnəbilərin üstünlük verdikləri yerlərdən biri isə Qəbələ rayonudur.**

Məmləkətimizin ən qədim yaşayış məskənlərindən olan Qəbələnin təbii iqlim şəraiti turizmin inkişafı üçün əlverişlidir. Buranın relyefi müxtəlifdir. Şimal hissəsi Böyük Qafqaz dağ silsiləsinin cənub yamacına, mərkəzi hissəsi Alazan-Həftəran vadisinə, cənub hissəsi Acınohur ön dağlığına daxildir. Ölkəmizin ən yüksək dağ zirvəsi - Bazardüzü Qəbələnin ərazisindədir.

Gurultulu dağ çayları - Dəmiraparançay, Türyançay, Tikanlıçay, Bumçay, Vəndamçay, eləcə də digər kiçik çaylar, Mucux və Yeddi Gözəl şəlalələri, 60 min hektar ərazini əhatə edən fıstıq, palıd, vələs, ardıc, şabalıd meşələri bura gələn turistlərin ən çox üz tutduqları, görmək istədikləri yerlərdəndir. Xatırladaq ki, rayonun təbii sərvətlərindən biri hesab edilən, dəniz səviyyəsindən 1000 metr yüksəklikdə yerləşən şabalıd meşəsində yaşı 500 ildən çox olan ağaclar var və onlar dövlət tərəfindən mühafizə edilir. Yay günlərində yolunu Qəbələdən salanları ürəklərinə sərinlik gətirən həm də mineral bulaqları, təmiz sulu çeşmələridir.

Qəbələ yalnız istirahət etmək, təbiətdən zövq almaq istəyənləri cəlb etmir. Tarixlə maraqlananlar üçün də bu yerlər əvəzsizdir. Çoxlu sayda tarixi abidələri, maddi-mədəniyyət nümunələri ilə məşhur olan Qəbələdə Nazirlər Kabinetinin qərarı ilə 93 tarixi mədəni abidə dövlət mühafizəsinə götürülüb. Onlardan biri - qədim Qəbələ şəhərinin qalıqları dünya əhəmiyyətli arxeoloji abidələr siyahısına aiddir. 8 memarlıq, 53 arxeoloji abidə ölkə, digərləri isə yerli əhəmiyyətlidir.

Arxeoloji qazıntıların nəticələri də təsdiq edir ki, Qəbələ eramızdan əvvəl mövcud olmuş və indiki Azərbaycanın böyük qismini əhatə edən Qafqaz Albaniyasının yüz illər boyu paytaxtı olub. Qədim abidələri də bu yerlərin tarixinin min illər öncəsindən soraq verir. Qəbələdə hara qədəm qoysan, hansı qayasına, dağına toxunsan yüz illər əvvəlki tariximizin izlərinə rast gəlirsən. Buradakı qədim qalalar, məqbərələr, IX-XI əsrlərə aid qədim qüllə tarixi yerlərlə maraqlanan qonaqların baş çəkməkdən məmnunluq duyduqları məkanlardır. Həmin abidələr sırasında Nic kəndində aşkarlanan abidələrin, kənddə olan Alban kilsəsinin, "Daş bulaq" adlı tarixi çeşmənin diqqətəlayiq yeri var. Nic kəndi həm də bura gələn turistlər üçün orijinal üslubda tikilən bir sıra yaşayış evləri ilə maraqlıdır.

Turistlərin ən çox ziyarət etdikləri yerlər sırasında Çuxur Qəbələ kəndində yerləşən qədim Qəbələ şəhərinin qalıqları, rayonun müxtəlif yerlərindəki daş kurqanlar (eramızdan əvvəl III-I minillik), Həzrə kəndindəki türbələr kompleksi (XIV-XV əsrlər), Nic qəsəbəsindəki nekropol (Antik dövr), Heydər Əliyev Muzeyi, Tarix-diyarşünaslıq muzeyi, İsmayıl bəy Qutqaşınlının xatirə muzeyi, Şəhidlərin xatirəsi muzeyi də var.

Bu füsunkar yurd təbiəti və qədim tarixi kimi zəngin adət-ənənələri, xalq sənəti nümunələri ilə də diqqəti cəlb edir. Qəbələyə gələn turistlər burada Azərbaycan xalqına məxsus səmimiyyətin, mehribanlığın, qonaqpərvərliyin şahidi olurlar. Yeri gəlmişkən qeyd edək ki, Qəbələ Rayon Statistika İdarəsindən verilən məlumata görə, cari ilin yanvar-iyun aylarında Qəbələ rayonundakı hotel və mehmanxana tipli müəssisələrə 42,3 min yerli və əcnəbi turist yerləşdirilib. Onların 18,6 min nəfəri (44 faizi) Azərbaycan, 23,6 min nəfəri (56 faizi) xarici ölkə vətəndaşı olub. Məlumatda o da qeyd edilib ki, bu ilin birinci yarısında Qəbələnin hotel və mehmanxana tipli müəssisələrinə yerləşdirilən yerli turistlərin sayında keçən ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz artım qeydə alınıb. Həmin dövrdə Qəbələyə gələn əcnəbi turistlər arasında Hindistan vətəndaşları üstünlük təşkil edib. Belə ki, 6 ayda bu ölkənin 11,4 min vətəndaşı Qəbələdə olub. Ümumiyyətlə, yanvar-iyun aylarında Qəbələyə Səudiyyə Ərəbistanından 3817, Birləşmiş Ərəb Əmirliklərindən 2366, Pakistandan 1482, İsraildən 695, Küveytdən 603, Rusiya Federasiyasından 539, Qətərdən 507, Omandan 219, Türkiyədən 150, ABŞ-dən 130, Böyük Britaniyadan 122 turist səfər edib. Gələnlərin 1631 nəfəri isə digər ölkələrin vətəndaşları olub.

Qəbələdə beynəlxalq mədəni-kütləvi tədbirlərin keçirilməsi ənənəsi də var. Şəhər klassik musiqisevərlərin görüş yerinə çevrilib. Hər ilin yay mövsümündə Qəbələ Beynəlxalq Musiqi Festivalında dünyanın müxtəlif qitələrindən gələn istedadlı musiqiçilər sənət uğurlarını paylaşırlar. Beynəlxalq əhəmiyyətli tədbirlərin düzənlənməsi həm də bu yerlərə işgüzar səfərə və istirahətə gələnlərin sayını artırır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# İstirahət və səyahət - sağlamlığın əsas şərti

**Hər il milyonlarla insan istirahət etmək, daha çox görmək və bilmək üçün müxtəlif ölkələrə, bölgələrə səyahət edirlər. Bu zaman onlar həmçinin dincələrək sağlamlıqlarının da qeydinə qalırlar. Bu cür səyahətləri, gəzintiləri və istirahətləri sağlamlıq turizmi adlandırırlar. Doğrudan da, bu həm rahat istirahət, həm də sağlamlığın bərpası deməkdir. Çünki səyahətlər, gəzintilər zamanı insanlar rahat istirahət edir, dincəlir, necə deyərlər, yorğunluqlarını çıxarırlar.**

Məlumdur ki, fiziki dinclik insana mənəvi rahatlıq gətirir. Ovqatını dəyişir, düşüncələrini yeniləyir, beyni rahatlıq, mənəvi dinclik tapır. Yaradıcı adamlar üçün belə səyahətlər olduqca səmərəli keçir, yeni əsərlər yazmaq üçün mövzu verir. Buna görə də insanlar daha çox sağlamlıq turizminə üstünlük verir, imkan yaranan kimi səyahətə çıxırlar.

Sağlamlıq turizmi dedikdə, ilk olaraq sağlamlığımızı, gümrahlığımızı düşünürük. Ağrılarını çəkdiyimiz xəstəliklərdən qurtarmağa çalışırıq. Qloballaşma şəraitində ölkələr arasında əməkdaşlıq səyahət azadlığı və fürsətlər, giriş asanlığı, dünyanın müxtəlif nöqtələrində səhiyyə xidmətlərinin inkişafı, sağlamlıq turizminin dirçəlməsinə təkan verir. Məlumdur ki, getdikcə güclənən sənayeləşmə və şəhərləşmə nəticəsində ortaya çıxan bəzi problemlər insan sağlamlığına mənfi təsir göstərir. Belə günlərimizdə təbii turizm mənbələri bizi qorumaq və işgüzarlığımızı artırmaq üçün olduqca əlverişli bir vasitəyə çevrilir.

Bu gün insanların böyük maraq göstərdikləri sahələrdən biri olan sağlamlıq turizminin tarixinə nəzər yetirən mütəxəssislərin apardıqları təhlillər göstərir ki, tibb elmi Antik dövrdən yaransa da, müalicəvi bulaqlardan elmi əsaslarla istifadə olunması Orta əsrlər və intibah dövründən başlamışdır. XIX əsrin əvvələrindən isə Avropa ölkələrində müalicəvi sulardan geniş istifadə olunması istiqamətində uğurlu addımlar atılmışdır. XX əsrin əvvəllərindən artıq Qərbi Avropada sağlamlıq turizmi kommersiya, Şərqi Avropa və postsovet ölkələrində isə sosial istiqamət üzrə inkişaf etmişdir. XX əsrin 70-ci illərindən başlayaraq, sağlamlıq, sağlamlaşdırma və tibbi-müalicə turizmində şəbəkələr formalaşmağa başlamışdır. Bütün bu amillər isə sağlamlıq turizminin inkişafına müsbət təsir göstərmişdir.

Sağlamlıq turizmi adlanan səyahətlər təkcə ölkəmizdə deyil, bütün dünyada geniş yayılmışdır. Hətta demək olar ki, bu, turizmin başlıca növlərindən birini təşkil edir. Çünki təbii müalicəvi vasitələrlə zəngin olan sanatoriyalarda istirahət etmək, dincəlmək, insanlara səhhətlərindəki problemləri aradan qaldırmaq üçün geniş imkanlar yaradır.



Unutmayaq ki, bir-birinə bənzəməyən bölgələrə olunan səyahətlər rahat istirahət sağlamlığımıza açılan geniş qapıdır. Sadəcə olaraq, bu qapını açıb içəri keçmək lazımdır. Ölkəmizdəki turizm məkanlarında həm yaxşı istirahət etmək, həm də müalicə olunmaq imkanları çox genişdir. Bölgələrdə, eləcə də ölkəmizin paytaxtındakı hərtərəfli şəraiti olan sanatoriyalar və istirahər mərkəzləri turistlərin üzünə həmişə açıqdır. Sağlamlıq turizminə böyük maraq göstərənlər məzuniyyətlərini maraqlı və səmərəli keçirmək üçün həm yaxşı dincələ, həm də səhhətlərini yaxşılaşdıra bilərlər. Abşeron, Şabran, Naftalan, Qəbələ, Lənkəran, Şəki, Qarabağ və Naxçıvanda olan sağlamlıq müəssisələrində turistlərə yüksəksəviyyəli xidmətlər göstərilir. Ona görə də bu bölgələrdə sağlamlıq turuzmi daim inkişaf edir.

Doğma Azərbaycanımızın ərazisi təbii ehtiyatlarla zəngindir. Buna görə də başqa sahələrdə olduğu kimi, ölkəmizdə sağlamlıq turizminin inkişafı üçün də hərtərəfli şərait var. Əldə olan bütün təbii sərvətlər daim insanların sağlamlığına, rifahlarının daha da yüksəldilməsinə yönəldilir. Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıq və suları, Lənkəranın, Masallının, Gədəbəyin, Kəlbəcərin, Laçının, Zəngilanın və başqa bölgələrimizin mineral suları sağlamlıq turizminin inkişafına böyük təkan verir. İnsanların diqqətini özünə cəlb edir.

Qeyd olunduğu kimi, Azərbaycanın başqa ölkələrdə olmayan bir çox hidromineral ehtiyatları mövcuddur. Bu hidromineral ehtiyatlar sanatoriya-kurort işinin inkişafı üçün olduqca böyük əhəmiyyət daşıyır. Eyni zamanda burada turizm xidmətləri üçün də əlverişli şərait var. Ərazilər quru subtropik iqlimə malik olduğu üçün insan səhhətinə müsbət təsir göstərir, yüksək dağ və tundra landşaftına malik olması isə qış idman növlərinin yaradılmasına geniş imkanlar açır. Mineral suların, müalicə nefti və palçığının olması kurort yerlərinin əhəmiyyətini artırmaqla yanaşı, onların ilboyu fəaliyyət göstərməsinə də əlverişli şərait yaradır. Dünya təcrübəsi isə göstərir ki, kurort və turizm bir-biri ilə sıx bağlı olan sahələrdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Emmanuel Makron Fransanın Kamerundakı kolonial müharibədə rolunu etiraf edib

**Fransa Prezidenti Emmanuel Makron, Kamerunun müstəqilliyindən əvvəl və sonra, - 1945-1971-ci illər arasında, - bu ölkədə aparılan kolonial müharibədə Fransanın rolunu və məsuliyyətini rəsmi şəkildə tanıyıb. Bu etiraf 2025-ci il iyulun 30-da Kamerun Prezidenti Pol Biyaya ünvanlanan, lakin yalnız avqustun 12-də ictimaiyyətə açıqlanan məktubda yer alıb.**

AZƏRTAC xəbər verir ki, Makron məktubunda Fransa kolonial hakimiyyətinin və ordusunun Kamerunda repressiv zorakılıqlara əl atmış olduğunu bildirir. O, bu zorakılıqları açıq şəkildə "müharibə" olaraq adlandırır və etiraf edir ki, 1960-cı ildə Kamerun müstəqillik qazandıqdan sonra belə, Fransa yeni müstəqil hökumətin repressiv fəaliyyətlərini dəstəkləməyə davam edib.

Bu dövrdə siyasi və silahlı mübarizə aparan müstəqillik hərəkatlarına qarşı həyata keçirilən zorakılıqlar, Fransa və Kamerun tarixində qaranlıq səhifələr kimi qalır.

Prezident Makron xüsusilə 1956-cı il dekabrın 30-31-də Ekite kəndində baş vermiş qətliamı qeyd edir. Bu hadisə zamanı Fransa kolonial qüvvələri tərəfindən onlarla mülki şəxs və UPC (Union des Populations du Cameroun) üzvü qətlə yetirilmişdi.

Makron həmçinin Kamerunun müstəqillik liderlərindən Ruben Um Nyobenin və digər üç rəhbərin Fransa hərbi əməliyyatları nəticəsində öldürülməsini də qəbul edir. Bu, Fransa-Kamerun tarixi komissiyası çərçivəsində tarixçilərin apardığı araşdırmaların nəticəsidir.

Bununla belə, 1960-cı ildə Cenevrədə zəhərlənərək öldürülən digər tanınmış antikolonial lider Feliks-Rolan Mumye ilə bağlı məsuliyyət məsələsində Fransa tərəfi hələlik yeni dəlil ortaya qoymayıb.

Makron Fransa-Kamerun tarixçilərindən ibarət birgə komitənin yaradılacağını bildirib.



Bu komitənin məqsədi kolonial dövrün tam şəkildə araşdırılması və tarixi ədalətin bərpasına töhfə verməkdir. Fransız tərəfi bu təşəbbüsü əlamətdar irəliləyiş kimi qiymətləndirir.

Lakin heç bir siyasi və ya hüquqi təzminatın nəzərdə tutulmadığı da məktubda vurğulanır. Yəni Fransa məsuliyyəti tanıyır, lakin bu mərhələdə rəsmi üzr və ya kompensasiya addımı atmır.

Emmanuel Makronun bu bəyanatı Fransanın Afrikadakı kolonial keçmişinə tənqidi yanaşma cəhdlərinin davamı kimi qiymətləndirilə bilər. Bu etiraf həm Afrika-Fransa münasibətlərində şəffaflıq və etimadın artırılması, həm də tarixi ədalətin gec də olsa tanınması baxımından mühüm addımdır. Lakin əsl barış və ədalət üçün təkcə etiraf yetərli deyil - konkret siyasi və hüquqi mexanizmlərin tətbiqi, vətəndaşların tanınması və gələcək nəsillərə doğru tarix öyrədilməsi vacib olacaq.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 168 (9913) 13 avqust 2025-ci il ÇƏRŞƏNBƏ
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Sözünün sahibi, xalqının sevimlisi
Bayram Beqay İlham Əliyevə zəng edib
Əldə olunan razılaşmalar mehriban qonşuluq münasibətlərinin inkişafına zəruri əsas yaradacaq
Azərbaycan lideri sülhü də qazandı
Sülh sazişinin mətni Azərbaycanın şərtləri əsasında formalaşıb
Ukraynaya dost yardımı
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Yunanıstanı meşə yanğınları bürüyüb





**Yunanıstan ölkənin müxtəlif bölgələrində davam edən meşə yanğınları səbəbindən çoxsaylı yaşayış məntəqələrini boşaltmağa davam edir. Meşə yanğınları ilə bağlı çətin vəziyyət Axaya, Sakiz (Xios) və Epirus bölgələrində müşahidə olunur.**

Yanğınsöndürmə xidmətinin məlumatına görə, çərşənbə axşamı səhərdən ölkə üzrə yanğınların söndürülməsinə 4850 nəfər cəlb olunub və səhər saatlarında təyyarələr yanğınların üzərinə su tökməyə başlayıb. Yunan mətbuatı xəbər verir ki, gecə ərzində Kefaloniya və Meqarada yeni yanğınlar başlayıb. Bu arada, ötən gecə Açaya prefekturasının Patras şəhəri yaxınlığındakı Sihena bölgəsində baş verən yanğın yaşayış məntəqələrini də əhatə edib. Yanğın bir neçə evə ziyan vurub, rayon sakinləri təxliyə edilməyə məcbur olub. Sakiz (Xios) adasının şimal-qərbindəki kəndlər tamamilə boşaldılıb, yanğın kənd təsərrüfatına, meşələrə, təsərrüfatlara, anbarlara və nəqliyyat vasitələrinə ciddi ziyan vurub.

Sahil Mühafizəsinin əməkdaşları və şəxsi qayıq sahibləri təxminən 40 nəfəri Limnia bölgəsindən dəniz yolu ilə təxliyə ediblər. Epir bölgəsinin periferik Preveze bölgəsindəki Ziros bələdiyyəsində baş verən yanğın 30 kilometrə yaxın məsafəyə yayılaraq çoxsaylı kəndlərin sakinlərinin təxliyə edilməsinə səbəb olub.

### Yeni Kaledoniya Parislə razılaşmanı rədd edir

Yeni Kaledoniyanın müstəqilliyi uğrunda əsas hərəkat olan Kanakların Milli Azadlıq Sosialist Cəbhəsi (FLNKS) Fransa ilə xaricdəki ərazilərə qismən müstəqillik verilməsini nəzərdə tutan müqaviləni rədd etdiyini təsdiqləyib.

Bu barədə BFMTV telekanalı xəbər verib. Məlumata görə, qərar şənbə günü bu hərəkatın fövqəladə qurultayında qəbul edilib və çərşənbə günü arxipelaqın paytaxtı Numea şəhərində keçirilən mətbuat konfransında təsdiqlənib.

Xatırladaq ki, iyulun 12-də Parisətrafı Bujivalda imzalanmış müqavilə, xüsusən də suveren səlahiyyətlərə (valyuta, ədliyyə, polis) malik "Yeni Kaledoniya dövləti"nin yaradılmasını nəzərdə tuturdu. Müstəqillik əleyhdarlarının şərhlərinə görə, söhbət Yeni Kaledoniya icmasının fransız millətinə inteqrasiya olunmuş və Konstitusiyada təsbit edilmiş dövlətə çevrilməsi, eləcə də Fransa vətəndaşlığından ayrılmaz Kaledoniya vətəndaşlığının yaradılmasından gedirdi.

Kaledoniya İttifaqı partiyasının baş katibi və FLNKS siyasi bürosunun üzvü Dominik Foşi bildirib ki, hərəkat Bujival müqaviləsini rəsmi olaraq rədd edir, çünki bu, "mübarizəmizin əsasları və nailiyyətləri ilə bir araya sığmır".

Müqavilə müstəqillik tərəfdarlarının tələb etdiyi Yeni Kaledoniyanın suverenliyi ilə bağlı daha bir referendumun keçirilməsini nəzərdə tutmurdu. Bu, regionun müstəqilliyini müdafiə edən siyasi fəallar arasında hiddət dalğasına səbəb olub.

Leyboristlər Partiyasının nümayəndəsi Mari-Pyer Guayeş deyib: "Bu, qəti rədd cavabıdır. Biz fəallarımızı sülh yolu ilə, lakin qəti şəkildə dövlətə, əgər bunu tətbiq etməyə cəhd edərsə, dayanmasını söyləməyə çağırırıq".

Son məlumata görə, Fransanın dənizaşırı ərazilərin işləri üzrə nazir Manuel Valls "tarixi kompromis" adlandırdığı razılaşmanı xilas etməyə çalışmaq üçün gələn həftə Yeni Kaledoniyaya səfər etmək niyyətində olduğunu açıqlayıb.

Razılıq may ayında Yeni Kaledoniyanın yeni statusu ilə bağlı danışıqların nəticəsiz qalmasından sonra əldə edilib. Sənəd Yeni Kaledoniyada müxtəlif nümayəndə heyətlərinin nümayəndələri tərəfindən ratifikasiya olunmalı idi.

### "Qərb-2025" təlimlərində nüvə silahından istifadənin planlaşdırılması məşq ediləcək

Belarusun müdafiə naziri Viktor Xrenin Prezident Aleksandr Lukaşenkoya qapalı məruzədən sonra jurnalistlərə bildirib ki, Belarus-Rusiya "Qərb-2025" təlimlərində nüvə silahı və "Oreşnik" sistemindən istifadənin planlaşdırılması məşq ediləcək.

BelTA dövlət agentliyi nazirin dediklərinə istinadən xəbər verir ki, təlimlərdə nüvə silahından istifadənin planlaşdırılması üzrə təcrübə aparılacaq: "Bu, bizim üçün strateji çəkindirmənin mühüm elementidir. Dövlət başçısının tələb etdiyi kimi, biz hər şeyə hazır olmalıyıq. Biz qərb və şimal sərhədlərimizdə vəziyyəti görürük və militarizasiyanı və hərbi fəaliyyəti sakitcə izləyə bilmərik. Biz açıqlığımızı və sülhsevərliyimizi nümayiş etdiririk, lakin dövlətimiz hər zaman hər bir vəziyyətə hazır olmalıdır".

Müdafiə naziri əlavə edib ki, belarus hərbçiləri və rusiyalı həmkarları təlimlər zamanı "Oreşnik" sistemindən istifadənin planlaşdırılmasını da məşq edəcəklər.

Belarus və Rusiya silahlı qüvvələrinin "Qərb-2025" birgə təlimləri sentyabrın 12-dən 16-dək keçiriləcək. Təlimi Respublika Silahlı Qüvvələrinin Baş Qərargahı idarə edəcək.

Ümumi məqsədi Belarus və Rusiya Federasiyasının İttifaq dövlətinin hərbi təhlükəsizliyini təmin etmək imkanlarını, mümkün təcavüzü dəf etməyə hazırlığını yoxlamaq olan təlimin mövzusunun "İttifaq dövlətinin hərbi təhlükəsizliyinin təmin edilməsi maraqları naminə qoşun qruplarının (qüvvələrin) istifadəsi" olduğu bildirilir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# *ÜST:* Uzunmüddətli isti hava dalğaları insan sağlamlığı üçün ölümcül təhlükəyə çevrilir

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) səhiyyə və iqlim ekspertləri ilə birlikdə xəbərdarlıq edib ki, uzunmüddətli isti hava dalğaları artıq müvəqqəti narahatlıq deyil, insan sağlamlığı üçün ölümcül ola biləcək artan təhlükəyə çevrilir.**



AZƏRTAC AFP agentliyinə istinadla xəbər verir ki, ən böyük təhlükə təkcə istivurma və ya ağır dərəcədə susuzluq kimi ani təsirlərdə deyil, həm də isti dalğanın başlamasından bir neçə gün sonra simptomları görünə və ya ölümlə nəticələnə bilən ürək və tənəffüs xəstəliklərinin ağırlaşmasıdır. Fransanın səhiyyə naziri Katerin Vutri istinin bədənə təsirinin dərhal görünmədiyini qeyd edib, insanları növbəti günlərdə sayıq olmağa çağırıb.

İsti havaların məcmu təsirlərinin miqyası ilə bağlı müzakirələr davam etsə də, yeni tədqiqatlar fəlakətin əlavə ölçülərini aşkar edib. 2024-cü ildə "The Lancet Countdown and Sleep Medicine" jurnalında dərc edilən elmi hesabatlarda temperaturun yüksəlməsi orqanizmin sağalma qabiliyyətini pozan "qlobal yuxu təhlükəsi" kimi təsvir edilib.

Alimlər isti dalğaları çox vaxt "səssiz qatil" adlandırırlar. Onlar yaşlı insanlara qeyri-mütənasib təsir göstərir. Gecənin davamlı temperaturu ölümün əsas səbəbidir, çünki yaşlı insanlar yatarkən bədən istiliyini şüurlu şəkildə tənzimləyə bilmirlər. "Lancet Countdown" jurnalında dərc olunan 2024 hesabatı son 45 ildə 65 yaşdan yuxarı insanlar üçün qlobal istidən ölüm hallarını izləyib. Bu, 2010-cu ildən bəri artan istilik dalğası hadisələri və əhalinin qocalması səbəbindən yaşlı insanların istiliyə məruz qalmasının dramatik şəkildə artdığını göstərir.

ÜST bu yay mövsümündə Avropada və dünyanın başqa yerlərində getdikcə artan rekord temperatur göstəriciləri fonunda qeyd edir ki, anomal isti havaların sağlamlıq fəsadları ilə bağlı Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) ilə birlikdə yeni hesabat hazırlanacaq.

# İtaliyada anomal istilərə görə 16 şəhərdə qırmızı xəbərdarlıq verilib

**İtaliyada Afrika antisiklonunun güclənməsi səbəbindən qarşıdakı iki gün üçün 16 şəhərdə qırmızı hava xəbərdarlığı elan edilib.**



AZƏRTAC xəbər verir ki, həmin şəhərlər paytaxt Romada, eləcə də Bolonya, Bolzano, Breşiya, Kampobasso, Florensiya, Frozinone, Genuya, Latina, Milan, Peruccia, Rieti, Turin, Venesiya, Verona və Viterbodur.

Ölkədə növbəti günlərdə havanın temperaturunun 40 dərəcəni ötəcəyi bildirilib. Xroniki, xüsusilə ürək xəstələrinin və həssas insanların daha diqqətli olmaları məsləhət görülüb. Əhaliyə kölgə yerlərdə qalmaq və günorta saatlarında küçəyə çıxmamaq tövsiyə edilib.

# Böyük Britaniyadakı erkən Orta əsrlərə aid qəbiristanlıqlarda Qərbi Afrika izi tapılıb

**Böyük Britaniyanın cənub sahilində tapılan VII əsrə aid skeletlərdə Qərbi Afrika mənşəyi aşkar edilib.**

AZƏRTAC "Independent"ə istinadla xəbər verir ki, Kent bölgəsindəki Updovn və Dorset bölgələrindəki "Worth Matravers" qəbiristanlıqlarında dəfn olunmuş insanların qalıqlarından götürülən DNT nümunələri onların Qərbi Afrika mənşəli olduğunu ortaya çıxarıb. Bu tapıntılar erkən Orta əsrlərdə Avropaya miqrasiya prosesləri ilə bağlı yeni suallar doğurub. Arxeoloqlar həmin dövrdə materikdən, əsasən, Şimali Avropadan İngiltərəyə əhəmiyyətli köçlərin baş verdiyini sənədləşdiriblər. Tarixi mənbələrdə anglların, saksanların və yutların məskunlaşması təsvir olunur. Lakin daha uzaq bölgələrdən miqrasiyanın miqyası indiyədək aydın deyildi.



Araşdırmanın nəticələri "Antiquity" jurnalında dərc edilən iki elmi məqalədə təqdim olunub. Bildirilib ki, dəfn edilmiş iki fərdin DNT-si bugünkü Saharaaltı Qərbi Afrika xalqları ilə genetik oxşarlığı göstərir.

Alimlərin fikrincə, bu nəticələr erkən Orta əsrlərdə insanların hərəkət marşrutlarının və əlaqələrinin əvvəllər düşünüləndən daha geniş olduğunu göstərir.

# İtaliya sahillərində miqrantların olduğu iki qayıq batıb, azı 26 nəfər ölüb

**İtaliyanın cənubundakı Lampeduza adası sahillərində miqrantları daşıyan iki qayıq batıb.**

AZƏRTAC xəbər verir ki, İtaliya sahil mühafizə xidmətinin və maliyyə polisinin patrul gəmiləri ilə ümumilikdə 61 nəfər xilas edilib, həmçinin sudan 26 cəsəd çıxarılıb. İtkin düşənlərin axtarışları davam edir.

Sağ qalanların sözlərinə görə, iki qayıqda ümumilikdə 90-100 miqrant olub. Mühacirlərin Liviyanın Tripoli şəhərindən yola düşdüyü və Pakistan, Sudan, Somali vətəndaşları olduqları bildirilib.

İtaliyanın Baş naziri Ciorcia Meloni deyib: "Bugünkü faciənin baş verməsi bizi xəbərdar edir ki, lazımi xilasetmə müdaxiləsi kifayət deyil və hər şeydən əvvəl dramatik problemin səbəblərini həll etmir".

Qeyd edək ki, bu ilin əvvəlindən indiyədək Aralıq dənizində 675 miqrant ölüb və ya itkin düşüb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirliyə əzizi

**İKRAM HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3817
Sifariş 1677
Qiyməti 60 qəpik